Xalqın qəzeti!

# Xalq qəzeti

№ 221 (30915) 15 oktyabr 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


## “O, çox güclü bir liderdir, işini çox yaxşı görür”



Səhifə ⇨ 3

## İlham Əliyevin sülh doktrinası



Səhifə ⇨ 3

## Türksoylulara yaşıl işıq!



Səhifə ⇨ 4

## Putinin mesajı, Paşinyanın “ola bilər”i



Səhifə ⇨ 4

## Şimaldan Cənuba qlobal nəqliyyat körpüsü



Səhifə ⇨ 8

## Xəzər İnşaat Həftəsi dünyaya qapı açır



Səhifə ⇨ 8

# 2 əsrə bərabər 22 il

## Bu yüksəliş İlham Əliyevin 2003-cü ilin bu günündə Azərbaycan Prezidenti seçilməsindən başlanır



**Prezident kimi xalqa ilk müraciətində “Mən hər bir azərbaycanlının prezidenti olacağam!”, – deyən İlham Əliyevin bu açıqlamanı həqiqətə çevirdiyinə tarix özü şahidlik etdi. Onun bu vədinə tam əməl edəcəyinə hamıdan çox inanan, 42 yaşlı xələfinə bu çətin və məsuliyyətli missiyanı etibar edən ümummilli lider Heydər Əliyev idi.**

### İnamdan müdrikliyə

2003-cü il seçkiləri ərəfəsində səhhətində yaranmış kəskin problemlə bağlı xaricdə müalicə alan, bu səbəbdən dövlət başçısı postuna irəli sürülmüş namizədliyini geri götürən Prezident Heydər Əliyev oktyabrın 1-də Azərbaycan xalqına müraciətində demişdi: “Üzümü Sizə – həmvətənlərimə tutaraq, qarşıdan gələn seçkilərdə Prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər”.

Müdrik və uzaqgörən Ümummilli lider inam və etibarında yanılmamışdı. Dünyanın aparıcı dövlətlərinin rəhbərlərinin siyasət nəhəngi kimi qəbul etdikləri Heydər Əliyevin özünün siyasi varisi elan etdiyi İlham Əliyevlə bağlı dediyi bu sözlər isə ən yüksək əminliklə söylənmişdi: “İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”. Varis Ulu öndərin axıra çatdıra bilmədiyi bütün planları ardıcıl reallaşdırmaqla yanaşı, ata vəsiyyətini də gerçəyə çevirdi. Xalq isə xilaskar oğlunun – Ümummilli liderin tövsiyəsini eşitdi və son 2 yüz ildə başına gətirilən müsibətlərə, ədalətsizliyə və ən əsası işğala son qoyacaq yeni liderin zəkasına və qətiyyətinə inandı.

(ardı 5-ci səhifədə)

## İrəvan geosiyasi dalandan çıxış yolları axtarır




**Ermənistan hökuməti Azərbaycanla münasibətlərin qaydaya salınması ilə yanaşı, Türkiyə ilə də əlaqələrin normallaşdırılması istiqamətində işlər aparır. Bu proses İrəvanın regionda təcriddən çıxmaq cəhdlərinin tərkib hissəsi kimi qiymətləndirilir. Rəsmi Ankara isə bu məsələdə Azərbaycanın maraqlarını əsas meyar kimi götürərək addımlar atır. Türkiyə rəsmiləri dəfələrlə bildiriblər ki, Ermənistanla diplomatik münasibətlərin qurulması və quru sərhədinin açılması yalnız Bakı və İrəvan arasında yekun sülh sazişinin imzalanmasından sonra mümkündür.**

(ardı 5-ci səhifədə)

## Yerli ayaqqabı istehsalı niyə iflas etmişdi?



Səhifə ⇨ 11

## 5-ci Azərbaycan Beynəlxalq “Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı” – “Rebuild Karabakh” sərgisinin iştirakçılarına

**Hörmətli sərgi iştirakçıları!**

Sizi 5-ci Azərbaycan Beynəlxalq “Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı” – “Rebuild Karabakh” sərgisinin açılışı münasibətilə səmimi-qəlbdən salamlayıram.

Bu il biz “Xəzər İnşaat Həftəsi” çərçivəsində 5-ci “Rebuild Karabakh” və 30-cu “Azərbaycan Beynəlxalq İnşaat “Baku Build” yubiley sərgilərini keçiririk.

Builki 5-ci “Rebuild Karabakh” sərgisi Azərbaycan Respublikasının dövlətçilik tarixində əlamətdar bir dövrə – suverenliyimizin və milli birliyimizin təcəssümü olan mühüm ildönümlərinə təsadüf edir. Biz Konstitusiyamızın qəbulunun otuz illiyini və Vətən müharibəsində qazandığımız tarixi Zəfərin beş illiyini böyük qürur hissi ilə qeyd edirik. Əldə etdiyimiz bütün bu nailiyyətlər xalqımızın sarsılmaz iradəsini, həmrəyliyini və strateji hədəflərə doğru irəliləmək əzmini təsdiq etməklə yanaşı, bizi həm də yeni bir missiya – Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsi ətrafında səfərbər edir.

Hazırda “Böyük Qayıdış” proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərdə uğurla aparılan genişmiqyaslı bərpa və quruculuq işləri regionun simasını köklü şəkildə dəyişir. Müasir şəhərsalma konsepsiyalarına uyğun şəhərlər salınır, yeni məktəblər, xəstəxanalar, yol-nəqliyyat və kommunikasiya infrastrukturu inşa olunur, iş yerləri açılır, yaşıl enerji zonaları və sənaye parkları yaradılır. Qarabağ artıq yalnız milli qürurumuzun rəmzi deyil, həm də XXI əsrin dayanıqlı inkişaf məkanı kimi formalaşır.

“Rebuild Karabakh” sərgisinin yerli və beynəlxalq iştirakçılar üçün əhəmiyyətinin ildən-ilə artması məmnunluq doğurur. Sərgidə müasir texnologiyalar və qabaqcıl innovativ həllər təqdim olunur, birgə layihələr və tərəfdaşlıq imkanları müzakirə edilir, regionun sosial-iqtisadi inkişafı üçün gələcəyə yönələn yeni fürsətlər yaradılır. Artıq beşinci dəfə keçirilən bu tədbir Azərbaycanın əldə etdiyi nailiyyətləri dünyaya nümayiş etdirməklə yanaşı, ölkəmizin qlobal miqyasda investisiya, texnologiya və innovasiya mərkəzi kimi mövqeyini daha da möhkəmləndirir.

Hər il keçirilən bu mötəbər sərgi davamlı quruculuğun, tərəqqinin və sülhün reallığını təcəssüm etdirən, eyni zamanda, gələcəyə istiqamətlənmiş önəmli tədbirdir. Burada qurulan tərəfdaşlıqlar insanlar və xalqlar arasında qarşılıqlı etimadı möhkəmləndirir, yeni əməkdaşlıq körpüləri yaradır və Qarabağı dayanıqlı inkişaf gündəliyinin mərkəzinə çevirir.

Əminəm ki, bu sərgi bütün iştirakçılar arasında tərəfdaşlıq münasibətlərinin qurulmasına, müasir inkişaf və investisiya təşəbbüslərinin müəyyən edilməsinə təkan verərək Qarabağın, eləcə də bütün regionun dirçəldilməsi baxımından bundan sonra da vacib rol oynayacaqdır.

Bu xoş fürsətdən istifadə edərək, 5-ci yubiley sərgisi münasibətilə bütün təşkilatçıları və iştirakçıları bir daha ürəkdən təbrik edir, “Rebuild Karabakh” sərgisinə qarşıdakı illərdə də uğurlar və yeni-yeni nailiyyətlər arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 oktyabr 2025-ci il**

## Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyəti ilə bağlı bir sıra tədbirlər haqqında” 2020-ci il 27 mart tarixli 975 nömrəli, “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli və “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidməti haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” 2024-cü il 29 iyul tarixli 163 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 mart tarixli 975 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 251 (Cild I); 2024, № 2, maddə 147, № 3, maddələr 259, 262, № 4, maddə 393, № 5 (I kitab), maddə 529, № 8, maddə 944, № 12 (II kitab), maddə 1359; 2025, № 6, maddə 541) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə”nin 3.0.26-cı yarımbəndində “13” rəqəmləri “14” rəqəmləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 11, maddə 1510 (Cild I); 2024, № 7, maddə 821, № 9, maddə 1005, № 11, maddə 1205; 2025, № 2, maddə 129, № 4 (I kitab), maddə 343) ilə təsdiq edilmiş “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi haqqında Əsasnamə”nin 3.1-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.1.51-ci yarımbənddən “, qanunla müəyyən edilmiş hallarda və qaydada su ehtiyatlarından istifadəyə icazə vermək” sözləri çıxarılsın;

2.2. aşağıdakı məzmunda 3.1.51-1-ci yarımbənd əlavə edilsin:

“3.1.51-1. “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununa 3 nömrəli əlavə – “Sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısı”nın 13-cü maddəsində nəzərdə tutulmuş icazəni, onun dublikatını və əlavəsini vermək, habelə həmin icazəni yenidən rəsmiləşdirmək, dayandırmaq, bərpa və ya ləğv etmək, həmçinin verilmiş icazənin şərtlərinə riayət olunmasına nəzarətin həyata keçirilməsini təmin etmək;”.

**3** Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 iyul tarixli 163 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 822) ilə təsdiq edilmiş “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidməti haqqında Əsasnamə”nin 3.1.29-cu yarımbəndində “ehtiyatlarından istifadəyə icazələrin” sözləri “obyektlərindən xüsusi məqsədlər üçün istifadəyə icazənin” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 oktyabr 2025-ci il**

## Hikmət Hacıyev Litva səfiri ilə ikitərəfli münasibətləri müzakirə edib

**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Litvanın Azərbaycandakı səfiri Kestutis Vaskelyaviçyus (Keştutis Vaškelevičius) ilə görüşüb.**



Bu barədə səfirliyin sosial şəbəkə hesabında paylaşım edilib.

Bildirilib ki, görüş çərçivəsində Azərbaycanın artmaqda olan regional rolu, ikitərəfli münasibətlər, Avropa İttifaqı-Azərbaycan münasibətləri, Ukrayna, regional inkişaflar barədə müzakirələr aparılıb:

“Görüş Azərbaycanın regional diplomatiyanın ön sıralarında olduğu, sammitlərlə zəngin bir ayda baş tutub”.

## Azərbaycan, İran və Rusiya nümayəndə heyətləri Astarada Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin infrastruktur obyektlərinə birgə baxış keçiriblər



**Oktyabrın 14-də Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin, Rusiya Federasiyası Hökuməti sədrinin müavini Aleksey Overçukun və İran İslam Respublikasının yol və şəhərsalma naziri Fərzanə Sadiqin başçılıq etdikləri nümayəndə heyətləri Astara şəhərində Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin vacib infrastruktur obyektlərinə birgə baxış keçiriblər.**

Nümayəndə heyətləri 2023-cü ilin dekabrında Azərbaycan-İran sərhədində Astaraçay üzərində açılan avtomobil körpüsünə baş çəkiblər. Körpünün buraxılış imkanı hər tərəfə gündə 500 ədəd giriş və 500 ədəd çıxış olmaqla, ümumilikdə 1000 ədəd yük nəqliyyat vasitəsi təşkil edir.

Daha sonra İranın Astara şəhərində yerləşən və Azərbaycan Dəmir Yollarına məxsus Cənub Yük Terminalının tikinti işlərinin gedişi ilə tanışlıq olub. Terminalın hazırkı illik yükaşırma imkanı 1 milyon ton təşkil edir və onun 5 milyon tona qədər artırılması nəzərdə tutulur. Tikinti işlərinin 2025-ci ilin sonuna qədər başa çatdırılması planlaşdırılır.

Nümayəndə heyətləri, həmçinin İran ərazisində Rəşt-Astara dəmir yolunun tikintisinə baxış keçiriblər.

## İslamabadda III üçtərəfli görüş



**Azərbaycan–Pakistan–Türkiyə Parlament sədrlərinin üçüncü üçtərəfli görüşü oktyabrın 14-də İslamabad Bəyannaməsinin qəbul olunması ilə başa çatıb.**

Üçtərəfli görüşün yekun iclasında çıxış edən Pakistan İslam Respublikası Milli Assambleyasının sədri Sərdar Ayaz Sadiq tədbirin üç qardaş ölkə arasında bir sıra aktual məsələlərin ətraflı müzakirəsi baxımından yaxşı imkanlar yaratdığını bildirib.

Milli Məclisin sədri Sahibə Qafarova üçtərəfli görüşdə regionda və ümumən beynəlxalq aləmdə baş verən proseslərin və ölkələrimiz arasındakı əlaqələrin nəzərdən keçirildiyini, ortaq maraq kəsb edən məsələlərə dair fikir mübadiləsi aparıldığını söyləyib. Onun sözlərinə görə, bu əlaqələr dövlətlərarası münasibətlərin bütün istiqamətlərini əhatə edir və günbəgün daha da möhkəmlənir və dərinləşir.

Azərbaycan parlamentinin sədri İslamabad Bəyannaməsinin ölkələrimiz arasındakı qardaşlıq əlaqələrinin bütün aspektlərini əhatə etdiyini, parlamentlərimizin birgə fəaliyyətinin əhəmiyyətini vurğuladığını, o cümlədən əməkdaşlığımızın daha da genişləndirilməsi üçün yeni imkanları təsbit etdiyini söyləyib.

Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş da ölkələrimiz və xalqlarımız arasında əlaqələrin daha da dərinləşdirilməsi üçün parlament diplomatiyasının imkanlarından istifadə edilməsinin vacibliyini qeyd edib.

*

**Azərbaycan, Pakistan və Türkiyə parlamentləri sədrlərinin İslamabadda keçirilən üçtərəfli görüşü başa çatandan sonra tədbir iştirakçıları bu ölkənin Fəlakətlərin Milli İdarəetmə Agentliyində olublar.**

Burada parlament sədrlərinə, eləcə də nümayəndə heyətlərinin üzvlərinə agentliyin fəaliyyəti barədə ətraflı məlumat verilib. Qonaqlara agentliyin fəlakətlərin idarə olunması üzrə iş prinsipləri, fövqəladə hallara operativ reaksiya mexanizmləri və beynəlxalq əməkdaşlıq imkanları barədə ətraflı təqdimat edilib.

*

**Azərbaycan, Pakistan və Türkiyə parlamentləri sədrlərinin üçtərəfli görüşündə iştirak etmək məqsədilə Pakistanda səfərdə olan Milli Məclisin sədri Sahibə Qafarova və Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş oktyabrın 14-də Lahor şəhərinə gəliblər.**

Səfər çərçivəsində Sahibə Qafarova və Numan Kurtulmuşun rəhbərlik etdiyi nümayəndə heyətləri Lahor şəhərində əvvəlcə Pakistanın mənəvi qurucusu, ictimai-siyasi xadimi, filosofu və şairi Əllamə Məhəmməd İqbalın məqbərəsini ziyarət ediblər. Qonaqlar, həmçinin Badşahi məscidinə baş çəkiblər və Pəncab Əyalət Məclisinə gələrək məclisin inzibati binası və burada yaradılan şəraitlə tanış olublar.

*

**Dünən Milli Məclisin sədri Sahibə Qafarova, Pakistan Milli Assambleyasının sədri Sərdar Ayaz Sadiq və Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş Lahor şəhərində Pakistanın Pəncab əyalətinin Baş naziri Məryəm Nəvaz Şərif ilə görüşüblər.**

Söhbət zamanı Azərbaycan, Pakistan və Türkiyə parlamentlərinin sədrlərinin İslamabadda keçirilən üçtərəfli görüşünün və orada müzakirə olunan məsələlərin əhəmiyyəti qeyd edilib.

Görüşdə ikitərəfli və üçtərəfli formatda əməkdaşlığımızın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

***XQ***

## Zəngəzur dəhlizinin yeni xəritəsi




**“Azərbaycan Kartoqrafları” İctimai Birliyi Zəngəzur dəhlizinin xəritəsini hazırlayıb. Xəritənin altlığı yüksək keyfiyyətli kosmik şəkillər əsasında tərtib edilib”. Bu barədə “Azərbaycan Kartoqrafları” İctimai Birliyinin sədri Müqabil Bayramov açıqlama verib. O deyib ki, xəritədə Azərbaycan, Ermənistan, İrandan müvafiq hissələr – yaşayış məntəqələri, yollar, çaylar, dağlar verilib. Xəritədə həmçinin Araz dəhlizi öz əksini tapıb. Kartoqrafik əsər Azərbaycan və ingilis dillərindədir.**

***XQ***




## QMİ sədrinin ABŞ görüşləri

**Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə ABŞ səfəri çərçivəsində BMT Baş katibinin müavini Migel Anxel Moratinosla görüşüb.**



Migel Anxel Moratinos Azərbaycan xalqını Ermənistanla sülhün bərqərar olması münasibətilə təbrik edib. Bildirib ki, BMT-nin Sivilizasiyalar Alyansı olaraq bundan sonra da Azərbaycanla sıx əlaqələri davam etdirmək niyyətindədirlər.

Tərəflər, həmçinin gələn il Azərbaycanda Qafqaz Müsəlmanları İdarəsi, Müsəlman Ağsaqqalları Şurası və BMT-nin Sivilizasiyalar Alyansının təşkilatçılığı ilə keçiriləcək İslamofobiya ilə mübarizə konfransını, eləcə də BMT-nin Sivilizasiyalar Alyansının bu ilin dekabr ayında Səudiyyə Ərəbistanında təşkil edəcəyi növbəti qlobal forumu müzakirə ediblər.

Bundan başqa, QMİ sədri "Dinlər Sülh Uğrunda" Təşkilatının həmprezidenti və Ümumdünya Şurasına üzv seçilməsi ilə əlaqədar rəhbərlik etdiyi nümayəndə heyəti ilə birlikdə təşkilatın Nyu-Yorkdakı baş ofisini ziyarət edib.

***XQ***

# “O, çox güclü bir liderdir, işini çox yaxşı görür”

**Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Trampın və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Yaxın Şərq Sülh Sammitinə dəvət olunması bir çox mətləblərdən xəbər verir. Bir halda ki, söhbət sülhdən gedir, Azərbaycanın bu məfhumda rolu böyükdür. Əlbəttə ki, belə qənaətə gələrkən vurğulanmalı bəzi məqamlar var.**




*ABŞ Prezidenti Misirdə Azərbaycan Prezidenti İlham Əliyevi belə dəyərləndirdi*

“Biz Cənubi Qafqazda sülh qurmalıyıq”. Bu fikri Prezident İlham Əliyev bu il martın 13-də XII Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışında səsləndirmişdi. Lakin ölkəmizin liderinin bu anlamda daha təsirli çıxışlarının olduğunu bilirik. İlham Əliyev Silahlı Qüvvələrimizin 2023-cü ilin sentyabrında həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra xalqa müraciətində demişdi: “Biz təklif edirik ki, Cənubi Qafqaz ölkələrinin gələcəyi sülhə, əmin-amanlığa, inkişafa söykənsin. Biz təklif edirik ki, bölgəmizdən uzaqda yerləşən, ancaq öz siyasi gündəliyini güdən və erməni xalqından bir alət kimi istifadə edən, onları istismar edən və dar gündə onları, necə deyərlər, satan qüvvələr, saxtakarlar, korrupsiyalaşmış siyasətçilər əl çəksinlər bizdən. Dünyanın o başında oturub bizə qarşı əsassız ittihamlar irəli sürənlər əl çəksinlər bizdən, qoysunlar Cənubi Qafqaz rahat nəfəs alsın. Bu bölgə əsrlər boyu davalar, savaşlar, qanlı toqquşmalar məkanı olmuşdur. Yetər artıq!”.

Qeyd edək ki, Prezident İlham Əliyev xalqa müraciətində, həmçinin Azərbaycanın və Ermənistanın öz aralarında olan məsələləri tənzimləyəcəyinə, sülh müqaviləsi imzalayacağına və Cənubi Qafqaz ölkələrinin üçtərəfli formatda gələcək əməkdaşlıq haqqında işləməyə başlayacaqlarına ümidlərin olduğunu da bildirmişdi. Doğrudur, antiterror tədbirlərindən sonra da İrəvanın sülhə gəlməsi o qədər rəvan olmadı. Bununla belə, dövlətimizin başçısının səsləndirdiyi fikirlərin reallığa çevrildiyini söyləmək mümkündür.

Sözümüz ondadır ki, Azərbaycan sülh yaratmağa müvəffəq olmuş ölkədir və məsələyə mövcud prizmadan yanaşsaq, dövlətimizin başçısının dünyanın mühüm sülh sammitinə dəvətində ciddi məntiq var. Bu məntiqin digər siyasi cəhətlərinə nəzər salmaq üçün deyək ki, Rusiya barışın artıq qərarlaşdığı Cənubi Qafqaz regionu ilə tarixi bağlılıq tellərinə malikdir. İndiki durumda bu tellərin hansı şəraitdə və necə yaranmasının əhəmiyyəti yoxdur. Əlbəttə, tarixi bağlılıq Moskvaya regiona ənənəvi rus imperializminin pəncərəsindən baxmağa da əsas verə bilməz.

Hər bir halda, Rusiyanın Cənubi Qafqazdakı varlığı nəzərə alınmalıdır. Lakin ötən müddətdə yaşanan proseslər göstərir ki, Qərbin bəzi dairələri regionu ikinci anti-Rusiya cəbhəsinə çevirmək istədilər. Onlar bunun üçün məlum təyyarə olayı səbəbilə Bakı və Moskva arasında yaranmış gərginlikdən faydalanmağa çalışdılar, habelə Azərbaycan və Ermənistan arasında avqustun 8-də Vaşinqtonda əldə edilmiş razılaşmada anti-Rusiya motivləri qabartmağa cəhd göstərdilər. Əlbəttə, məsələnin qoyuluşu və mahiyyəti heç də belələrinin hesabladıqları kimi olmadı və ola da bilməzdi.

Mövcud dolaşıq siyasi labirintdə Ermənistanla bağlı hər şey aydındır. Ölkənin hakimiyyəti anti-Rusiya ovqatına köklənib və bu kökləniş 2018-ci ildə baş nazir Nikol Paşinyan komandasının iqtidara yiyələnməsindən sonra özünü ən müxtəlif fazalarda göstərməkdədir. Azərbaycana gəldikdə, ölkəmiz hər zaman balanslı siyasət yürüdüb və bu siyasətinə sadiqdir. Haqqında söz açdığımız gərginliyə gəlincə, onu yaradan Rusiya oldu. Ölkə ötən on ayda təyyarə olayı xüsusunda obyektiv mövqe nümayişini ləngitdi. Əslində, bu yolla Kremlin nəyə nail olduğu da qeyri-müəyyəndir...

Bəli, özünün balanslı siyasətinə sadiq qalan Azərbaycan Rusiya ilə münasibətlərdəki gərginliyə baxmayaraq, Cənubi Qafqaz gündəmini Kremlsiz təsəvvürə gətirmədi. Prezident İlham Əliyev, ümumən ölkəmizin iqtidar təmsilçiləri Vaşinqton görüşündən sonra da Rusiyanı sülhün dividendlərinə, belə demək mümkünsə, ortaq edən mesajlar verdilər. Dövlətimizin rəsmiləri müxtəlif açıqlamalarında həm Rusiyanın, həm də İranın regional kommunikasiyalardan, daha doğrusu, Zəngəzur dəhlizinin (TRIPP) timsalında, “Tramp marşrutu” kimi leqallıq qazanmış bağlantı layihəsindən götürəcəyi faydanı diqqətə çatdırdılar.

Yəni tam əminliklə deyə bilərik ki, Azərbaycan amili, mahiyyətcə, Qərb, Rusiya və İran arasında birləşdirici, yaxud tənzimləyici rol oynadı. Ancaq məsələyə ziddiyyət yox, rasionallıq bucağından yanaşsaq, Azərbaycanın sülhə əsaslanmış bu gündəliyi Qərbə də sərfəlidir və görünür, bunu anlayanlar tapıldı. Nəzərə alaq ki, Cənubi Qafqazda regional kommunikasiyaların açılması bütövlükdə dünya üçün vacibdir. Əlbəttə ki, Rusiyanın hegemon rol oynamayacağı təqdirdə. Rusiya da prosesdə maraqlıdır. Ukraynada müharibənin davam etdiyi və nə zaman bitəcəyinin qeyri-müəyyən olduğu bir dönəmdə ölkə əlavə nəfəsliyə ehtiyac duyur. O nəfəsliyə ki, onun bağları Qərbin əlində olmasın.

Nəticəyə gəlirik ki, Azərbaycanın sülh gündəliyi Cənubi Qafqazı ayrıca platformaya çevirir. Mövcud platformada ölkəmiz, müəyyən mənada, regional qarantyor ampluasındadır. Qarantyorun iki şərti var. Birincisi, Qərb Rusiya ilə ziddiyyətlərinin davamını istəyirsə, onu başqa müstəvidə axtarmalıdır, Cənubi Qafqazda yox. İkincisi, Moskva Qərbə qarşı inad göstərməkdə israrlıdırsa, bunu heç bir halda Cənubi Qafqazda etməməlidir. Nəhayət, Azərbaycanın istədiyi budur ki, Cənubi Qafqaz bütün konfrontasiyalardan uzaq iqtisadi platforma olsun. Bu platforma özündə Qərbə və Kremlə bərabər ədalətli şərtlər altında mənfəətlə yanaşı, region xalqlarına asayiş və rifah gətirməlidir.

Sonda onu da deyək ki, Azərbaycan sülhü gücü hesabına əldə və diktə etmiş ölkədir. Şübhəsiz, bu, böyük bacarıq və səriştənin məhsuludur. Elə bir bacarıq və səriştənin ki, hazırkı beynəlxalq reallıqlara nəzər salsaq, bu, yalnız Prezident İlham Əliyevdə var. Dövlətimizin başçısını fərqləndirən ən böyük xüsusiyyət də elə budur və bu xüsusiyyət ali səviyyədə dəyərləndirilir. Deməli, Prezident Trampın Yaxın Şərq Sülh Sammitində dövlətimizin başçısını nəzərdə tutaraq “O, çox güclü bir liderdir, işini çox yaxşı görür” şəklində verdiyi mesaj yalnız xoş söz və ya iltifat deyil. Mesajın arxasında ölkəmizin liderinin əzmi və iradəsi, bütün mürəkkəb situasiyaları öz xeyrinə dəyişmək kimi müstəsna qabiliyyəti dayanır.

*Ə.CAHANGİROĞLU*
*XQ*

# İlham Əliyevin sülh doktrinası

## *Qlobal diplomatiyada gerçək paradiqma*

**Müasir beynəlxalq münasibətlər sistemində bir həqiqət danılmaz olaraq qalır: Dünyanı xaosdan sabitliyə çıxaran amil liderlik müdrikliyidir. Bunu təsdiq edən əsas faktorlardan biri də Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi sülh diplomatiyasıdır. O, XXI əsrin qlobal böhranlar dövründə milli maraqlara söykənən, amma qlobal məsuliyyət daşıyan xarici siyasət modelinin müəllifidir.**



Bu gün beynəlxalq münasibətlər sistemi dərin transformasiya mərhələsindədir. Liberal nizamın tənəzzülü, çoxqütblü güc balansının formalaşması və regional konfliktlərin intensivləşməsi beynəlxalq sabitliyi sistemli şəkildə sarsıdır. Ukrayna müharibəsi, Yaxın Şərqdə davam edən qarşıdurmalar, Asiya və Afrikada uzanan böhran zəncirləri göstərir ki, dünya artıq əvvəlki qaydalarla idarə edilə bilmir. Ənənəvi siyasi modellər köhnəlir, institutlar funksional çevikliyini itirir, bir çox dövlətlər isə strateji planlaşdırma qabiliyyətindən məhrum qalır. Bütün bunların kökündə bir reallıq dayanır: populizmin cazibəsi uzunmüddətli strateji məsuliyyətin yerini tutur, nəticədə dövlətlər taktiki qazancların arxasınca gedərək strateji uduşlardan imtina edirlər.

Məhz belə bir qlobal qeyri-müəyyənlik mühitində İlham Əliyevin siyasi davranışında fərqli bir model formalaşıb – realist uzaqgörənliyə, sistemli sabitliyə və daxili həmrəyliyə əsaslanan idarəetmə tərzi. Onun liderlik konsepsiyası nə güc nümayişinə, nə də ritorik populizmə söykənir. Onun siyasətinin mahiyyəti milli maraqları beynəlxalq hüququn çərçivəsində qorumaq, daxildə sabitliyi təmin etməklə xaricdə etibarlı tərəfdaş imicini formalaşdırmaqdır.

Prezident İlham Əliyevin siyasi uzaqgörənliyi normativ diplomatiyanın, hüquqi legitimliyin və etibarlı tərəfdaşlıq prinsipinin sintezidir. O, beynəlxalq münasibətlərdə reallığı danmayan, amma ədaləti inkar etməyən bir xətt qurdu. Azərbaycanın regionda vasitəçi kimi çıxış etməsi, müxtəlif qarşıdurma tərəfləri ilə dialoq yaratmaq təşəbbüsləri də bu reallığın təzahürüdür.

Deməli, İlham Əliyevin rəhbərlik modeli qlobal anarxiya şəraitində dövlət idarəçiliyinin rasional və məsuliyyətli nümunəsini təqdim edir. Modelin dayağı müdriklikdir. Yəni qısamüddətli emosional qərarların deyil, uzunmüddətli strateji hesablamaların üstün tutulması. Dünya nizamının qeyri-sabitliklə çalxalandığı bir zamanda bu yanaşma Azərbaycanın təkcə regional sabitliyin təminatçısı deyil, həm də yeni beynəlxalq nizamın formalaşmasında fəal iştirakçıya çevrilməsinə imkan verir.

* * *

İlham Əliyevin formalaşdırdığı sülh diplomatiyası konsepsiyası müasir beynəlxalq münasibətlərdə unikal hadisə kimi dəyərləndirilə bilər. Bu konsepsiyanın mahiyyəti ondan ibarətdir ki, Azərbaycan artıq təkcə öz ərazi bütövlüyünü bərpa edən və ya regional sabitlik uğrunda çalışan bir dövlət deyil, həm də qlobal sabitlik fəlsəfəsini ixrac edən aktor kimi çıxış edir. İlham Əliyevin sülh yanaşması klassik diplomatiyanın çərçivələrini aşır, çünki burada sülh, sadəcə, münaqişənin dayandırılması kimi deyil, dayanıqlı nizamın qurulması, ədalətin institusional formaya salınması və qarşılıqlı etimadın sistemli şəkildə möhkəmləndirilməsi kimi təqdim olunur.

Dövlət başçısının sülh siyasətinin təməlində ilk növbədə milli maraqla beynəlxalq hüquq arasında qurulmuş unikal balans dayanır. Azərbaycan heç bir geosiyasi blokun tərkib hissəsi deyil və eyni zamanda, heç birinə qarşı da yönəlmir. İlham Əliyevin diplomatik strategiyası dövlətin suverenliyini qlobal əməkdaşlıqla uzlaşdırmağa, müstəqil qərarvermə hüququnu beynəlxalq öhdəliklərlə sinxronlaşdırmağa əsaslanır. Bütün bu amillər Azərbaycanın həm regional, həm də beynəlxalq sistemdə etibarlı tərəfdaş kimi qəbul olunmasına imkan verir.

İlham Əliyevin sülh konsepsiyası “reallıq üzərində qurulan ədalət” anlayışına söykənir. Qarabağ münaqişəsinin həlli prosesi bu baxımdan parlaq nümunədir. Uzun illər beynəlxalq hüquq sənədlərində tanınan, amma praktik səviyyədə icra olunmayan ədalət İlham Əliyevin rəhbərliyi ilə praktik reallığa çevrildi. Əslində, bu, beynəlxalq hüququn deklarativ prinsiplərdən konkret dövlət siyasətinə çevrilməsi idi. İlham Əliyev göstərdi ki, sülh yalnız kompromislər və ya təzyiqlər hesabına deyil, haqq, hüquq və güc balansının düzgün idarə olunması ilə mümkündür. Həmin model postmünaqişə dövrü üçün yeni presedent yaratdı: sülh ədalətsizlik üzərində yox, reallıq üzərində qurulmalıdır.

Bakı artıq təkcə regional oyunçu deyil, həm də qlobal diplomatik vasitəçi statusu qazanıb. Yaxın Şərqdə baş verən hadisələr, Misir və ABŞ kimi dövlətlərin İlham Əliyevə göstərdiyi etimad, Azərbaycanın beynəlxalq sammitlərdə oynadığı konstruktiv rol bunu açıq göstərir. Bakı indi müxtəlif mədəniyyətlərin və maraqların qovuşduğu neytral diplomatik mərkəz funksiyasını daşıyır.

Dövlət başçısının siyasi kursunun gücü ondadır ki, o, qarşıdurmaları ideoloji çərçivələrdə deyil, praktik reallıqlar və qarşılıqlı maraqlar üzərində həll etməyi təklif edir. İlham Əliyevin sülh diplomatiyası, əslində, qlobal səviyyədə “stabilizasiyanın ixracı” modelidir. O, dövlətləri qarşıdurmadan uzaqlaşdıraraq ortaq təhlükəsizlik və ədalət maraqları ətrafında birləşməyə çağırır.

Beləliklə, bu doktrinanın məğzi üç istiqamətdə formalaşır: suverenlik və beynəlxalq hüququn sintezi, sülhün reallığa əsaslanması və Bakının qlobal dialoq mərkəzinə çevrilməsi. İlham Əliyev bu modeli müasir dünya üçün alternativ sülh fəlsəfəsi kimi təqdim edir.

* * *

Donald Trampın BMT Baş Assambleyasında İlham Əliyevi “böyük lider və dost” kimi xarakterizə etməsi reallığın qəbulunun siyasi etirafı idi. Tramp özü “reallıq siyasəti” konsepsiyasının tərəfdarı kimi tanınır və bu baxımdan onun İlham Əliyevə verdiyi qiymət praktik liderlik fəlsəfəsinin tanınmasının ifadəsi idi.

Trampın siyasi dünyagörüşü qlobal romantizmdən uzaqdır. ABŞ prezidenti beynəlxalq münasibətləri dəyərlər və idealizmlər müstəvisində deyil, güc, maraq və nəticə parametrləri əsasında dəyərləndirir. İlham Əliyevin diplomatiyası da məhz bu realizm fəlsəfəsinin Cənubi Qafqazdakı tətbiqidir. Fərq ondadır ki, o, bu modeli strateji məsuliyyət və balanslı rasionalizm çərçivəsində inkişaf etdirir, reallığı dövlətçilik düşüncəsinin idarəetmə prinsipinə çevirir.

Balanslı realizm Azərbaycan diplomatiyasını fərqləndirən əsas keyfiyyətdir. İlham Əliyev göstərir ki, dövlət siyasəti nə idealizmin emosional enerjisi, nə də gücün kor impulsu ilə idarə olunmalıdır. Əksinə, məsuliyyətli dövlətçilik və praktik realizm birlikdə milli maraqları qoruyur, sülhün davamlılığını təmin edir və beynəlxalq nüfuzu möhkəmləndirir.

Trampın “böyük lider” ifadəsi bu mənada bir liderin digərinə verdiyi reallığın təqdiridir. Bütün bu amillər XXI əsrin xaotik və post-liberal beynəlxalq mühitində İlham Əliyevin fərqli liderlik modelinin – müdrik realizmin və strateji məsuliyyətin – qəbul olunduğunun simvoludur.

* * *

Yaxın Şərq və İslam dünyası kontekstində Prezident İlham Əliyevin siyasəti Azərbaycan diplomatiyasını qlobal balansın formalaşmasında təsirli aktora çevirib. İlham Əliyevin bu regiona mənəvi məsuliyyət və strateji rasionalizmin sintezi üzərində dayanan nadir diplomatik model əsasında yanaşır.

Azərbaycanın İsraillə strateji tərəfdaşlığı ilə yanaşı, Fələstin xalqının hüquqlarına açıq və prinsipial dəstək göstərməsi bu siyasətin bünövrəsini təşkil edir. Bununla İlham Əliyev göstərir ki, müasir dünya siyasətində tərəf tutmaq yox, dəyərli tarazlıq yaratmaq əsasdır. O, reallığın diktəsinə boyun əymədən, ədalətin universal prinsiplərinə söykənərək həm siyasi, həm də mənəvi legitimlik qazanır. Onun Misir Prezidenti Əbdülfəttah əs-Sisi ilə görüşündə səsləndirdiyi “ədalətli sülh” çağırışı bu siyasətin konseptual ifadəsi idi. Fələstin dövlətinin yaradılmasını “beynəlxalq ədalətin bərpası” kimi səciyyələndirən lider İslam dünyasının emosional ritorikasını rasional siyasi təklifə çevirdi.

* * *

Prezident İlham Əliyevin BMT Təhlükəsizlik Şurasının islahatı ilə bağlı irəli sürdüyü təklif, İslam Əməkdaşlıq Təşkilatına (İƏT) daimi üzvlük yerinin ayrılması ideyası da qlobal ədalətsizliklərə verilmiş



siyasi cavab kimi dəyərləndirilməlidir. Dövlət başçımız, əslində, mövcud qlobal nizamın struktur problemlərinə toxunur: beynəlxalq qərarvermə sistemində səsi eşidilməyən xalqların və regionların təmsilçiliyinin olmaması müasir dünyanın böhranlarının əsas mənbələrindən biridir.

İlham Əliyev bu təkliflə göstərdi ki, qlobal sistemdə sabitlik yalnız hərbi balansla deyil, nümayəndəlik balansı ilə də qorunur. İƏT-in BMT Təhlükəsizlik Şurasında daimi təmsilçiliyinin təmini inkişaf etməkdə olan dövlətlərin maraqlarını ifadə edir.

Dünyada güc mərkəzləri dəyişir, siyasi çəkilər yenidən paylanır, amma qərarverici institutlar hələ də keçmişin balansına əsaslanır. İlham Əliyevin təklifi bu disbalansı aradan qaldırmaq, beynəlxalq nizamı XXI əsrin reallığına uyğunlaşdırmaq cəhdidir. Müxtəlif ideoloji və mədəni qütblər arasında etimad mühitinin qurulması Azərbaycanın yeni diplomatik brendinə çevrilib.

Son olaraq isə qeyd edək ki, İlham Əliyevin sülh doktrinası müasir beynəlxalq münasibətlərdə liderlik müdrikliyinin və dövlət məsuliyyətinin yeni standartını müəyyənləşdirir və XXI əsr siyasətinə strateji istiqamət verən təlimə çevrilir.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# Türksoylulara yaşıl işıq!

## *Ankaranın "soydaş siyasəti" mənəvi borcu milli maraqla qovuşdurur*

**Dövlətlərin siyasəti təkcə iqtisadi mənafelərlə şəkillənmir, həm də tarixi yaddaşın dərinliklərindən süzülən mənəvi öhdəliklərlə formalaşır. Bu həqiqətin bariz nümunələrindən biri Türkiyənin son strateji həmləsində özünü büruzə verir.**



Prezident Rəcəb Tayyib Ərdoğanın imzası ilə qüvvəyə minən və "Türk soylu əcnəbilərin Türkiyədə peşə ve sənətlərini sərbəst şəkildə icra etmələrinə dair" qanunun tətbiqi əsasnaməsində dəyişiklikləri ehtiva edən fərman zahirən texniki tənzimləmə olsa da, əslində, Ankara üçün yeni əsrin geosiyasətində həm mənəvi borcun ödənilməsi, həm də milli maraqların təmin edilməsi məqsədi daşıyan çoxşaxəli doktrinanın hüquqi təcəssümüdür. Sənəd Türkiyənin qlobal miqyasda səpələnmiş soydaşlarına ana Vətən qucağını açmaqla yanaşı, onları ölkənin intellektual, iqtisadi və sosial inkişafının aktiv iştirakçılarına çevirməyi hədəfləyən milli özünəqayıdış layihəsidir.

Fərmanın konseptual özəyini və inqilabi yeniliyini "türk soyluluq" meyarlarının müəyyənləşdirilməsi səlahiyyətinin mərkəzləşdirilərək birbaşa Prezidentin müstəsna ixtiyarına verilməsi təşkil edir. Əvvəlki dövrlərdə Nazirlər Şurası kimi kollegial orqan tərəfindən həyata keçirilən, bəzən uzun bürokratik prosedurlar və fərqli nazirliklərin rəyləri arasında uzanan prosesin dövlət başçısının iradəsinə verilməsi strateji hədəflərə uyğunluq qazandırır. Dəyişiklik Türkiyənin xarici siyasətindəki prioritetlərə, milli təhlükəsizlik mülahizələrinə və demoqrafik planlaşdırmaya uyğun olaraq, müəyyən dövrlərdə hansı türk icmalarına üstünlük veriləcəyini çevik şəkildə müəyyənetmə imkanı yaradır. Beləliklə, Prezident institutu soydaşlarla bağlı siyasətin formalaşdırılmasında və icrasında həlledici liderə çevrilir, qəbul edilən qərarların dövlətin ümumi strategiyası ilə tam sinxronizasiyasını təmin edir.

Yeni nizamnamənin tətbiqi üçün irəli sürülən şərtlər kompleksi prosesin həm humanist, həm də praqmatik əsaslarla tənzimləndiyini göstərir. Şərtlər zəncirinin hər halqası Türkiyənin milli maraqlarını, ictimai asayişini və əmək bazarının stabilliyini qorumaqla yanaşı, həqiqətən ehtiyacı olan və ölkəyə fayda verə biləcək şəxslərin cəlb edilməsini hədəfləyir.

Müraciətçinin peşəkar bacarıqlarının və təhsil səviyyəsinin Türkiyə standartlarına uyğunluğunun təsdiqlənməsi tələbi isə qərarın iqtisadi praqmatizmini ortaya qoyur. Struktur ölkənin ehtiyac duyduğu sahələrdə, xüsusilə yüksək texnologiyalar, səhiyyə, müdafiə sənayesi və akademik sahələrdə ixtisaslı kadr çatışmazlığının aradan qaldırılmasına xidmət edir. Bu yolla Türkiyə, eyni zamanda intellektual potensial transferi (beyin axını) həyata keçirərək elmi-texniki və iqtisadi inkişafına təkan verməyi hədəfləyir.

Təhlükəsizlik aspekti yeni tənzimləmədə qırmızı xətlə keçir. Müraciətçinin peşəsini icra etməsində təhlükəsizlik probleminin olmaması şərti Türkiyənin son illər üzləşdiyi terror təhdidləri və regional qeyri-sabitlik fonunda müstəsna əhəmiyyət kəsb edir.

Yeni şərtlər arasında bəlkə də ən çox diqqət çəkən və qərarın humanitar fəlsəfəsini aydın şəkildə ortaya qoyan iki maddə var. Birincisi, müraciət edən şəxs vətəndaşı olduğu ölkədə özündən asılı olmayan səbəblərə görə peşəsini, sənətini və ya işini icra edə bilmir və bu səbəbdən Türkiyədə yaşamağa məcbur qalır. İkincisi isə, həmin şəxs vətəndaşı olduğu ölkənin əhalisinin böyük əksəriyyətindən fərqli etnik və mədəni kimliyə malik olduğunu sübut etməlidir. İki şərt birlikdə təhlil edildikdə, qanunun hədəf kütləsinin kimlər olduğu aydınlaşır. Tənzimləmə, sadəcə, daha yaxşı iqtisadi şərait axtaran hər türk soylu fərd üçün hazırlanmayıb, ilk növbədə vətənlərində etnik kimliklərinə görə təzyiqə məruz qalan, assimilyasiya siyasəti ilə üzləşən, peşəkar fəaliyyətləri əngəllənən və həyati təhlükə altında yaşayan məzlum və məcburi köçkün vəziyyətindəki soydaşlara yönəlikdir.

Strateji qərarın arxasında yatan geosiyasi məntiq Türkiyənin XXI əsrdəki xarici siyasət doktrinasının prinsipləri ilə üst-üstə düşür. Birincisi, Türkiyənin Türk dünyası ilə inteqrasiya siyasətinin hüquqi infrastrukturunu gücləndirir. Türk Dövlətləri Təşkilatı (TDT) vasitəsilə siyasi, iqtisadi və hərbi sahələrdə dərinləşən əməkdaşlıq fərmanla sosial və demoqrafik ölçü qazanır. Türkiyə bu qərarla bütün Türk dünyası üçün sadəcə siyasi lider funksiyası ilə kifayətlənməyərək, eyni zamanda sığınacaq, imkanlar məkanı və anavətən funksiyasını da rəsmən üzərinə götürdüyünü nümayiş etdirir. Tədbir Türkiyənin "yumşaq güc"ünün sərhədlərini genişləndirir, fərqli coğrafiyalardakı soydaşlar arasında Ankaraya qarşı loyalığı və bağlılığı artırır.

İkincisi, qərar demoqrafik mühəndislik və insan kapitalının idarə edilməsi baxımından strateji əhəmiyyətə malikdir. Doğum səviyyəsinin azalma tendensiyası göstərdiyi və əhalisinin yaşlanmağa başladığı dövrdə Türkiyə xaricdən gələcək gənc, dinamik, təhsilli və mədəniyyət baxımından asanlıqla inteqrasiya ola biləcək insan resurslarına ehtiyac duyur. Qərb ölkələrinin tamamilə fərqli mədəniyyətlərdən gələn miqrantların inteqrasiyasında yaşadığı dərin sosial problemlərdən fərqli olaraq, türk soylu köçkünlər dil, din, adət-ənənə və həyata baxış tərzindəki yaxınlıq sayəsində Türkiyə cəmiyyətinə daha ağrısız və sürətli şəkildə adaptasiya ola bilərlər.

Bununla belə, iddialı siyasətin icrası zamanı müəyyən potensial çətinliklər və diqqət yetirilməli məqamlar da mövcuddur. "Türk soyluluğun" müəyyən edilməsinin Prezidentin səlahiyyətinə verilməsi prosesə çeviklik qazandırsa da, eyni zamanda subyektivlik və siyasi konyunkturaya həddən artıq bağlılıq riskini də yaradır. Səlahiyyətin hansı obyektiv meyarlar və şəffaf prosedurlar əsasında istifadə ediləcəyi aydınlaşdırılmalıdır.

Türkiyənin türk soylulara yönəlik qəbul etdiyi yeni tənzimləmə qısamüddətli miqrasiya həllindən daha çox, uzunmüddətli, çoxqatlı və dərin strateji düşüncənin məhsuludur. Qərar Türkiyənin tarixi irsinə sahib çıxmaq və məzlum soydaşlarına dəstək vermək kimi mənəvi vəzifələrini, eyni zamanda insan kapitalını gücləndirmək, demoqrafik dinamizmini qorumaq və regional təsirini artırmaq kimi praqmatik dövlət maraqları ilə ustalıqla birləşdirir. Siyasətin uğuru Türkiyəni XXI əsrdə sadəcə regional güc halına gətirməklə qalmayıb, həm də bütün dünyadakı soydaşları üçün cazibə mərkəzi olan qlobal lider statusuna bir addım daha yaxınlaşdıracaq.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

### *Ekspert rəyi*



**Ceyhun MƏMMƏDOV,**
**Milli Məclisin deputatı**

Türkiyənin "türk soylu" şəxslərin hüquqi statusuna dair qəbul etdiyi yeni qərar Türk dünyasının gələcəyinə yönəlik çoxşaxəli strateji baxışın parlaq ifadəsidir. Prezident Rəcəb Tayyib Ərdoğanın imzası ilə qüvvəyə minən fərman həm tarixi yaddaşın diktə etdiyi mənəvi öhdəlikləri, həm də müasir dövrün geosiyasi və demoqrafik reallıqlarını ustalıqla birləşdirən konseptual sənəd kimi diqqət çəkir.

Bu qərar bir tərəfdən dünyanın müxtəlif coğrafiyalarında assimilyasiya, təzyiq və təhlükə ilə üzləşən türk soylu icmalara ana Vətən qapılarını açaraq humanitar məsuliyyətin yerinə yetirilməsi anlamına gəlir. Digər tərəfdən isə Türkiyənin intellektual potensialını, insan kapitalını və demoqrafik dinamizmini gücləndirməyə yönələn milli strategiyanın mühüm tərkib hissəsidir.

Xüsusilə "türk soyluluq" meyarlarının Prezident tərəfindən müəyyən edilməsi Türkiyəyə müxtəlif regionlardakı soydaşlara prioritetləri milli təhlükəsizlik, xarici siyasət və demoqrafik planlaşdırma çərçivəsində çevik şəkildə müəyyənləşdirmək imkanı verir. Bu isə, Suriya, İraq, Əfqanıstan, Şərqi Türküstan, Balkanlar və Qafqazda yaşayan türk icmaları üçün ümid qapısı açır. Fərmanın mahiyyəti aydın şəkildə göstərir ki, Türkiyə Türk dünyası miqyasında liderlik missiyasını daha sistemli şəkildə həyata keçirməyə başlayır. Qanun tarixi məsuliyyətlə strateji hədəflərin kəsişməsində formalaşan yeni bir geosiyasi fəlsəfənin hüquqi çərçivəsini yaradır. Əgər bu siyasət ardıcıl və düzgün şəkildə icra edilərsə, Türkiyənin qlobal türk diasporası üçün mərkəzi statusu daha da güclənəcək və ölkə həm regional, həm də qlobal miqyasda təsir gücünü artıracaq.

# Putinin mesajı, Paşinyanın "ola bilər"i

## *Ermənistan–Rusiya əlaqələri: qeyri-leqal reallıqda nələr var?*

**Rusiyanın rəsmi mənbələri bildirirlər ki, 2024-cü ildə ölkənin Ermənistanla ticarət dövriyyəsinin həcmi rekord səviyyəyə – 12 milyard dollara çatıb. 2025-ci ilin göstəricilərində isə yarıbayarı azalma var – 6 milyard dollar. Ermənistan tərəfi də oxşar rəqəmlər açıqlayıb. Ölkənin milli statistika qurumunun məlumatında 2025-ci ilin ilk səkkiz ayı ərzində Rusiya ilə ticarət dövriyyəsinin 4,5 milyard dollar təşkil etdiyi, bunun 2024-cü ilin eyni dövrü ilə müqayisədə 51,3 faiz azalma olduğu bildirilir. Güman edirik, diqqətli oxucularımız rəqəmləri açıqladığımızın fərqinə vardılar.**



MDB Dövlət Başçıları Şurasının ötən həftə Düşənbədə keçirilən növbəti sammiti zamanı Rusiya Prezidenti Vladimir Putinlə Ermənistan baş naziri Nikol Paşinyan arasında maraqlı dialoq olmuşdu. Putin Paşinyandan Ermənistan–Rusiya ticarət dövriyyəsinin həcminin nə qədər olduğunu soruşmuşdu. İkinci rəsmi statistikanı açıqlasa da, Kreml rəhbəri cavabla qane olmamış, rəqəmlərin daha çox olduğunu vurğulamışdı. Özü də əminliklə. Bunun qarşılığında Paşinyanın cavabı bu olmuşdu – "ola bilər". Putin isə özünəxas əminliklə qeyd edilən sahə ilə bağlı hər şeyin aydın olduğuna dair təəssürat yaratmışdı. Görəsən, onun bu əminliyi nədən qaynaqlanır?

Məsələ ondadır ki, birincisi, Rusiya Ermənistan iqtisadiyyatında həm də xaricdən daxil olan pul köçürmələri üzrə liderdir. Məsələn, Ermənistanda 2024-cü ildə xarici ölkələrdən fiziki şəxslərə köçürmələrin ümumi həcmi 5 milyard 830 milyon dollar olub ki, bunun da 3,82 milyard dolları Rusiyanın payına düşüb. İkinci yerdə 690,6 milyon dollarla ABŞ qərarlaşıb. Əsas məsələ budur ki, Rusiyadan Ermənistana köçürülən pul vəsaitlərinin həcmi ikincinin ümumi daxili məhsulunun 13 faizindən çoxunu təşkil etməkdədir. Amma önəmli məqam heç də bu deyil.

İkincisi, yada salaq ki, ötən ilin sentyabrında Azərbaycanın qeyri-hökumət təşkilatları beynəlxalq ictimaiyyətdən Ermənistanın Rusiyanın sanksiyalardan yayınmasına kömək göstərməsinə göz yumulmasını dayandırmağı tələb etmişdilər. QHT-lərimizi ABŞ və Avropa İttifaqında Rusiyaya qarşı sanksiyaların tətbiqi və icrasına nəzarət üzrə əsas məsul qurumların rəhbərlərinə ünvanladıqları məktubda bir çox cəhətlərə diqqət yetirmişdilər. Bildirmişdilər ki, 2021-ci ildə Ermənistanın Rusiya ilə xarici ticarət dövriyyəsi 2020-ci illə müqayisədə 24,2 faiz artaraq, 2,6 milyard dollar, 2022-ci ildə 2021-ci illə müqayisədə 93,4 faiz artaraq 5 milyard dollar, 2023-cü ildə isə 2022-ci illə müqayisədə 45,7 faiz artaraq 7,3 milyard dollar səviyyəsinə çatıb. 2024-cü il üzrə isə bu göstərici 16 milyard dollara çatacaq.

Deməli, Ukraynaya qarşı, əslində, dünya ilə müharibə aparan Rusiya üçün müdafiə sənayesinin funksionallığını qoruyub saxlamaq prioriteti var. Ölkəyə ən müasir yarımkeçiricilərin və ikili təyinatlı digər malların ixracına sərt məhdudiyyətlərin tətbiqi bu sənaye üçün ciddi zərbədir. Özünü yarımkeçiricilərə, yüksək texnoloji maşın və mexanizmlərə olan tələbatı ödəməyə kökləmiş Rusiya Ermənistan üzərindən "boz idxal" həyata keçirmişdi. Buna necə nail olmuşdu, məsələyə nəzər salaq və bildirək ki, Ermənistanın Rusiyanın Müdafiə Nazirliyi və Federal Təhlükəsizlik Xidməti ilə sıx əlaqələrə malik "Milandr" şirkəti Ukrayna müharibəsindən iki ay sonra "Milur Electronics LLC" adlı uydurma korporasiya yaratmışdı. Elektronika istehsalçılığı və mikroprosessorlar işləyib hazırlamaq sahəsində ixtisaslaşmış "Milandr" qlobal çip nəhəngi TCMS-ə sifarişləri "Sharp Edge Engineering" adlı saxta Tayvan şirkəti vasitəsilə yerləşdirib. "Milur Electronics LLC" isə bilavasitə həmin çiplərin Rusiyaya çatdırılmasını həyata keçirib. Guya, o vaxt Ermənistan rəhbərliyi bunu bilmirdi? Əlbəttə, bilməməyi mümkünsüzdür. Rəsmi İrəvan duruma göz yumurdu. Nəinki göz yumur, tam əminliklə demək olar ki, prosesi özü koordinasiya edirdi. Çünki fayda qazanırdı.

Daha bir əhımiyyətli detaldan söz açaraq bildirək ki, Rusiya–Ukrayna müharibəsi başlanandan dərhal sonra dünya avtomobil nəhəngləri Rusiya bazarından getdilər. Bilavasitə ABŞ və Avropa İttifaqı 50 min avrodan baha avtomobillərin Rusiyaya satışını yasaqladı. Son 11 ildə yerüstü, hava və su nəqliyyatı vasitələrinin ixracı üzrə illik ən yüksək göstəricisi 40 milyon dollar olan Ermənistana 2023-cü ilin cəmi 6 ayı ərzində birdən-birə 351 milyon dollar dəyərində analoji məhsul ixrac edildi. Dünyada analoqu olmayan haldır.

*

Qeyd edək ki, Rusiya Baş nazirinin müavini Aleksey Overçukun başçılıq etdiyi nümayəndə heyəti ötən ilin sentyabrında Ermənistanda işgüzar səfərdə olmuşdu. Həmin vaxt Kreml rəsmisi baş nazir Paşinyanla görüşünü şərh edərkən bildirmişdi: "Biz Ermənistan iqtisadiyyatının necə böyüdüyünü və inkişaf etdiyini, Avrasiya İqtisadi İttifaqında ən yaxşı ümumi daxili məhsul göstəriciləri nümayiş etdirdiyini görürük. Hamımız başa düşürük ki, bu cür iqtisadi uğurlar ilk növbədə Avrasiya İqtisadi İttifaqı ilə inteqrasiya əlaqələri sayəsində əldə edilir".

Yeri gəlmişkən, həmin Overçuk Rusiya və Ermənistan arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın qeyd etdiyimiz vaxt İrəvanda keçirilmiş iclasında da yuxarıda açıqladığımız rəqəmləri önə çəkmişdi. O demişdi ki, 2024-cü ildə iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 14-16 milyard dollara çata bilər: "2023-cü ildə Ermənistanla Rusiya arasında ticarət dövriyyəsi 55,8 faiz artaraq 7,4 milyard dollara çatıb. 2024-cü ilin ilk altı ayında bu rəqəm artıq 8,4 milyard dolları keçib. Müqayisə üçün qeyd etmək istərdim ki, 2020-ci ildə ticarət dövriyyəsi cəmi 2,3 milyard dollar olub. Yeni rəqəmlər qarşılıqlı ticarətin sürətli artımını göstərir".

Əlbəttə, son illər Ermənistan–Rusiya ticarət dövriyyəsindəki, ümumən iqtisadi münasibətlərindəki ayrı-ayrı müəmmalı məqamlara dair daha fərqli misallar gətirmək mümkündür. Aydındır ki, birincinin idxal-ixrac əməliyyatları ikinciyə sanksiyalardan yayınmaq imkanı yaradıb. O da məlumdur ki, qeyri-real, şəffaflıqdan uzaq gəlirlər zaman-zaman Ermənistanın silahlanması, bütövlükdə, "erməni kartı"nın aktiv saxlanılması üçün vasitə rolunu oynayıb. Belə bir durum isə Cənubi Qafqazda sülhə və sabitliyə ciddi təhdid yaradıb. Uzun müddət rəsmi İrəvanın Azərbaycanla sülhdən yayınmasında mövcud amil az əhəmiyyətli olmayıb. Əslində, bizim QHT-lərin barəsində söz açdığımız müraciəti bundan qaynaqlanmışdı.

Ancaq indi vəziyyət başqadır. Ermənistan Azərbaycanla sülh yolundadır. O yol ki, bu il avqustun 8-də Vaşinqtonda imzalanmış üçtərəfli Birgə Bəyannamə ilə özündə Zəngəzur dəhlizinin timsalında "Tramp marşrutu" kimi regional bağlantı layihəsini ehtiva edir. Yeri gəlmişkən, Paşinyan Düşənbədəki sammitdə həmin marşrutdan söz açdı. O marşrutdan ki, Rusiya rəsmiləri ona ölkənin baş nazirinin müavini A.Overçukun təbirincə desək, ehtiyatlı optimizmlə yanaşdıqlarını vurğulayıblar. Bu vurğulanmanın fonunda İrəvana Moskvanın hakim rol oynadığı Avrasiya İqtisadi İttifaqına üzv olduğu xatırladılıb. Belə bir xatırlatma Rusiya–Ermənistan ticarət dövriyyəsi xüsusunda da edilir. Yəni rəsmi İrəvana ölkənin əsas mənfəətinin Rusiyadan olduğu bildirilir. Əslində, Prezident Putin də Düşənbədə Paşinyana məhz bunu demişdi. Deməli, erməni baş nazirin Kreml rəhbərinə cavabında "ola bilər" yerinə "ola bilməz" şəklində cavab verməsi mümkünsüzdür. Bu yerdə ən maraqlı məqam leqallığından və ya qeyri-leqallığından asılı olmayaraq, Ermənistan–Rusiya ticarət dövriyyəsini əks etdirən rəqəmlərdə azalmanın qeydə alınmasıdır. Yoxsa, Moskva, belə demək mümkünsə, fərasətli ermənilərə daha ehtiyac duymur?

***Ə.CAHANGİROĞLU***
***XQ***

# 2 əsrə bərabər 22 il

*15 oktyabr 2003-cü il*



(əvvəli 1-ci səhifədə)

## Tarixin dönüş anı

Azərbaycan xalqı üçün taleyüklü önəm daşıyan tarixi günlər var. Müəyyən mərhələlərdə həmin günlər onun gələcək həyatını müəyyən edən başlanğıclara çevrilib. Bu mənada oktyabrın 15-i milli təqvimdə xüsusi məna daşıyır. 22 il əvvələ boylananda o günü məhvərindən çıxmış zamanın ədalət çarxının öz yoluna qayıtdığı dönüş anı kimi dəyərləndirə bilərik. Məhz həmin gündən etibarən bölgədə hadisələr stixiyanın diktəsindən çıxaraq təbii axarına qayıtmağa başladı. Bu yolun memarı Ümummilli liderin siyasi kursunun yeganə layiqli davamçısı, xalqımızın 2003-cü il oktyabrın 15-də keçirilən seçkilərdə yekdilliklə səs verdiyi modern siyasətçi İlham Əliyev idi. Bəli, o, söz verdiyi kimi, həm də bütün azərbaycanlıların prezidentinə çevrildi. Bu gün həmin vədin həqiqət olmasına şahidlik etmək hər bir azərbaycanlı üçün qürur mənbəyidir. Əslində, Azərbaycan xalqı 22 il bundan əvvəl qarşıdakı dövrdə bütün sahələrdə qazanacağı böyük uğurların başlanğıcına səs verdi.

Ölkədə sabitliyin qorunması, sülh danışıqlarında prinsipial mövqe tutulması, ordunun gücləndirilməsi və paralel olaraq xalqa, xüsusilə gənc nəslə Qarabağı və ətraf rayonları öz gücümüzlə işğaldan azad edəcəyimizə inam aşılanmasını İlham Əliyev milli maraqların prioritetinə çevirdi, onları bir an belə gündəmdən çıxmağa qoymadı.

## Yeni xilaskarlıq missiyası

2 əsrə bərabər 22 ilin zirvəsində təbii ki, torpaqlarımızın erməni işğalından azad olunması, ərazi bütövlüyü və suverenliyimizin tam bərpası ilə nəticələnmiş Vətən müharibəsində qələbə dayanır. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı. Bu, son 2 yüz ildə qazandığımız və haqqımız olan ən böyük Zəfər oldu. Azərbaycan qalib ölkəyə, xalqımız müzəffər xalqa çevrildi. Məhz bu qələbədən sonra tarixin gedişi öz məhvərinə qayıtdı və bunun sayəsində regionda yeni reallıqlar yarandı. Həm zəfərimizə qədər, həm də ondan sonra İlham Əliyev Azərbaycanı bütün risklərdən, təhlükələrdən qorumağı bacardı.

Ötən iki onillikdə bölgədə və dünyada baş vermiş hadisələr hamımızın xatirindədir. Müxtəlif coğrafiyalarda yaşanan qanlı toqquşmalar, müharibələr, siyasi çevrilişlər, rəngli inqilablar, iqtisadi, maliyyə böhranları Azərbaycandan da yan keçməyə bilərdi. Amma böyük liderin layiqli varisi özünün qətiyyətli və düşünülmüş daxili və xarici siyasəti ilə xalqımızı və dövlətimizi çıxılmaz bəlalardan qorumaqla yeni xilaskarlıq missiyasını da şərəflə yerinə yetirdi.

İlham Əliyev yaxşı bilirdi ki, təhlükəsizlik, sabitlik olmadan heç bir inkişafdan söhbət gedə bilməz. Ona görə onun ölkədə bütün istiqamətlər üzrə apardığı islahatlar, irəli sürdüyü regional və qlobal təşəbbüslər ölkəmizi gücləndirdi, beynəlxalq çəkisini artırdı.

Prezident, Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə 2020-ci il sentyabrın 27-də Ermənistanın hərbi təcavüzünə cavab olaraq qurtuluş savaşı başlandı və Azərbaycan Ordusu dünyanı heyrətə salan hərbi uğurlara imza atdı. 30 ilə yaxın işğal altında qalan torpaqlarımız 44 gün ərzində azad olundu. Qarabağın tacı, bölgənin döyünən ürəyi olan Şuşanın noyabrın 8-də azad olunması çağdaş tariximizə Zəfər Günü kimi yazıldı. 2 gün sonra isə işğalçı Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur oldu. Beləliklə, BMT Təhlükəsizlik Şurasının 27 il kağız üzərində qalmış qətnamələrini Azərbaycan özü icra etdi.

## "Yalnız irəli!"

Dünya hərb tarixində öyrənilən 44 günlük müharibə Prezident İlham Əliyevin daha bir yüksək şəxsi keyfiyyətini – sərkərdəlik məharətini üzə çıxardı. Əməliyyatlara şəxsən nəzarət edən Ali Baş Komandan döyüşən orduya tapşırıqları birbaşa özü verir, qələbə xəbərlərini də xalqına özü çatdırırdı. Qələbəni şərtləndirən mühüm amillərdən biri də Azərbaycan Prezidentinin diplomatiya müstəvisində çevik siyasəti oldu. Müharibə dövründə dövlətimizin başçısı xarici KİV-ə 30-dan çox müsahibə verdi. Bu da münaqişə ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasında əvəzsiz rol oynadı.

İlham Əliyev 22 illik prezidentliyi dövründə xalqa verdiyi vədləri bütünlüklə yerinə yetirdi. Vətən müharibəsində qazanılmış Qələbə həm də son 30 ildə həyatın bütün sahələrində əldə olunmuş uğurlarla, dinamik inkişafla bilavasitə bağlıdır. İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, Azərbaycan heç vaxt indiki qədər güclü olmayıb. Ötən 22 ilə nəzər salsaq, görərik ki, ölkəmizin bütün sahələrdə sürətli inkişafına nail olunub, insanların rifah halı yaxşılaşıb.

İlham Əliyev həm də dövlət strukturlarının fəaliyyətinin təkmilləşdirilməsi və şəffaflığın artırılması, vətəndaşlara yüksəksəviyyəli xidmətlərin göstərilməsi istiqamətində bir çox layihələrin, inqilabi islahatların müəllifidir. Buna misal olaraq, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyini – "ASAN xidmət" mərkəzlərini göstərməyimiz kifayət edər. Daxildə sabitlik, iqtisadi imkanlarının genişləndirilməsi, dünyaya açıqlıq Azərbaycanın beynəlxalq arenadakı mövqeyini də möhkəmləndirib.

Bu gün regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Ölkəmiz bu gün bir çox transmilli layihələrin təşəbbüskarı və uğurlu icraçısı, etibarlı tərəfdaş kimi tanınır. Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri, Azərbaycan qazını Avropaya çatdıran Bakı–Tbilisi–Ərzurum xətti və Cənub Qaz Dəhlizi, TAP layihəsi, Avropanı Asiya ilə birləşdirən Bakı–Tbilisi–Qars dəmir yolu, Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizləri ölkəmizi energetika və nəqliyyat mərkəzinə çevirib.

Bunu da əminliklə deyə bilərik ki, bu gün Azərbaycan Türk Dövlətləri Təşkilatının lokomotivi missiyasını öz üzərinə götürüb. İlham Əliyevin sülhə, əməkdaşlığa və balanslaşdırılmış diplomatiyaya söykənən xarici siyasəti təkcə Türk dünyasında deyil, müsəlman Şərqində, Avropada əks-səda verməkdədir.

## İrimiqyaslı bərpa-quruculuq

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan uğurla inkişaf edir, Qarabağda bərpa-quruculuq işləri tam gücü ilə davam edir. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan tezliklə Qarabağı cənnətə çevirəcək və öz ata-baba yurdlarından didərgin düşən keçmiş məcburi köçkünlər doğma ocaqlarına əbədi olaraq qayıdacaqlar. Azərbaycan dünyanı həm də azad edilmiş ərazilərdə sürətli bərpa və yenidənqurma işləri ilə heyrətə salıb. Bu ərazilərdə şəhərlər, kəndlər inşa edilir, yeni yollar çəkilir, elektrik stansiyaları tikilir. İlham Əliyev azad edilmiş rayonlara çoxsaylı səfərləri zamanı strateji infrastruktur obyektlərinin açılışını edir, yenilərinin təməlini qoyur. Keçmiş məcburi köçkünlərin abad edilən yurdlarına dönüşünə hamıdan çox Prezident özü sevinir.

Ötən 22 ildə Azərbaycan xalqı həmişə öz liderinə güvənib, inanıb və ona dayaq olub. Prezidentimizin böyük fəxrlə bu uğurların təməlində ölkədəki sağlam ictimai-siyasi mühitin, xalq–iqtidar birliyinin dayandığını söyləməsi təsadüfi deyil. Məhz bu qarşılıqlı inam və dəstək sayəsində İlham Əliyevin torpağı ilə bərabər qürurunu özünə qaytardığı xalqını bundan sonra da öz arxasınca zirvədən-zirvəyə, qələbədən-qələbəyə aparacağına inanırıq.

Bunu isə tam əminliklə deyə bilərik: dövlətimiz və xalqımız son 22 ildə zəfərlərlə zəngin bir dövr, baş vermiş hadisələrin miqyasına, qazanılan uğurların tarixi əhəmiyyətinə görə 2 əsrin yaddaşına sığacaq qədər böyük, şanlı bir mərhələ yaşamış oldu.

***İmran BƏDİRXANLI***
***XQ***

# İrəvan geosiyasi dalandan çıxış yolları axtarır

(əvvəli 1-ci səhifədə)

Türkiyə və Ermənistan arasında münasibətlərin qaydaya salınması istiqamətində indiyədək bir neçə dəfə təşəbbüs olub. Onlardan ən məşhuru 2008-ci ildəki prosesdir. "Futbol diplomatiyası" adı ilə tarixə düşən və növbəti il Sürixdə protokolların imzalanması ilə nəticələnən prosesin uğursuz olduğu hər kəsə aydındır. İkinci Qarabağ müharibəsindən sonra yaranmış əlverişli siyasi ab-havada daha bir prosesə start verilib və münasibətlərin mərhələli şəkildə normallaşdırılması üçün Ermənistanla ilkin şərt olmadan birbaşa dialoq qurulub. Bununla əlaqədar olaraq Ankara və İrəvan müvafiq olaraq səfir Sərdar Kılıçı və Ermənistan parlamentinin sədr müavini Ruben Rubinyanı normallaşma prosesi üçün xüsusi nümayəndə təyin ediblər. Xüsusi nümayəndələr arasında keçirilən bir sıra görüşlərdən sonra 2022-ci il fevralın 2-də birbaşa uçuşlar bərpa edilib və Türkiyə–Ermənistan sərhədinin üçüncü ölkə vətəndaşları üçün açılması və iki ölkə arasında yük hava daşımalarının 2022-ci il iyulun 1-dən başlanması barədə razılıq əldə olunub.

Son aylarda digər qarşılıqlı humanitar jestlər və texniki məsələlərlə bağlı razılaşmalar müsbət atmosfer formalaşdırıb. Nikol Paşinyan hökuməti özünü "ictimai rəy" kimi təqdim edən daxildəki radikal revanşist siyasi qüvvənin və hələ də onların küyünə gedən müəyyən kütlənin təzyiqinə baxmayaraq, Türkiyə ilə yaxınlaşmanı strateji zərurət kimi təqdim etməyə çalışır. Regionda yaranmış yeni reallıqlar isə həm İrəvan, həm də Ankara üçün bu prosesin nəticələrini qaçılmaz edir. Nəticə etibarilə Ermənistan–Türkiyə münasibətləri Cənubi Qafqazda dayanıqlı sülhün bərqərar olmasının bir elementinə çevrilir.

Oktyabrın 13-də parlamentdə jurnalistlərin suallarını cavablandıran Ermənistanın iqtisadiyyat naziri Gevorq Papoyan İrəvanla Ankara arasında münasibətlərin normallaşacağı və sərhədin açılacağı təqdirdə Türkiyə investisiyasının əleyhinə olmadığını bildirib. O əlavə edib ki, 2012-ci ildən Ermənistanda bir neçə türk şirkəti, ilk növbədə geyim markaları fəaliyyət göstərir: "Mən bu sərmayələri alqışlayıram. Qonşu ölkələr arasında davamlı sülh maliyyə investisiyası olmadan mümkün deyil. Əgər biz həqiqətən də regionda sabit sülh istəyiriksə, onu iqtisadi inkişafla dəstəkləməliyik".

Papoyanın fikrincə, iqtisadi əlaqələr olmadan sülh yalnız müvəqqəti möhlətdir. Bu baxımdan sülhün bərqərar olmasından və sərhədlərin açılmasından sonra Ermənistana xarici sərmayələrin, o cümlədən Türkiyədən də daxil ola biləcəyi tamamilə təbiidir. Nazir bildirib ki, öz növbəsində erməni sahibkarlar da qonşu ölkələrə sərmayə qoya biləcəklər: "Əgər kimsə düşünürsə ki, qarşılıqlı iqtisadi əlaqələr olmadan həyat qabiliyyətli dövlət qurmaq olar, o, dərindən yanılır".

*

Bəli, Ermənistan hökuməti son aylarda regionda yaranmış yeni geosiyasi reallıqlar fonunda Türkiyə ilə münasibətlərin normallaşdırılması istiqamətində daha açıq və praqmatik mövqe nümayiş etdirir. Paşinyan komandasının bu mövzuda əvvəlki illərlə müqayisədə daha ardıcıl davranması təsadüfi deyil. Qeyd etdiyimiz kimi, İrəvan anlayır ki, regionda təcrid vəziyyətindən çıxmaq yalnız siyasi bəyanatlarla deyil, iqtisadi əməkdaşlıq mühitinin formalaşdırılması ilə mümkündür. Bu baxımdan Hayastanın iqtisadiyyat nazirinin parlamentdə səsləndirdiyi fikirlər ölkə hökumətinin strateji prioritetlərini aydın şəkildə ortaya qoyur. Papoyan açıq şəkildə bildirir ki, sərhədlərin açılması və münasibətlərin normallaşması halında Türkiyə investisiyalarına qarşı deyil. Bu, təkcə iqtisadiyyat naziri səviyyəsində deyil, bütövlükdə Ermənistan hökumətinin yeni düşüncə tərzini əks etdirir. Çünki uzun illərdir davam edən siyasi gərginlik və kommunikasiyaların bağlı qalması Ermənistan iqtisadiyyatına ciddi zərbə vurub. İndiki mərhələdə isə İrəvan üçün iqtisadi inteqrasiya, xüsusilə də region ölkələri ilə qarşılıqlı sərmayə mübadiləsi həm zərurət, həm də real inkişaf imkanı kimi görünür.




Ermənistanın iqtisadi göstəriciləri son illərdə müəyyən artım dinamikası nümayiş etdirsə də, bu artım dayanıqlı xarakter daşımır. İstehsal sektoru zəif, ixrac potensialı məhduddur. Enerji və logistika baxımından isə ölkə tamamilə xarici resurslardan asılı vəziyyətdədir. Belə şəraitdə Türkiyə ilə sərhədlərin açılması və iqtisadi əlaqələrin bərpası Ermənistan üçün həm bazar, həm tranzit, həm də texnologiya baxımından mühüm üstünlüklər yarada bilər. Məhz buna görə Papoyanın çıxışı Ermənistan daxilində, necə deyərlər, iqtisadi düşüncənin yeni mərhələyə keçdiyini göstərir.

Türkiyə Ermənistanla birbaşa dialoqa getməklə, əslində, bu ölkəyə yeni iqtisadi fürsətlər təqdim edir, lakin eyni zamanda onun məsuliyyətini artırır. Ermənistanda iqtisadi çevrələr artıq bu istiqamətin vacibliyini qəbul etməyə başlayıb. Yerli sahibkarlar yaxşı anlayırlar ki, açıq sərhədlər və nəqliyyat əlaqələrinin bərpası həm istehsalın ucuzlaşmasına, həm də yeni bazarlara çıxış imkanlarının yaranmasına səbəb olacaq. Əgər Türkiyə bazarı və oradan keçən ticarət marşrutları Ermənistan üçün açılarsa, bu, ölkənin ümumi daxili məhsuluna bir neçə faiz artım gətirə bilər. Bundan əlavə, Türkiyə kapitalı və istehsal təcrübəsi Ermənistanın sənaye sektoruna dinamika qazandıra bilər.

Digər tərəfdən prosesin siyasi tərəfi də diqqətəlayiqdir. Ermənistan rəhbərliyi bu addımlarla həm regionda yeni balans yaratmağa, həm də Qərblə münasibətlərdə daha əlverişli mövqe qazanmağa çalışır. Qərb dairələri uzun müddətdir ki, Cənubi Qafqazda sülhün əsas şərti kimi iqtisadi əməkdaşlığın gücləndirilməsini önə çəkir. Paşinyan hökuməti bu istiqamətdəki təşəbbüsləri həm beynəlxalq ictimaiyyətin dəstəyini qazanmaq, həm də daxildəki müxalif təzyiqləri yumşaltmaq üçün alət kimi istifadə edir. Lakin bu prosesin real nəticə verməsi yalnız siyasi cəsarət və uzunmüddətli strategiyanın mövcudluğu ilə mümkündür.

**"Cənubi Qafqaz" politoloqlar klubunun rəhbəri İlqar Vəlizadə** XQ-yə açıqlamasında bildirdi ki, iqtisadi dayaqlarından məhrum sülhün sabit olması mümkün deyil. Onun sözlərinə görə, Ermənistanın iqtisadiyyat naziri də bu həqiqəti etiraf edir və bildirir ki, davamlı sülh maliyyə və investisiya axını ilə möhkəmlənməlidir. Əks halda regionda yaranan müvəqqəti sakitlik hər an pozula bilər: "Qeyd etmək lazımdır ki, bu fikirdə həm iqtisadi məntiq, həm də siyasi uzaqgörənlik var. Çünki iqtisadi asılılıq və qarşılıqlı fayda prinsipi ölkələr arasında etimadın bərqərar olmasında ən təsirli mexanizmlərdən biridir. Əlbəttə, İrəvanın bu istiqamətdə atdığı addımların qarşısında daxili müqavimət də mövcuddur. Radikal qruplar və bəzi keçmiş siyasi elita təmsilçiləri Türkiyə ilə yaxınlaşmanı milli təhlükəsizlik üçün risk kimi təqdim etməyə çalışırlar. Lakin Ermənistan cəmiyyəti artıq uzun illərin iqtisadi durğunluğundan yorulub. İnsanlar anlayır ki, ölkənin gələcəyi qapalı sərhədlər və izolyasiya siyasəti ilə təmin edilə bilməz. Məhz bu reallıq hökumətə müəyyən manevr imkanı verir".



Ekspert bildirir ki, iqtisadi aspektdən baxıldıqda, Ermənistanın Türkiyə ilə əməkdaşlığa açılması təkcə investisiya deyil, həm də infrastruktur baxımından yeni mərhələ yarada bilər: "Məsələn, dəmir yolu və avtomobil bağlantılarının bərpası regionun ticarət xəritəsini dəyişəcək. Bu isə yalnız Ermənistanın deyil, bütün Cənubi Qafqazın maraqlarına xidmət edəcək. Əgər İrəvan bu prosesdə ardıcıl və real siyasət yürüdərsə, yaxın illərdə həm logistika mərkəzi, həm də tranzit ölkə statusu qazana bilər. Bütün bunlar göstərir ki, Ermənistan hökuməti artıq sülhü təkcə siyasi saziş kimi deyil, iqtisadi inkişafın təməli kimi görməyə başlayıb. Bu yanaşma yalnız taktiki deyil, strateji xarakter daşıyır. Türkiyə ilə münasibətlərin bərpası və sərhədlərin açılması ölkə üçün böyük fürsətdir. Əgər bu fürsət düzgün dəyərləndirilərsə, Ermənistan tədricən regionda sabit və iqtisadi cəhətdən inteqrasiya olunmuş tərəfdaş statusu qazana bilər. Nəticə etibarilə, Ermənistanın gələcəyi onun qonşularla, xüsusilə də Türkiyə və Azərbaycanla münasibətlərini hansı səviyyədə qura biləcəyindən asılı olacaq. İqtisadi diplomatiya bu yolda ən təsirli vasitə kimi görünür. Paşinyan hökuməti üçün indi əsas məsələ daxili siyasi iradəni qorumaq, cəmiyyətə bu prosesin zəruriliyini izah etmək və uzunmüddətli regional inteqrasiyanın faydalarını real nəticələrlə göstərməkdir. Əgər bu baş verərsə, Ermənistan nəinki iqtisadi tənəzzüldən çıxacaq, həm də Cənubi Qafqazda sülh və sabitliyin davamlı dayaqlarından birinə çevrilə biləcək".

***Səxavət HƏMİD***
***XQ***

# Türk dünyasında elmin perspektivləri: AMEA-nın yeniləşmə kursu kontekstində



**I MƏQALƏ**

### Qəbələ Zirvəsinin elmi "ruhu"

Türk Dövlətləri Təşkilatının Qəbələ şəhərində keçirilən Zirvə görüşünü bir çox aspektlərdə tarixi adlandıranlar tam haqlıdırlar. Həmin toplantı Türk dünyasının bugünü ilə yanaşı, gələcəyinin elə fundamental faktorlarını yeni səviyyədə aktuallaşdırdı ki, əminliklə deyə bilərik: türk dövlətləri tarixində yeni dönəmə start verilmişdir.

Bu dönəmin özünəməxsus xarakteri, təşkilatlanma hədəfləri və bütövlükdə qlobal geosiyasətə təsir dərəcəsi vardır. Bu barədə TDT liderləri bəhs edirlər və uyğun təşəbbüslər irəli sürürlər. Onların ümumi çərçivəsini Prezident İlham Əliyevin andiçmə mərasimində konkret ifadə etdiyi bir tezis müəyyən edir. Həmin tezis Azərbaycanın daim TDT-ni gücləndirəcəyi ilə bağlıdır. Burada "Türk dünyası bizim ailəmizdir, başqa ailəmiz yoxdur" tarixi kəlamı xüsusi yer tutur.

Bizim üçün xüsusi əhəmiyyət daşıyan əsas fakt vurğulanan kontekstdə fundamental tezislərin təşəbbüskarı Azərbaycan Prezidenti İlham Əliyevin olmasıdır. Dövlət başçısı Qəbələ Zirvəsindəki nitqində aydın ifadə etmişdir ki, "Türk Dövlətləri Təşkilatı, sadəcə, əməkdaşlıq platforması deyil, ciddi geosiyasi mərkəzlərdən biri kimi formalaşır". Bunun əsasında "Ortaq tarixi və etnik köklərimiz, müştərək milli-mənəvi dəyərlərimiz" dayanır ki, "bizi bir ailə kimi birləşdirir".

Azərbaycan lideri nitqində vurğuladığımız tezis üzərində TDT-nin inkişafı və təhlükəsizliyinin çox müxtəlif aspektlərini ifadə etdi. İlham Əliyevin məntiqindən tam aydın görünürdü ki, bu məqsədlərə çatmaq üçün ciddi, hərtərəfli və əsaslı elmi tədqiqatlara böyük ehtiyac vardır. İlham Əliyevin I Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi və Türkiyə Prezidenti R.T.Ərdoğanın ortaq türk əlifbasının tətbiqindən bəhs etməsi konkret məqsədlərdən xəbər verirdi.

Bütün bunların fonunda türk dövlətlərində, xüsusilə Azərbaycanda ortaq əlifba, ortaq dil, elm və təhsilin vahdətdə inkişafı, türk dövlətləri arasında elmi əlaqələrin yeni keyfiyyət səviyyəsinə qaldırılması kimi məsələlərin aktiv müzakirəsi zərurətdir!

Aydındır ki, TDT-də elmi inkişaf məsələsi nəzəri olaraq şübhə doğurmur. Lakin ona praktiki nail olmağın üsulları da olduqca böyük aktuallıq kəsb etməyə başlayır. Çünki burada elmi kadrlarla yanaşı, terminoloji, metodoloji, elmi fəaliyyətin təşkil edilməsi, optimal qarşılıqlı əməkdaşlıq modellərinin hazırlanması və bütövlükdə Türk dünyası miqyasında elmin idarə edilməsi kimi problemlər gündəmə gəlir.

Təbii ki, vurğuladığımız bir sıra məsələlərin fonunda hər bir türk dövlətində elmi tədqiqatın aparılma metodologiyası, üsulları, yeni biliklərin alınması yolları ilə yanaşı, elmi fəaliyyətin institusional təşkili ciddi aktuallıq kəsb edən faktor olaraq qəbul edilməlidir. Bu kontekstdə AMEA-nın fəaliyyətinin ön sıraya çıxarılması isə tamamilə təbiidir! Fikrimizi arqumentləşdirmək üçün 2022-ci ilin payızından ölkənin baş elmi təşkilatında sistemli həyata keçirilən yeniləşmə kursunun əsas ideya xəttinə nəzər salaq.

### 2022-ci ildən başlayaraq...

Ölkənin elm və təhsil təşkilatları içərisində ilk olaraq Azərbaycan Milli Elmlər Akademiyasının yeni rəhbərliyi 2022-ci ilin oktyabr ayından qurumun yeniləşməsinin sistemli kursuna start verdir. Əlbəttə, müstəqil Azərbaycan Respublikasının hər bir dövlət təşkilatı 1993-cü ildən başlayaraq müstəqillik və dövlətçilik üçün canbaşla çalışmışdır.

Bununla yanaşı, Vətən müharibəsində əldə edilən möhtəşəm Zəfər diktə edirdi ki, yeni keyfiyyət səviyyəsində dövlətçiliyə, azərbaycançılığa, müstəqilliyə, insan kapitalına, vətəndaş cəmiyyətinin yüksək rifahına və qüdrətli dövlətə nail olmağa hər bir təşkilat xidmət göstərməlidir. Və bu, yalnız iqtidar üçün deyil, bütövlükdə dövlətçilik, cəmiyyət, xalq, hər bir sosial kəsim üçün əhəmiyyətlidir. Çünki yalnız bütün sferalarda yeni tələblərə görə sinxron fəaliyyət davamlı (yəni uzun müddətdə qalıcı) nəticələr əldə etməyə şans yarada bilərdi.

Bu baxımdan 2020-ci ildən sonrakı postmüharibə mərhələsi Vətən üçün kritik zaman oldu. Burada Ulu öndər Heydər Əliyevin daim vurğuladığı tarixi fikri xatırlamaq mütləq gərəkdir. Heydər Əliyev öyrədirdi ki, Azərbaycan xalqı yüksək intellektə sahibdir, onun qədim Azərbaycan ziyalıları həmişə aparıcı rol oynamışlar! Bu fikirlərin işığında aydın olur ki, reallıqda Vətən müharibəsindən sonra "Vətən uğrunda intellektual savaş"a başlamalı idik! Məncə, AMEA-nın yeniləşməsinin taktikası və strategiyası bu ümumi təməl tezisə əsaslanır. Ona görə də dəqiq elmi kriteriyaları olan yeni fəaliyyət strategiyası hazırlandı və konkret istiqamətlər üzrə sistemli fəaliyyətə start verildi.

Burada bir xüsusiyyəti qeyd etməyə məcburuq. Bir sıra dairələr (hətta ölkədəki elm və təhsil kəsimi sıralarında da vardır) AMEA-nın bu strateji təşəbbüsünü kifayət qədər ciddi qəbul etmək istəmədilər. Hətta ona laqeyd qalanlar da tapıldı. İndi də yeniləşmənin uğurlarından danışmaq istəməyənlər vardır. Bu kimi mövqe ilə mübahisə etmək fikrimiz qətiyyən yoxdur.

Lakin, birincisi, AMEA-nın vurğulanan istiqamətdə kifayət qədər aktivliyi birmənalıdır, ikincisi, kompleks halda reallaşdırdığı proqramlar və struktur islahatları mövcuddur, beynəlxalq elmi strukturlar və qabaqcıl elm adamları ilə əməkdaşlıq yüksəkdir, müxtəlif təhsil ocaqları ilə ortaq layihələri reallıqdır, ayrıca TDT məkanında elmi əlaqələri ciddi stimullaşdıran təşkilatdır. Bütün bu istiqamətlər ciddi surətdə Prezident İlham Əliyevin ölkənin strateji inkişaf kursuna tam uyğun həyata keçirilir.

Bütün bunlar onu təsdiq edir ki, indi nəinki AMEA-nın əldə etdiyi ilkin nəticələri qəbul etmək lazımdır, hətta onlardan baza qənaətlər kimi sonrakı mərhələdə yararlanmağa ehtiyac yaranmışdır. Çünki bu, bütövlükdə həm milli miqyasda, həm də TDT səviyyəsində elmi yaradıcılıqla elmi fəaliyyətin perspektivli sintezini təmin etməyə faydalı olacaqdır. Biz burada "faydalılıqla" "həlledicilik" arasındakı məna fərqlərini aydın görürük.

Deməli, məsələ ümumiyyətlə, Vətənçilik, elmilik, milli inkişaf və ümumtürk tərəqqisi kontekstində bizim üçün aktuallıq kəsb edir. AMEA-dakı yeniləşmə kursuna da məhz bu prizmada baxırıq. Fakt olaraq ölkənin baş elmi təşkilatının yeniləşmə kursunun iki mühüm prioritet istiqamətini vurğulamaq istərdik.

### Yeniləşmənin təməli: 2 ümumi istiqamət

Elmi təşkilat bütövlükdə yeniləşmə fəaliyyətini iki vacib, lakin bir-biri ilə sıx əlaqədə olan istiqamət üzərində qurmuşdur.

Birinci istiqamət AMEA rəhbəriyinin Prezident İlham Əliyevin Azərbaycanın strateji inkişaf konsepsiyasına uyğun olaraq təşkilatın yeniləşməsinin ümumi prinsiplərini müəyyən etməsi ilə bağlıdır. Bu elə "ana fəaliyyət yolu"dur ki, AMEA-nın həm fəaliyyət istiqamətini, həm də sərhədlərini müəyyən edir. Bütün hallarda AMEA ölkənin strateji inkişaf konsepsiyasına xidmət etməyi qarşısına əsas məqsəd kimi qoymuşdur.

İkinci istiqamət isə müəyyən edilən yeniləşmə prinsiplərinin praktiki-tətbiqi aspektdə həyata keçirilməsi ilə əlaqəlidir. Burada elmi yaradıcılıqla elmi fəaliyyətin təşkili vəhdət halında alınan nəticələrin praktiki tətbiqi ilə sıx qarşılıqlı münasibətlərdə olmalıdır. Yəni onlar bir-birini insan, cəmiyyət və dövlət naminə tamamlamalı, ziddiyyət təşkil etməməlidirlər.

Bunun fonunda AMEA rəhbərliyi fəaliyyətin 7 prioritet istiqamətini müəyyən etmişdir. Deməli, həmin prioritetlər nəzəri ilə praktiki fəaliyyətin müxtəlif aspektlərinin sintezini özlərində daşıyırlar. Bu baxımdan onun iki istiqamətini vurğulamaq istərdik:

"1. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin andiçmə mərasimində ifadə olunmuş azərbaycançılıq ideyasının elmi-nəzəri və tarixi-fəlsəfi əsaslarının işlənib hazırlanması və bütün istiqamətlər üzrə həyata keçirilməsi ölkə elminin, Azərbaycan Milli Elmlər Akademiyasının qarşısında duran əsas vəzifələrdəndir. AMEA-nı ölkəmizin əsas Azərbaycanşünaslıq mərkəzinə çevirmək bizim əsas vəzifəmizdir.

2. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Andiçmə mərasimində Türk dünyası ilə əlaqələri ölkəmizin ən mühüm prioritetlərindən biri kimi müəyyən etməsi Akademiyada da türk dünyası üzrə tədqiqatların miqyasının genişləndirilməsini, bu sahədə konkret proqramların hazırlanıb həyata keçirilməsini tələb edir".

Bu iki tezisin TDT kontekstində təhlili üçün bir sıra konseptual xarakterli məqam üzərində dayanmaq lazım gəlir.

### Türk dünyası və elm

"Türk dünyası" dedikdə biz, fəlsəfi anlamda toplum+dövlət vəhdətində türk qövmünə daxil olan xalqların birgə mövcudluq formasını nəzərdə tuturuq. Yəni burada mədəniyyət, dil, din, adət-ənənələr, sosial-psixoloji özəlliklər, mənəvi-əxlaqi dəyərlərlə yanaşı, hər bir türk xalqının müasir dönəmdə malik olduğu dövlət identikliyinin xüsusiyyətləri də nəzərə alınır. Bu anlamda "Türk dünyası" anlayışı konkret məzmun çalarlarına malik olan mürəkkəb strukturlu siyasi, sosial, mədəni, geosiyasi və idarəetmə məkanıdır. Onun coğrafi sərhədləri dünyanın bir çox regionlarını əhatə edir ki, vahid bir ölkə və dövlətin siyasi coğrafiyası ilə müəyyən oluna bilməz. Həmin anlamda "Türk dünyası" anlayışını elmi tədqiqi davam etməlidir.

Digər tərəfdən, Türk dünyasından danışarkən dövlətçiliyi mütləq nəzərə almaq gərəkdir. Çünki hazırda türk xalqları yalnız cəmiyyət kimi deyil, dövlətə malik toplumlar kimi real zamanda mövcuddurlar.

Burada bir sıra istisnaları kimsə inkar etmir. Yəni türk xalqları arasında öz dövləti olmayanlar az deyillər. Onlar Avrasiya məkanına yayılmışlar. Bir neçəsinin muxtar özünüidarəsi vardır. Lakin tərkiblərində olduqları dövlətlər əsasən güclü və dövlətçilik ənənəsinə sahib olduqlarından burada "muxtar özünüidarə"nin hüquqi məzmunları arasında fərqlər vardır.

Deməli, bu aspektdə məsələnin siyasi, tarixi və müasir hüquqi özəlliklərini araşdırıb, ortaq qənaətlər əldə etmək zəruridir. Bunun əsasında bütöv halda "Türk dünyası" anlayışının ənənəvi romantik və ya sırf mədəni-psixoloji kontekstdən konkret elmi ifadə səviyyəsinə keçirə bilərik. Əminik ki, Türk dünyasının real siyasi, geosiyasi, mədəni və dövləti perspektivi vurğulanan istiqamətlərdə elmi tədqiqatlardan birbaşa asılıdır. Əgər Türk dünyasının hər bir türk dövləti tərəfindən qəbul edilən elmi obrazı olmasa, digər sferalar üzrə davamlı inteqrasiyanın alınması perspektivi minimuma enəcək.

Beləliklə, Türk dünyasının real zamanda indiki vəziyyətində və gələcək transformasiyalarında əsas kompas rolunu elm oynamalıdır. Onu deyək ki, başqa qövmlərin inkişaf etmiş dövlətlərində artıq məhz bu yolu seçmişlər. Lakin türklərin təcrübəsi xeyli fərqli ola bilər. Bu kontekstdə bizim üçün "Türk dünyasının elmi obrazı" müddəasının fəlsəfi izahı əhəmiyyət kəsb edir.

*(ardı var)*

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**Avropa bu gün insan hüquqları ilə sərhəd təhlükəsizliyi arasında tarazlığı tapmaq uğrunda çətin mübarizə aparır. İkinci Dünya müharibəsinin yaralarını sarmaq və insan ləyaqətini qorumaq məqsədilə nəzərdə tutulmuş Avropa İnsan Hüquqları Konvensiyası (ECHR) öz yaradıcılarının təsəvvür etmədiyi qədər mürəkkəb reallıqla üz-üzə qalıb. Hətta qitə insan hüquqları ilə dövlət maraqları arasında sıxışıb, desək, yanılmarıq.**

Böyük Britaniyanın təşəbbüsü ilə gündəmə gətirilən ECHR-də deportasiya qaydalarının asanlaşdırılması istiqamətində dəyişikliklər ideyası qızğın müzakirələrə səbəb olub. Britaniya hökuməti və onu dəstəkləyən 16 Avropa dövləti konvensiyanın bəzi müddəalarının daha sərt şərh olunmasını, məhkəmələrin deportasiya qərarlarını dayandırmaq imkanlarının məhdudlaşdırılmasını istəyir. Onların fikrincə, mövcud qaydalar dövlətlərin qeyri-qanuni miqrasiyaya qarşı effektiv mübarizə aparmasını mümkünsüz edir. İdeya bir tərəfdən Avropada artan sosial narazılığın təbii nəticəsi kimi görünsə də, digər tərəfdən qitənin humanist kimliyinə yönəlmiş təhlükəli eksperiment kimi qiymətləndirilir. Leybodə, insan hüquqları ilə dövlət idarəçiliyi arasındakı balans pozulur. Bununla belə, Avropada məsələyə münasibət mədəni və ideoloji ölçülərdə bölünür. Bəzi siyasi dairələr ECHR-i "Avropanın vicdanı" adlandırır, digərləri isə onu "Avropanın əl-qolunu bağlayan sistem" kimi görür. Sözügedən ziddiyyətlərin mərkəzində duran əsas fikir ayrılığı isə budur ki, qitə insanı qorumaq üçün öz təhlükəsizliyindən güzəştə getməlidir, yoxsa təhlükəsizliyini qorumaq üçün humanizmdən imtina etməlidir? ECHR ətrafındakı gedən debat, əslində, qitənin mənəvi özünüdərk prosesinin göstəricisidir.

Sonda qeyd edək ki, Avropa bu gün güzgüdə özünü tanımaqda çətinlik çəkir.

# Avropada "insan hüquqları" dilemması: ECHR böhranının pərdəarxası

## *Qitə öz dəyərlərinin girovuna çevrilib*



rist partiyasının nazirləri də daxil olmaqla, Britaniya siyasi elitasının böyük hissəsi artıq açıq şəkildə bəyan edir ki, konvensiya öz missiyasını dəyişməlidir. Maraqlıdır, bəs dəyişiklik tələbinin əsas səbəbi nədir? ECHR-in bəzi qərarları, xüsusilə də deportasiyası planlaşdırılan cinayətkarların "ailə hüquqları" bəhanəsi ilə qorunması ictimai rəyə ciddi təsir edib. Bu hadisələrdən ən çox səs-küy doğuranı qanunsuz çətənə istehsalı ilə məşğul olan albaniyalının deportasiyasının dayandırılması idi. Hakimlər bu qərarı onun qızının "kişi rol modelinə ehtiyacı" arqumenti ilə əsaslandırmışdılar. Britaniya mətbuatı bunu "absurd humanizm" adlandırmış və olay ECHR-in nüfuzuna ağır zərbə vurmuşdu.

Bugünlərdə Mühafizəkar partiyanın nümayəndəsi Kemi Badenok da "Britaniya ECHR-dən çıxmalıdır" bəyanatı ilə gündəmə gəlib. O, açıq şəkildə bildirib ki, bu qərar asan qəbul edilməyib, lakin sərhədlərin, veteranların və vətəndaşların təhlükəsizliyi naminə zəruridir. Hökumətin kölgə baş prokuroru baron Vulfsonun hesabatına əsasən, ECHR Britaniyanın miqrasiya və təhlükəsizlik siyasətinə ciddi məhdudiyyətlər qoyur, dövlətin qərarvermə prosesini beynəlxalq hüquqi strukturun diktəsinə tabe etdirir. Bu ritorika təkcə Britaniyada deyil, bütün Avropada yüksələn populizmin yeni təzahürüdür. Nigel Farajın rəhbərlik etdiyi İslahat Partiyası da eyni mövqedən çıxış edərək ECHR-dən və "süni humanizm" adlandırdığı digər beynəlxalq sazişlərdən çıxmağın tərəfdarı olduğunu bildirib. Bəlli olur ki, populist liderlər həmin sazişləri "xalq iradəsini Avropa məhkəmələrinin hökmünə tabe edən" sənədlər kimi təqdim edirlər. Yaxın keçmişə nəzər salsaq, prosesdə 2016-cı ildəki Brexit kampaniyasının ruhunu duymaq mümkündür. Xatırladaq ki, kampaniya Böyük Britaniyanın Avropa İttifaqından (Aİ) çıxışı ilə nəticələnmişdi. Hərəkat həm "Leave" (Çıxmaq), həm də "Remain" (Qalmaq) tərəflərinin fəal təbliğat mübarizəsi ilə yadda qaldı və müasir Avropa siyasi tarixinin ən mühüm dönəmlərindən biri kimi tarixə düşdü. Budəfəki arqumentin təhlükəli tərəfi ondadır ki, insan hüquqları artıq universal dəyərdən daha çox "milli qərar" məsələsi kimi təqdim olunur. Beləliklə, Avropa özünün ən böyük tarixi nailiyyətini, insan ləyaqətinin ümumbəşəri dəyər kimi qəbulunu tədricən siyasi sərhədlərin içərisinə qapatmağa başlayır.

Qitənin digər qanadında, liberal düşərgədə isə fərqli səslər eşidilir. Liberal Demokratların lideri ser Ed Deyvi Böyük Britaniyanın konvensiyadan çıxmasına kəskin etiraz edərək bildirib ki, bu addım Avropanın hüquqi və mənəvi sütunlarını sarsıdacaq. Onun fikrincə, ECHR-dən çıxış mənəvi böhran deməkdir. Avropa Şurasının Baş katibi Alen Berse isə daha praqmatik mövqe tutub. O deyir ki, dünya sürətlə dəyişir və bu dəyişikliklərə uyğunlaşmaq mütləqdir. Bersenin "heç bir tabu yoxdur" fikri isə Avropanın yeni reallığını ifadə etməklə yanaşı, artıq humanizmin belə dəyişən anlayış olduğunu təsdiqləyir. Son illərin təcrübəsi göstərir ki, qeyri-qanuni miqrasiya axınları qarşısında bir çox dövlətlər "sərhədləri qorumaq" adı ilə hüquqi sistemin elastikliyini tələb edir. Deportasiya proseslərinin illərlə uzanması, məhkəmələrin sığınacaq müraciətçilərinə geniş müdafiə imkanı verməsi dövlətlərin inzibati idarəçiliyini çətinləşdirir. Nəticə

Bir vaxtlar "insan hüquqlarının müdafiəçisi" kimi dünyaya nümunə göstərilən qitə indi dəyərlərinin sərhədlərini yenidən cızır. Bu kontekstdə, ECHR böhranı bütöv bir mədəniyyətin gələcəyi ilə bağlı sınaq kimi qiymətləndirilir.

***Nəzrin ELDARQIZI***
***XQ***

***Ekspert rəyi***



**Xəyal BƏŞİROV,**
**Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin rəhbəri**

Avropa İnsan Hüquqları Konvensiyasında yer alan 16-dan çox dövlətin deportasiya qaydalarının dəyişdirilməsini dəstəkləməsi, əslində, miqrasiya proseslərinin yaratdığı narahatlıqla əlaqədardır. Donald Tramp hakimiyyətə gəldikdən sonra ABŞ administrasiyası, o cümlədən vitse-prezident C.D.Vens, digər administrasiya üzvləri, eləcə də dövlət katibi Marko Rubio Avropada ən çox tənqid olunan mövzunun miqrasiya olduğunu vurğulamışdılar. Avropa digər sahələrdə də ciddi şəkildə tənqid edilmişdi. Amma miqrasiya məsələsi bu tənqidlərdə ən önəmli mövzulardan idi. Tənqidçilər qitənin miqrasiya siyasətinin yanlış və təhlükəli olduğunu qeyd edirdilər. Bu baxımdan digər sahələrdə olduğu kimi, miqrasiya sahəsində də addımlar atmaq niyyətindədir. Ümumiyyətlə, Avropa İnsan Hüquqları Konvensiyasının və Avropa İttifaqının siyasətində insan hüquqları və azadlıqlarının pozulmasına gətirib çıxara biləcək çoxlu meyarlar mövcuddur. Məsələn, Şengen vizasının tətbiqi bu baxımdan ayrı-seçkiliyin göstəricisidir. Əgər dünya bütün bəşər üçün açıq məkandırsa, insanlar istədikləri yerə getməkdə azad olmalıdırlar. Lakin Şengen vizası müxtəlif, bəzən açıqlanmayan meyarlar əsasında verilir. Vizaların verilməsi zamanı məhdudiyyətlərin hansı məqsəd və meyarlarla tətbiq olunduğu suallarına cavab verilmir. Bu, insan hüquqları və demokratiya prinsiplərinə zidd addım hesab olunur. Avropada yüksək həyat səviyyəsi və uzun illər formalaşan siyasət bu məhdudiyyətləri mümkün edib. İnsanlar yüksək həyat şəraiti üçün Avropaya cəlb olunur, lakin onların girişini məhdudlaşdırmaq üçün müəyyən tədbirlər görülür. Miqrasiya siyasətində deportasiya qaydalarının bu şəkildə tənzimlənməsi də eyni məqsədə xidmət edir. Bu, ərəb baharı, Rusiya–Ukrayna müharibəsi və digər regionlarda baş verən münaqişələr səbəbindən Avropaya axın edən insanların qısa müddətdə geri göndərilməsinə gətirib çıxara bilər. Beləliklə, Avropa öz demoqrafik böhranını həll etmək üçün əvvəlcə miqrantlara qapı açır, sonra isə onları regiondan çıxarmaq və ya seçilmiş formada deportasiya etmək siyasətini həyata keçirir.

# Məhkəmə hakimiyyəti və digər dövlət orqanları





**Oktyabrın 14-də Bakı Konqres Mərkəzində Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci Baş Assambleyası çərçivəsində "Konstitusiya və Suverenlik İli"nə həsr edilmiş "Məhkəmə hakimiyyəti və dövlətin digər iki qolu arasında münasibətlər" mövzusunda beynəlxalq konfrans təşkil olunub.**

Tədbirdə dünyanın 71 ölkəsindən 300-ə yaxın nümayəndə - hakimlər, vəkillər, hökumət rəsmiləri və beynəlxalq təşkilatların təmsilçiləri, eləcə də tanınmış hüquqşünas-ekspertlər iştirak ediblər.

Konfransda Azərbaycan Hakimlər İttifaqının sədri Ramiz Rzayev çıxış edərək bildirib: "Müasir konstitusion quruluşun fundamental əsaslarından birini dövlət hakimiyyətinin qanunvericilik, icra və məhkəmə qollarına ayrılması təşkil edir. Bu amil təmərküzləşmənin və hakimiyyətdən sui-istifadənin qarşısını alan, insan və vətəndaş hüquq və azadlıqlarının, qanunun aliliyinin və demokratiyanın təminatına xidmət edən zəruri şərtdir. Hakimiyyət bölgüsünü təmin edən əsas element isə hər bir hakimiyyət qolunun malik olduğu səlahiyyətlərdir. Hakimiyyətlərin bölgüsü prinsipinə uyğun olaraq, məhkəmə hakimiyyəti müstəqil hakimiyyət qoludur. Məhkəmələr demokratik və hüquqi dövlətlərdə hüquq və azadlıqlarının, cəmiyyətin təməl dəyərlərinin qoruyucusudur".

Ramiz Rzayev vurğulayıb ki, məhkəmə hakimiyyəti əsas tarazlaşdırıcı mexanizm kimi dövlət hakimiyyəti sistemində qanunvericilik və icra hakimiyyətlərinin hüquq çərçivəsində fəaliyyət göstərmələri üçün onların işini istiqamətləndirir, dövlət hakimiyyəti orqanları arasındakı səlahiyyətlər bölgüsü ilə bağlı mübahisələri həll edir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov çıxışında demokratik dövlətdə hakimiyyətlərin bölgüsünü sadəcə bir nəzəriyyə deyil, demokratiyanı canlı saxlayan, təmin edən və vətəndaşları hakimiyyətin bir mərkəzdə təmərküzləşməsindən qoruyan tarazlıq mexanizmi olduğunu deyib.

"Bu gün burada toplaşdığımız üçün söhbət təkcə institutlardan deyil, həm də bizdən – hakimlərdən getməlidir. Hakimiyyət bölgüsünün qorunmasında bizim şəxsi rolumuz nədir? Bizim borclarımız nələrdir? Cəmiyyət bizdən nə gözləyir? Bu baxımdan Azərbaycan bu yolda xeyli irəliləyiş əldə edib. Məhkəmə hakimiyyətinin müstəqilliyinin konstitusion qarantı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə məhkəmə sistemində dərin və davamlı islahatlar aparılıb. Bu islahatlar məhkəmələri qanunçuluğun keşikçiləri və ədalət mühakiməsinin yekun hakimi kimi gücləndirib. Məhkəmələr sadəcə hökm çıxaran qurumlara deyil, etimad yaradan təsisatlara çevrilib" – deyə o vurğulayıb.

Avropa İnsan Haqları Məhkəməsinin hakimi Lətif Hüseynov qeyd edib ki, məhkəmə hakimiyyəti və dövlətin digər iki qolu arasında münasibətlər çox aktual, eyni zamanda, mürəkkəb bir mövzudur: "Hakimiyyət bölgüsü bir konsepsiya kimi sadəcə funksiyaların bölgüsü demək deyil, bu, əslində, cəmiyyətin maraqları əsasında məsuliyyətli yanaşmadır. Bu gün artıq bir hakimiyyət qolu digər hakimiyyət qolu arasında heç bir dominant mövqedə ola bilməz. Tarazlıq pozularsa, bu, xüsusilə məhkəmə hakimiyyətinin müstəqilliyinə zərbə vura bilər. Məhkəmə hakimiyyəti digər qollar arasında münasibətləri, dialoq və əməkdaşlığı ehtiva edir. Həmçinin məhkəmə hakimiyyəti hər hansı lazımsız təmaslardan və dövlət təsirindən azad olmalıdır".

Beynəlxalq Hakimlər Assosiasiyasının Prezidenti Duro Sessa bildirib ki, məhkəmə hakimiyyətinin Avropa üzrə Şurası 2025-ci ildə Riqa Bəyanatı qəbul edib: "Bu çox mühüm və narahatlıq doğuran bir bəyanat idi. Bəyanata əsasən demək olar ki, Avropada qanunun aliliyi prinsiplərinin ciddi şəkildə pozulması ilə bağlı nümunələr var. Bu, çox geniş vüsət alan faktdır. Avropanın bəzi dövlətlərində məhkəmə hakimiyyəti ilə əməkdaşlıq həyata keçirilmir, məsləhətləşmələr aparılmır. Bu da onları zəruri islahatlardan kənarda qoyur. Bir sözlə, Avropada vəziyyət kifayət qədər ciddidir. Biz bunu etiraf etməli və buna qarşı mübarizə aparmalıyıq.

Beynəlxalq Hakimlər Assosiasiyasının Birinci vitse-prezidenti və İbero - Amerika Qrupunun Prezidenti Volter Barone deyib ki, hazırda ispandilli Amerika Qrupunda məhkəmə hakimiyyəti ilə bağlı müstəqillik və əməkdaşlıq həssas balansın saxlanılmasında çətinliklərlə üzləşir: "İspandilli ölkələrdə məhkəmə hakimiyyəti ilə bağlı müşahidə edilən gərginliklər var. Bu dövlətlərin Konstitusiyasında məhkəmə hakimiyyətinin müstəqil qol olduğu qeyd edilir. Nəzəriyyədə üç hakimiyyət qolu ahəngdarlıq əsasında fəaliyyət göstərməlidir. Hər birinin limiti var və buna hörmətlə yanaşılmalıdır. Praktikada ispandilli ölkələrdə məhkəmə hakimiyyəti ən zəif hakimiyyət qoluna çevrilib".

Beynəlxalq Hakimlər Assosiasiyasının vitse-prezidenti və Afrika Qrupunun Prezidenti Marsel Koassi çıxışında Afrika təcrübəsindən danışıb. Bildirib ki, Afrika ölkələrində ədliyyə hakimiyyətinin hesabatı büdcə avtonomluğunu təmin etmiş şəffaf yanaşmanın bariz nümunəsinə çevrilir: "Həmçinin ədliyyə hakimiyyəti tərəfindən təqdim edilən hesabat parlament tərəfindən həyata keçirilən nəzarət mexanizminə töhfə vermiş olur. İstənilən hakim tam sərbəst və azaddır, bu, fundamental keyfiyyətin bir zəmanətidir".

Sonra təltifetmə mərasimi keçirilib. Azərbaycanın ədliyyə naziri Fərid Əhmədov, Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov və Azərbaycan Hakimlər İttifaqının sədri Ramiz Rzayev Beynəlxalq Hakimlər Assosiasiyasının fəxri medalı ilə təltif olunublar.

Konfransın davamında BMT-nin hakimlərin və vəkillərin müstəqilliyi üzrə xüsusi məruzəçisi professor Marqaret Sattertueyt videomüraciətində qeyd edib ki, hakimiyyətin siyasi qollarının qanunsuz hərəkətləri məhkəmə müstəqilliyinə ən güclü təhdidlərdən biridir. Bu zaman siyasi fəaliyyət və iradə məhkəmə müstəqilliyinin artırılması üçün vacibdir.

Sessiyadan sonra Avropa İnsan Haqları Məhkəməsinin hakimi Lətif Hüseynov beynəlxalq konfransa yekun vurub.

# Səlahiyyətli nümayəndə Xalq artistini təbrik edib



**Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli 65 illik yubileyi münasibətilə Naxçıvanda yaradıcılıq hesabat, verən və musiqiçi tələbələrə ustad dərsi keçən Azərbaycan Milli Konservatoriyası muğam kafedrasının müdiri, professor, Xalq artisti Mənsum İbrahimovla görüşüb.**

Səlahiyyətli nümayəndə görkəmli muğam ifaçısını yubileyi münasibətilə təbrik edib, Azərbaycan milli musiqisinin inkişafında və gənc xanəndələrin yetişdirilməsindəki xidmətlərini yüksək qiymətləndirib. Fuad Nəcəfli ustad sənətkarın Naxçıvan Dövlət Universiteti ilə səmərəli əməkdaşlığına da diqqət çəkərək ona ifaçılıq və pedaqoji fəaliyyətində uğurlar arzulayıb.

Xalq artisti Mənsum İbrahimov səmimi qəbula və sənətinə verilən dəyərə görə təşəkkür edib, Naxçıvanda milli mədəniyyətimizin, musiqi sənətimizin qorunub yaşadılmasına xüsusi diqqətlə yanaşıldığını məmnunluqla ifadə edib.

Səlahiyyətli nümayəndə yubilyara Naxçıvan xalçası hədiyyə edib.

***S.HƏSƏNOV***
***XQ***

# "Birlik – 2025" təlimi başlandı





**Özbəkistanın Səmərqənd vilayətində Azərbaycan, Qazaxıstan, Tacikistan, Qırğızıstan və Özbəkistan hərbçilərinin iştirakı ilə baş tutan "Birlik - 2025" birgə regional təliminin oktyabrın 14-də açılış mərasimi keçirilib.**

Tədbirin rəsmi hissəsində iştirakçı ölkələrin Dövlət himnləri səsləndirilib. Mərasimdə çıxış edənlər bu cür birgə təlimlərin qarşılıqlı təcrübə mübadiləsi baxımından vacibliyini vurğulayıb, təlim iştirakçılarına uğurlar arzulayıblar.

Sonra tədbir iştirakçılarına konsert proqramı təqdim edilib, özbək və digər xalqların milli mahnıları ifa olunub.

Sonda təlimdə iştirak edən hərbi qulluqçuların tribuna önündən təntənəli keçidi olub.

***XQ***

*Dünyadan gələn sorağımız*

# İqtisad Universiteti Qafqazda birincidir





**Müasir dövrdə universitetlərin beynəlxalq reytinqlərdəki mövqeyi onların nüfuzunun və qlobal cəlbediciliyinin əsas göstəricilərindən birinə çevrilib. Qlobal elm və təhsil məkanında rəqabət ildən-ilə güclənir.**

Universitetlər isə beynəlxalq arenada tanınmaq, tərəfdaşlıq imkanlarını genişləndirmək və xarici tələbə axınını artırmaq üçün reytinqlərə xüsusi önəm verirlər. Beynəlxalq reytinqlər təkcə nüfuz deyil, həm də keyfiyyətin, şəffaflığın və qlobal rəqabətədavamlılığın göstəricisidir.

Qlobal ali təhsil məkanında ən nüfuzlu qiymətləndirmə sistemlərindən biri olan Dünya Universitetləri Reytinqi olan THE (Times Higher Education) 2026-cı il üzrə artıq açıqlanıb. Reytinq universitetlərin elmi-tədqiqat fəaliyyəti, tədris keyfiyyəti, beynəlxalq əməkdaşlıq və sənaye ilə əlaqələrini çoxölçülü meyarlar əsasında qiymətləndirir. Bu il Azərbaycanın 4 universiteti reytinqdə yer alıb. Onlardan biri – Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) – ilk dəfə olaraq 801–1000 aralığında qərarlaşaraq ölkə və Cənubi Qafqaz regionu üzrə birinci ali məktəb olub.

**Bu uğuru və növbəti mərhələdəki hədəflər barədə İqtisad Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, iqtisad üzrə fəlsəfə doktoru Hüseyn Həsənov XQ-yə bildirdi:**

– THE Dünya Universitetləri Reytinqində çatdığımız nəticə ali məktəbdə illərlə aparılan məqsədyönlü və sistemli işin bəhrəsidir. Son illərdə elmi-tədqiqat fəaliyyətini prioritet istiqamətə çevirmişik. Universitetdə elmi məhsuldarlığın artırılması, beynəlxalq elmi əməkdaşlıqların genişləndirilməsi və tədqiqat keyfiyyətinin yüksəldilməsi istiqamətində ciddi addımlar atılır.

Biz, sadəcə, say göstəricilərinə deyil, keyfiyyətə və elmi təsirəyön almışıq. Nəticədə, elmi nəşrlərlə yanaşı, onlara edilən istinadların sayı da əhəmiyyətli dərəcədə artıb. UNEC Q1 kvartilli jurnallarda dərc olunan məqalələrin sayına görə ölkədə liderdir və "Web of Science" və "Scopus" bazalarında məqalələrin sayının artım tempinə görə dünyada ön sıradadır. Qeyd edilən reytinqin əsas qiymətləndirmə meyarlarından olan FWCI, Excellence və Strength göstəricilərində nəticələri də önə çıxmışıq. Beləliklə, UNEC ilk dəfə THE Dünya Universitetləri Reytinqinin ilk minliyində yer alaraq Azərbaycan ali təhsil tarixində yeni səhifə açdı.

**– Dünya Universitetləri Reytinqi necə hesablanır və hansı göstəricilərə əsaslanır?**

– THE keyfiyyətyönümlü bibliometrik göstəricilərdən, o cümlədən FWCI, Excellence, Citation Impact, Excellence, Influence və Strength kimi metriklərdən istifadə edir ki, bunlar da elmi fəaliyyətin keyfiyyəti və təsiri daha obyektiv qiymətləndirilir. THE-nin metodologiyası şəffaflığı, ölkə və fənn normallaşdırılması mexanizmləri, eləcə də etibarlı məlumat bazalarına əsaslanır. Ümumiyyətlə, THE tədqiqat keyfiyyətinə daha dərin və çoxölçülü yanaşma tətbiq edir.

Xüsusi qeyd olunmalıdır ki, THE-nin əsaslandığı FWCI indikatoru (Sahə üzrə ölçülmüş İstinad Təsir Əmsalı) - bir elmi işin aldığı istinadların sayını, eyni sahə, növ və ildə dərc olunmuş oxşar nəşrlər üçün gözlənilən istinad sayı ilə müqayisə edən göstərici olmaqla, daha detallı hesablama nəticələri əldə etməyə imkan verir. qeyd olunmalıdır ki, THE məlumat mənbəyi kimi institusional sorğulardan deyil, hökumət, beynəlxalq təşkilatlar və agentliklərin məlumat bazalarından istifadə edir.

Reytinq 5 əsas meyara üzəsaslanır: tədris, tədqiqat mühiti, tədqiqat keyfiyyəti, beynəlxalq baxış və sənaye əlaqələri.

Tədris göstəriciləri universitetin öyrənmə mühiti, müəllim-tələbə nisbəti, doktorantura səviyyəsində təhsil göstəriciləri və təhsil reputasiyasını əhatə edir. Bu, universitetin gələcək nəsil alimləri yetişdirmək potensialını göstərir.

Tədqiqat mühitini ayrıca qiymətləndirən "Research Environment" meyarı da THE sisteminin fərqləndirici xüsusiyyətlərindəndir. Bu meyar elmi fəaliyyətin reputasiyası, tədqiqat gəlirləri və məhsuldarlıqla ölçülür. Burada əsas mənbələr beynəlxalq agentliklər və dövlət məlumat bazalarıdır. Universitetlərin davamlı inkişafı, elmi infrastrukturu və doktorantura proqramları bu meyarla qiymətləndirilir.

Ən böyük paya malik Tədqiqat keyfiyyəti göstəricisi isə elmi işlərin təsirini və keyfiyyətini ölçür. Burada istifadə olunan FWCI, Elmi güc (Strength), Elmi mükəmməllik (Excellence) və Elmi nüfuz (Influence) kimi metriklər elmi fəaliyyətin dərin və çoxölçülü qiymətləndirilməsinə imkan verir. FWCI, məsələn, bir məqalənin aldığı istinadların sayını eyni sahə və ildə dərc olunmuş oxşar məqalələrlə müqayisə edir. Yəni bu göstərici elmi keyfiyyəti ədalətli və sahə üzrə normallaşdırılmış şəkildə ölçür.

Bundan əlavə, THE reytinqində beynəlxalq baxış meyarı universitetin qlobal əməkdaşlıq səviyyəsini, xarici tələbə və akademik heyət payını əks etdirir.

Sənaye göstəriciləri isə universitetlərin sənaye ilə əməkdaşlığı, innovasiyalar, ixtiralar və konsaltinq xidmətləri ilə ölçülür. THE sənaye əlaqələrini innovasiya, patent, spin-off və ticarətləşdirmə imkanları ilə ölçür ki, bu da universitetin iqtisadi təsirini və real dünyaya adaptasiyasını göstərir.

Ümumiyyətlə, THE Reytinqi universitetlərin qlobal standartlarla müqayisəsini təmin edir və güclü tərəfləri vurğulayaraq beynəlxalq tərəfdaşlıq və tələbə cəlbini artırmaq məqsədi daşıyır.

**– Qazandığınız uğur universitetə hansı yeni imkanlar qazandırır?**

– THE reytinqində yer almaq İqtisad Universitetinin beynəlxalq arenada rəqabətə davamlı universitet kimi tanınmasını təmin edir, qlobal görünürlüyü artırır, beynəlxalq tərəfdaşlıq imkanlarını genişləndirir və xarici tələbə, alim və tədqiqatçıların diqqətini cəlb edir. Bu, həmçinin Azərbaycanın elmi potensialının beynəlxalq miqyasda tanınmasına böyük töhfə verir. Bundan əlavə, biz öz fəaliyyətimizi beynəlxalq standartlarla müqayisə edə bilirik, eləcə də zəif tərəflərimizi görə bilirik. Bu təhlillərə əsasən də inkişaf strategiyamızı daha düzgün planlaşdırmaq imkanı qazanırıq.

**– Yəqin növbəti mərhələdə hədəf beynəlxalq reytinqlərdə mövqeyi daha da gücləndirmək üçün olacaq.**

– Universitetin 100 illiyində müəyyən etdiyimiz strategiyada 2030-cu ildə dünyanın ən yaxşı 500 universiteti sırasında olmaq hədəf seçilib. Bu istiqamətdə elmi-tədqiqat fəaliyyətinin keyfiyyətini artırmaq, beynəlxalq indeksli jurnallarda dərc olunan məqalələrin sayını çoxaltmaq, xarici universitetlərlə birgə tədqiqat layihələrini genişləndirmək və "Web of Science" və "Scopus" bazalarına daxil olan ən azı 3 elmi jurnal yaratmaq prioritetlərdəndir. Hazırda 2 jurnalımız Scopus bazasına daxil olub. Məqsədimiz yalnız reytinq göstəricilərini yaxşılaşdırmaq deyil, UNEC-i regionun elm və innovasiya mərkəzinə çevirməkdir.

**– İqtisad Universitetinin beynəlxalq reytinq uğuru Azərbaycan ali təhsil sisteminin də nailiyyəti sayılır.**

– Bəli, İqtisad Universitetinin THE reytinqinə daxil olması və dünyanın ən yaxşı 1000 universiteti sırasında yer alması Azərbaycan ali təhsilinin beynəlxalq səviyyədə tanınmasının göstəricisidir. Bu, ölkəmizdə elmin və təhsilin keyfiyyətinin yüksəldiyini, qlobal akademik məkanla inteqrasiyanın dərinləşdiyini sübut edir. Bizim uğurumuz yaxın gələcəkdə digər Azərbaycan universitetlərinin də beynəlxalq reytinqlərdə yer almasına və mövqelərinin yüksəlməsinə inam yaradır, ölkənin elmi potensialına və akademik nüfuzuna dividend qazandırır.

***Söhbəti hazırladı:***
***Tahir AYDINOĞLU***
***XQ***

# Şimaldan Cənuba qlobal nəqliyyat körpüsü

**Xəbər verdiyimiz kimi, oktyabrın 13-də Bakıda Azərbaycan, Rusiya və İran arasında nəqliyyat, energetika və gömrük sahələrində əməkdaşlıq məsələlərinə həsr olunan üçtərəfli görüş keçirilib.**

Azərbaycan ilə İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının Azərbaycan tərəfindən həmsədri, Baş nazirin müavini Şahin Mustafayev, Dövlət Komissiyasının İran tərəfindən həmsədri yol və şəhərsalma naziri Fərzanə Sadeqi və Rusiya Baş nazirinin müavini Aleksey Overçukun iştirak etdikləri görüşdə "Şimal – Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinə daxil olan Qəzvin – Rəşt –Astara (İran) – Astara (Azərbaycan) dəmir yolunun Rəşt – Astara hissəsinin tikintisinin davam etdirilməsi, eləcə də nəqliyyat-tranzit, enerji və gömrük sahəsində qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin inkişafı məsələləri müzakirə olunub.

Söhbət zamanı, həmçinin "Şimal – Cənub" beynəlxalq nəqliyyat dəhlizinin potensialından tam şəkildə istifadə edilməsi üçün "Rəşt – Astara" dəmir yolu xəttinin inşasının, eləcə də dəhlizin komponentlərindən olan müvafiq dəmir yolu terminalının tikintisinin tamamlanmasının əhəmiyyəti qeyd olunub.

Həmin görüşün nəticələrinə dair qəbul olunmuş kommünikedə isə "Şimal – Cənub" beynəlxalq nəqliyyat dəhlizi boyunca nəqliyyat, sərhəd və gömrük əməliyyatlarının rəqəmsallaşdırılmasının zəruriliyi vurğulanıb. Sənədə əsasən, dəhliz boyunca sərhəd-keçid prosedurları sadələşdiriləcək. Bununla yanaşı, sənəddə Araz çayı üzərində "Ağbənd-Kələlə" avtomobil yolu körpüsünün tikintisinin, o cümlədən sərhəd-buraxılış məntəqələrinin inşası üzrə işlərin yekunlaşdırılmasının üçtərəfli əlaqələrin möhkəmləndirilməsinə töhfə verəcəyi vurğulanıb.

Kommünikeyə əsasən, Azərbaycan, İran və Rusiyanın gömrük, sərhəd və nəqliyyat qurumlarının nümayəndələrindən ibarət avtomobil daşımaları üzrə xüsusi işçi qrup yaradılıb. Bundan da məqsəd "Şimal – Cənub" beynəlxalq nəqliyyat dəhlizi üzrə daşımaların həcminin 15 milyon tona çatdırılmasından ibarətdir.

Mövzunu şərh edən **İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdiri, iqtisad elmləri doktoru Aqil Əsədov** bildirdi ki, qonşu ölkələr arasında əməkdaşlıq imkanlarına dəstək verən Xəzər İnşaat Həftəsi tikinti sektorundan

dünyaya qapı açır

gional, həm də qlobal inkişaf baxımından çox önəmlidir. O cümlədən Azərbaycan, İran və Rusiya prezidentlərinin 2016-cı il 8 avqust tarixli Bəyannaməsinin və 2017-ci 1 noyabr tarixli Birgə Bəyanatının müddəalarına əsaslanan kommünikedə iqtisadi münasibətlərin inkişafı, qarşılıqlı ticarətin təşviqi, təhlükəsiz və etibarlı iqtisadi tərəqqi mühitinin formalaşdırılması, regional və beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı, birgə enerji layihələrinin reallaşdırılması kimi məsələlər öz əksini tapıb.



Aqil Əsədov daha sonra qeyd etdi ki, kommünike "Şimal – Cənub" nəqliyyat dəhlizinin tam istismara hazırlanmasına öz dəstəyini verməklə üzv ölkələrin tranzit imkanlarını daha da artıracaq. Sənəd nəqliyyat dəhlizləri boyunca infrastruktur təminatın sinxronlaşdırılmasını da özündə əks etdirir ki, bu da dəhlizin tam potensialı ilə işləməsinə şərait yaradacaq: "Kommünikenin diqqəti cəlb edən daha bir vacib bəndi avtomobil daşımaları üzrə xüsusi işçi qrupun yaradılması ilə bağlıdır. Gömrük, sərhəd, nəqliyyat və s. əlaqədar qurumların nümayəndələrinin təmsil olunacağı işçi qrup sərhəd-buraxılış prosedurlarını sinxronlaşdırmağa, birgə koordinasiyaya, tranzit daşımalarla bağlı məlumatların qarşılıqlı mübadiləsinə kömək edəcək ki, bu da intensivliyi artıracaq, yük cəlbediciliyinə müsbət təsir göstərəcək".

Aqil Əsədov onu da bildirdi ki, tranzit daşımaların təşviqi məqsədilə üç ölkənin gömrük qurumlarının qarşılıqlı fəaliyyəti üçün üçtərəfli işçi qrupun formalaşdırılması da olduqca mühüm məsələdir. Ümid edilir ki, kommunike "Şimal – Cənub"




beynəlxalq nəqliyyat dəhlizinin bir hissəsi olan Rəşt-Astara dəmir yolunun tikintisini daha da tezləşdirəcək, regionda uzunmüddətli üçtərəfli inkişaf mühiti formalaşdıracaq.

**İqtisadçı ekspert Eldəniz Əmirov** isə "Şimal – Cənub" nəqliyyat dəhlizi konsepsiyasının əslində 1976-cı ildə Parisdə qoyulduğunu xatırladaraq bildirdi ki, o zaman bununla bağlı dialoqa 27 ölkə qoşulub. Dolayı dəniz marşrutu adlanan ənənəvi xətt Mumbai, Hindistan şəhərindən başlayır, Ərəbistan dənizi, Bab əl-Ədəm boğazı, Qırmızı dəniz, Süveyş kanalı və Aralıq dənizi vasitəsilə Şimal limanlarına çatır. Bu marşrut üzrə daşınmalar, təxminən, 45-60 gün davam edir.



Onun sözlərinə görə, Azərbaycan üzərindən keçən marşrut isə Rusiya və İran üçün birbaşa daha qısadır və təxminən, 7 min 200 kilometr təşkil edir: "Coğrafi baxımdan və trayektoriya üzrə bir neçə faiz daha qısadır. Gün baxımından da vaxt qənaəti təmin edir, xərclər isə, təqribən, 15-20 faiz daha azdır. Ən əsası, təhlükəsizlik baxımından üstünlük təmin edir. Bu baxımdan Hindistan, İran, Azərbaycan və Rusiya marşrutu "Şimal – Cənub" dəhlizinin ən müasir, dayanıqlı və təhlükəsiz marşrutu kimi çıxış edə bilər. Lakin bunun şərti ondan ibarətdir ki, Rusiya və İran öz dəhliz infrastrukturlarını inkişaf etdirərək Qərb ilə münasibətlərini normallaşdırsınlar. Əslində, Rusiya tərəfdə bu qədər problem yoxdur. Rusiya öz seqmentini müəyyən səviyyədə inkişaf etdirə bilir. Azərbaycan isə bu ölkələr arasında öz dəhliz infrastrukturunu ən yüksək səviyyədə təmin etmiş ölkələrdən biridir".

Bununla belə, İranla bağlı vəziyyətin fərqli olduğunu vurğulayan iqtisadçı ekspert qeyd etdi ki, bir müddət əvvəl körfəzdə limanın partladılması dəhlizə ciddi zərbə vurub. Onun sözlərinə görə, bu zərər təkcə maddi baxımdan deyil, həm də belə hadisələr investorların və logistik şirkətlərin inamına da mənfi təsir göstərir, çünki ölkə öz-özünə yükləri daşımır, bütün yük daşımalarını şirkətlər həyata keçirir. Bu baxımdan İran limanlarında və ümumilikdə, ölkədə təhlükəsizliyin təmin olunması "Şimal – Cənub" dəhlizinin perspektivi üçün kritik əhəmiyyət daşıyır.

E.Əmirov hesab edir ki, Rusiyada müharibənin bitməsi dəhlizin gələcəyi üçün çox önəmlidir: "Əgər dəhliz Rusiyadan Avropaya keçməsə, onun perspektivi məhdud olacaq. Bu marşrut Rusiyadan Avropaya, həmçinin Skandinaviya ölkələrinə qədər uzanmalıdır. Əgər bu şərtlər təmin olunsa, o zaman hər bir böyük ölkənin "Şimal – Cənub" dəhlizindən yararlandığını görəcəyik, o cümlədən Azərbaycan da bundan fayda götürəcək". Ekspertin fikrincə, Rusiya və İranla Qərb arasında münasibətlər normallaşdıqdan sonra Zəngəzur dəhlizi də bu marşrutun bir seqmenti kimi ölkə iqtisadiyyatına, xüsusilə işğaldan azad olunmuş ərazilərimizə əhəmiyyətli töhfəsini verəcək, eyni zamanda, Ermənistan, Rusiya, İran, Türkiyə üçün müsbət nəticələr gətirəcək.

İqtisadçı ekspert onu da qeyd etdi ki, 2000-ci ildə Rusiya, İran, Hindistan və Oman Sankt-Peterburqda bu dəhlizin yaradılması ilə bağlı sazişi qəbul etdilər və Azərbaycan da həmin prosesə qoşuldu. Onun sözlərinə görə, ümumilikdə, bugünə qədər 13 ölkə sənədi ratifikasiya etsə də, layihənin əsas icraçıları Hindistan, İran, Azərbaycan və Rusiyadır.

Xatırladaq ki, XXI əsrin strateji layihələrindən olan "Şimal – Cənub" nəqliyyat dəhlizi Hindistanın Körfəz regionundan başlayaraq İran, Azərbaycan və Rusiya üzərindən Avropayadək, təxminən, 7 min 200 kilometr məsafə qət edir. Bu marşrut Asiya və Avropa arasındakı yük daşımalarını sürətləndirir, nəqliyyat xərclərini azaldır və region ölkələrinin iqtisadi inkişafına təkan verir. Hazırda "Şimal-Cənub" dəhlizi vasitəsilə ildə, təqribən, 3 milyon ton yük daşınır. Yaxın gələcəkdə isə bu göstəricinin 15 milyon tona çatdırılması planlaşdırılır ki, bu da dəhlizin beynəlxalq ticarətdə tutduğu rolu daha da möhkəmləndirəcək.

Hazırda yük daşımalarının müddəti ənənəvi marşrutlara nisbətən 30-40 faiz azalaraq, ticarət subyektlərinə vaxt və vəsait baxımından böyük üstünlüklər yaradır. Eyni zamanda, nəqliyyat və logistika xərclərində 20-30 faizə qənaət əldə edilir ki, bu da məhsulların rəqabət qabiliyyətini artırır.

"Şimal – Cənub" dəhlizi Azərbaycan üçün təkcə tranzit yol deyil, həm də iqtisadiyyatın gücləndirilməsi üçün əvəzsiz bir vasitədir. Ölkəmizin bu layihədə fəal iştirakı onu regionun nəqliyyat-logistika mərkəzlərindən birinə çevirməklə tranzit potensialını artırır. Beynəlxalq arenada "Şimal – Cənub" dəhlizinin təşviqində xüsusi fəallığı ilə seçilən Azərbaycan regional əməkdaşlıq platformalarında yaxından iştirak edir və investisiya cəlb edir. Bu isə ölkəmizin iqtisadi və siyasi mövqeyinin möhkəmlənməsinə şərait yaradır. Nəticədə, Azərbaycan "Şimal – Cənub" nəqliyyat dəhlizində təkcə tranzit ölkə kimi deyil, həm də regionun əsas nəqliyyat-logistika mərkəzi kimi öz mövqeyini sürətlə gücləndirir. Eyni zamanda, logistika sektorunda iş yerlərinin sayı son illərdə 25 faizdən çox artaraq 10 mini ötüb. Bu isə ölkə iqtisadiyyatının şaxələnməsi və məşğulluğun artırılması baxımından vacibdir.

# Xəzər İnşaat Həftəsi dünyaya qapı açır

**Dünən Bakıda 30-cu Xəzər İnşaat Həftəsi öz işinə başlayıb. Regionun inşaat sektorunda aparıcı sənaye platformalarından biri olan bu toplantı 30-cu Azərbaycan Beynəlxalq İnşaat ("BakuBuild"), 5-ci Azərbaycan Beynəlxalq Qarabağın Bərpası, Yenidənqurması və İnkişafı ("Rebuild Karabakh"), 17-ci Beynəlxalq İstilik, Havalandırma, Kondisionerləşdirmə, Su təchizatı, Santexnika və Üzgüçülük Hovuzu ("Aquatherm Baku"), 4-cü Xəzər Beynəlxalq Plastik və Polimer Sənayesi ("Plastex Caspian"), eləcə də 13-cü Xəzər Beynəlxalq Yol İnfrastrukturu və İctimai Nəqliyyat ("Road&Traffic") sərgilərini birləşdirir.**




Ötən müddətdə 58 ölkədən 6 min 500-dən çox şirkəti, eləcə də 200 mindən artıq peşəkar ziyarətçini bir araya gətirən Xəzər İnşaat Həftəsi tikinti sahəsinin aparıcı platforması kimi mühüm sərgiləri birləşdirir, sahə mütəxəssislərini bir araya toplayır və biznes üçün yeni əməkdaşlıq imkanları yaradır. Tədbir innovativ texnologiyaların tətbiqinə, azad edilmiş ərazilərdə layihələrin reallaşdırılmasına və beynəlxalq investisiyaların artmasına mühüm töhfə verir. 30 illik tarixə malik Xəzər İnşaat Həftəsi bu gün artıq milli brend kimi beynəlxalq şirkətlərin işgüzar təqvimində özünə layiqli yer tutub.

Müxtəlif dövlət qurumlarının dəstəyi ilə keçirilən yubiley həftəsinin baş sponsoru Azərbaycanda daşınmaz əmlakın inkişafı, investisiya və idarə olunması üzrə aparıcı şirkətlərdən biri olan "PMD Group"dur. Tədbirin rəsmi bank tərəfdaşı qismində ölkənin aparıcı korporativ maliyyə institutu "PASHA Bank" çıxış edir. "Rebuild Karabakh" sərgisinin rəqəmsal həllər üzrə rəsmi tərəfdaşı isə "AzinTelecom" şirkətidir.

Bu il ekspozisiya Bakı Ekspo Mərkəzinin üç pavilyonunu əhatə edir. Xəzər İnşaat Həftəsi çərçivəsində keçirilən sərgilərdə 17 ölkədən 299 şirkət yer alır. İştirakçı ölkələrə Azərbaycanla yanaşı, Almaniya, Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Bolqarıstan, Böyük Britaniya, İsrail, İran, İtaliya, Qazaxıstan, Çin, Rusiya, Rumıniya, Türkiyə, Özbəkistan, Çexiya, Cənubi Koreya daxildir. Almaniya, İtaliya, Özbəkistan və Türkiyə sərgidə milli pavilyonlarla təmsil olunur.

"BakuBuild" sərgisində şirkətlər tikinti və istehsal avadanlıqları, döşəmə örtükləri, interyer həlləri, işıqlandırma və izolyasiya sistemləri nümayiş etdirirlər. Burada, həmçinin keramika və üzlük daşları, landşaft materialları, metal məhsulları, pəncərə və qapılar, fitnes avadanlıqları və digər məhsullar təqdim olunur.

"Rebuild Karabakh" sərgisində isə şirkətlər "yaşıl" enerji, tikinti və inşaat materialları, kənd təsərrüfatı və təhlükəsizlik sahəsində öz həllərini və layihələrini təqdim edirlər.

"Aquatherm Baku" sərgisi çərçivəsində borular və boru kəmərləri, hovuzlar, enerji idarəetmə sistemləri, filtrlər, fitinqlər, hava nəmləndiriciləri, havalandırma qurğuları, hava qızdırıcıları, isitmə sistemləri, kompressorlar, kondisionerlər, konvektorlar, soyuducular, ventilyatorlar, klapanlar və digər mühəndis avadanlıqları nümayiş olunur.

"Plastex Caspian" sərgisində müasir avadanlıqlar və texnologiyalar, xammal və kimyəvi maddələr, eləcə də hazır plastik məhsullar təqdim olunur. Ehtimal olunur ki, bu il sərgidə xüsusilə Çindən olan aparıcı şirkətlərin iştirakı sənayenin inkişafına və beynəlxalq əməkdaşlıqların genişlənməsinə təkan verəcək.

"Road&Traffic" ixtisaslaşmış sərgisi isə yol təhlükəsizliyi və nəqliyyat infrastrukturuna dair həllərin təqdim olunacağı platformadır. Burada şirkətlər intellektual nəqliyyat sistemləri, hərəkət idarəetmə texnologiyaları, ictimai nəqliyyat, texnika üçün sürtkü materialları, yanacaqpaylayıcı avadanlıqlar və digər məhsulları nümayiş etdirirlər.

Əvvəlki illərdə olduğu kimi, bu dəfə də sosial missiya sərginin ayrılmaz hissəsi olaraq qalır. Belə ki, işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması istiqamətində görülən işlərə dəstək olmaq üçün ənənəvi olaraq təşkilatçıların təşəbbüsü ilə hər bir sərgi iştirakçısı tərəfindən Qarabağ Dirçəliş Fonduna ianə məqsədilə vəsait köçürülür. Ümumilikdə isə, 2021-ci ildən etibarən indiyədək fonda 137 min 772,16 dəyərində ianə bağışlanıb.

Hər il olduğu kimi, bu il də Xəzər İnşaat Həftəsi çərçivəsində aparıcı tikinti mütəxəssislərinin iştirakı ilə panel müzakirələri və sessiyalar keçiriləcək. Burada innovativ texnologiyaların tətbiqi, yeni keyfiyyət standartlarının müəyyənləşdirilməsi və azad olunmuş ərazilərin bərpası məsələləri müzakirə olunacaq. Proqramda "Qarabağın dirçəlişi və Azərbaycanın yeni inkişaf modeli", "Təchizat zəncirinin maliyyələşdirilməsi", "AZCON Holding və idarəetməsinə verilmiş dövlət müəssisələrinin Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində gördüyü işlər", "Kompromissiz keyfiyyət: Tikinti materiallarında keyfiyyət modeli", "Gələcəyin memarlığı: Yeni trendlərin və innovativ yanaşmaların formalaşması", "Yaşıl gələcək üçün nəqliyyat: ictimai sistemlərin inkişafı və ekoloji təmiz avtomobillər", "Qarabağın dirçəlişi müasir kommunikasiya və hekayəçilik müstəvisində", "Azərbaycanda yol xətt və yol nişanlama sisteminin inkişaf" və s. mövzularda sessiyalar, eləcə də "Dayanıqlı inkişaf naminə ağıllı və yaşıl həllər" konfransı yer alır.

**2025-ci il sentyabrın 1-nə Azərbaycan banklarının tikinti sahəsi üzrə biznes kredit portfeli 1 milyard 459 milyon manat təşkil edib. Bu barədə Azərbaycan Mərkəzi Bankı məlumat yayıb.**

# Tikintidə kredit portfeli 1,5 milyard manata çatıb

Bildirilib ki, sözügedən sahə üzrə kredit portfeli aylıq müqayisədə 15,5 milyon manat və ya 1 faiz azalsa da, bu göstərici ötən ilin eyni dövrünə nisbətən 107,3 milyon manat və ya 7,9 faiz artıb. Belə ki, tikinti sahəsi üzrə banklar tərəfindən verilmiş biznes kreditlərinin məbləği 2025-ci il avqustun 1-nə 1 milyard 475 miyon manat, ötən ilin sentyabrın 1-nə isə 1 milyard 352 milyon manat təşkil edib.

Qeyd edək ki, cari ilin sentyabrın 1-nə Azərbaycanda bankların kredit portfeli 206,7 milyon manat və ya 0,7 faiz artaraq 28 milyard 705 milyon manat olub. Kredit portfelinin 15 milyard 92 milyon manatı (52,6 faiz) biznes kreditləri, 9



milyard 114 milyon manatı (31,7 faiz) istehlak kreditləri, 4 milyard 499 milyon manatı (15,7 faiz) isə ipoteka kreditləri təşkil edib.

# Biləsuvar GES-də panellər yeni üsullarla təmizlənəcək



**Biləsuvar Günəş Elektrik Stansiyasında (GES) panellər xüsusi qurğular vasitəsilə avtomatik olaraq təmizlənəcək. Bu barədə stansiyada aparılan tikinti işlərinin vəziyyəti barədə keçirilən görüşdə bildirilib.**

Rayon icra hakimiyyətinin rəhbərliyi, "Masdar" və podratçı şirkətin nümayəndələrinin iştirak etdikləri görüşdə qeyd olunub ki, ümumi sahəsi 1454 hektar olan Biləsuvar GES-də Çinin "A Solar" şirkətinin istehsalı olan, hər iki üzü elektrik enerjisi istehsal edə bilən 943 mindən çox panelin quraşdırılması nəzərdə tutulur. Gücü 625-630 vatt təşkil edən günəş panelləri mərhələli şəkildə sahəyə gətirilir.

Bildirilib ki, stansiya 8 min 131 ədəd tək oxlu izləmə sistemi ilə təchiz olunacaq. Stansiyanın gələn il istismara verilməsi planlaşdırılır.

# Xarici sularda yükdaşımalar artıb

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti (ASCO) son 9 ildə Xəzərdənkənar sularda yük daşınmasını 3 dəfədən çox artırıb. Bu barədə XQ-yə ASCO-dan məlumat verilib.**

Bildirilib ki, qurum uzun fasilədən sonra, 2014-cü ilin oktyabr ayında Xəzərdən kənarda fəaliyyətini bərpa edib. Həmin il "Üzeyir Hacıbəyli" və "Natəvan" quru yük gəmilərinin beynəlxalq sularda istismara verilməsi ilə yeni mərhələnin əsası qoyulub. 2015-ci ildə Xəzərdənkənar sularda 183 min 139 ton yük daşınıb.

Sonrakı illərdə isə daşımaların intensivliyi ilə əlaqədar bu göstərici getdikcə artaraq 2024-cü ildə 609 min 742 tona çatıb. Bununla da artım, təqribən, 3,3 dəfə və yaxud 233 faiz təşkil edib. Heç şübhəsiz, bu yüksəliş milli gəmiçiliyin beynəlxalq arenada daha böyük nailiyyətlərə doğru inamla addımladığını göstərir.

***Səhifəni hazırladı:***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Hüquqi normativ iyerarxiyanın ali mərhələsi və suverenlik

**Cari ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunması müasir Azərbaycan dövlətçiliyinin formalaşma mərhələlərinin elmi-siyasi baxımdan dəyərləndirilməsi üçün geniş imkan yaradır. Bu təşəbbüs dövlətçilik ənənələrinin qorunması, suverenlik konsepsiyasının dərinləşdirilməsi və milli kimlik ideyasının möhkəmləndirilməsi üçün strateji əhəmiyyət daşıyır.**




Əvvəla, 2025-ci ildə qeyd ediləcək iki mühüm tarixi hadisə – Konstitusiyanın qəbulunun 30 illiyi və dövlət müstəqilliyinin bərpasının 34-cü ildönümü – Azərbaycan cəmiyyətində siyasi və hüquqi mədəniyyətin inkişafının təməl göstəriciləridir. Konstitusiya hər bir müstəqil dövlətin "yol xəritəsi" olmaqla, hüquqi dövlət və vətəndaş cəmiyyətinin bünövrəsini müəyyən edir. 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası isə ölkənin demokratik inkişaf yolunu müəyyənləşdirən, siyasi sistemin legitimliyini təsdiqləyən fundamental aktdır. Bu sənədin 30 illik tarixi göstərir ki, Azərbaycan dövlətçiliyi dinamik inkişaf etmiş, həm siyasi institutların formalaşması, həm də milli maraqların müdafiəsi baxımından mühüm nəticələr əldə olunmuşdur.

Digər tərəfdən, 2020-ci ildə xalqımızın Vətən müharibəsində qazandığı tarixi qələbə suverenliyin hüquqi və siyasi, həm də praktiki müstəvidə bərpa olunmasını təmin etdi. Suverenliyin qorunması dövlətin ərazi bütövlüyü və milli iradəsinin təsdiqi ilə bilavasitə bağlıdır. Bu mənada "Konstitusiya və Suverenlik İli" həm hüquqi dövlətin möhkəmlənməsi, həm də milli suverenliyin real zəmin üzərində bərqərar olması arasında üzvi bağlılığı nümayiş etdirir. Azərbaycan xalqı bu tarixi mərhələyə ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasi kursunun davamı, Prezident İlham Əliyevin qətiyyətli liderliyi və müzəffər Ordumuzun qəhrəmanlığı sayəsində nail olmuşdur.

Elmi-siyasi baxımdan bu qərarın əhəmiyyəti ondan ibarətdir ki, o, Azərbaycan dövlətçiliyinin inkişaf trayektoriyasını üç əsas xətt üzrə dəyərləndirməyə imkan verir: Hüquqi əsasların möhkəmləndirilməsi, yəni Konstitusiya ilə müəyyən olunan prinsiplərin qorunması və daim yenilənən çağırışlara uyğun təkmilləşdirilməsi, dövlətin beynəlxalq hüquqda tanınmış sərhədlərinin toxunulmazlığının bərpası və gücləndirilməsi, xalqın siyasi şüurunda müstəqilliyin əvəzolunmaz dəyər kimi möhkəmlənməsi.

Azərbaycan Konstitusiyası müstəqilliyini yenidən bərpa etmiş dövlətin hüquqi-siyasi çərçivəsini müəyyənləşdirərək, xalqın çoxəsrlik dövlətçilik ənənələrinə əsaslandı. Ənənələrin bu sənəddə ifadəsini tapması təsadüfi deyildi: Azərbaycan Xalq Cümhuriyyətinin iki il ərzində formalaşdırdığı zəngin dövlət quruculuğu təcrübəsi və respublika ideyası yeni müstəqillik dövründə müasir siyasi sistemin təməl daşına çevrildi. Bununla yanaşı, ötən əsrin 60–70-ci illərində Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə yaradılmış iqtisadi və institusional baza, hüquqi dövlət quruculuğu prosesinə etibarlı dayaq oldu. Konstitusiyanın qəbul olunması ümumxalq səsverməsi – referendum yolu ilə həyata keçirildi ki, bu da sənədin xalqın birbaşa iradəsinə söykəndiyini göstərir. Ulu öndər bu barədə demişdir: "Hər bir şəxs Konstitusiyaya və qanunlara əməl etməli, ondan irəli gələn dövlət və cəmiyyət qarşısında vəzifələrini layiqincə yerinə yetirməli, ölkəmizdə gedən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində yaxından iştirak etməlidir"; "Məqsədimiz xalqımızın mənəviyyatını qorumaq və zənginləşdirməkdir. Bizim Konstitusiyamız xalqın Konstitusiyasıdır. Hər bir vətəndaşın Konstitusiyasıdır!".

Hüquq nəzəriyyəsində xüsusi olaraq vurğulanır ki, konstitusiyaların giriş hissəsi, yəni preambula, həmin dövlətin tarixi yaddaşını və gələcək yol xəritəsini ifadə edir. Azərbaycan Respublikasının Konstitusiyasının preambulasında xalqın çoxəsrlik dövlətçilik ənənələrinə sadiqliyi, müstəqil və demokratik dövlət qurmaq əzmi, vətəndaş cəmiyyətinin inkişaf etdirmək niyyəti açıq şəkildə ifadə olunmuşdur. Bu, həm də milli birliyi, ortaq kimliyi və ümumi ali məqsədləri cəmiyyət miqyasında legitimləşdirən ideoloji çərçivə rolunu oynayır.

Azərbaycan Respublikasının Konstitusiyası hüquq sistemində ali qüvvəyə malikdir. Əsas Qanunun 147-ci maddəsi qanunvericilik, icra və digər normativ aktların məhz Konstitusiyaya uyğunluğunu tələb edir. Bu prinsip hüquqi sabitliyin qorunması, dövlət idarəçiliyində normativ iyerarxiyanın təmin edilməsi və hüquqi harmoniyanın saxlanılması baxımından fundamental əhəmiyyət daşıyır.

Azərbaycanda hüquq sistemi, insan hüquqlarının təminatı və dövlət idarəetməsinin müasirləşdirilməsi sahəsində əldə edilən nailiyyətlər dövlətin inkişaf trayektoriyasının mühüm göstəricilərindəndir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl islahatlar Konstitusiyanın prinsiplərinin dərinləşdirilməsinə, hüquqi sabitliyin möhkəmləndirilməsinə və vətəndaşların hüquq və azadlıqlarına daha etibarlı təminatın yaradılmasına xidmət edir.

Azərbaycan Respublikasının Konstitusiyası qəbul olunduğu gündən dəyişən dövrün tələblərinə uyğunlaşdırılmışdır. İlk olaraq 2002-ci il avqustun 24-də keçirilən referendum nəticəsində 24 maddəyə, 2009-cu il martın 18-də isə 25 maddəyə edilən əlavə və dəyişikliklərlə reallaşdırıldı. Bu islahatlar əsasən dövlətin sosial-iqtisadi bazasının möhkəmləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsinin gücləndirilməsi və idarəetmədə çevikliyin artırılması məqsədini daşıyırdı.

2016-cı il sentyabrın 26-da keçirilmiş referendum isə dövlət quruculuğu tarixində mühüm mərhələ oldu. Konstitusiyanın 29 maddəsinə edilən əlavə və dəyişikliklər ali dövlət hakimiyyəti orqanlarının, məhkəmə sisteminin və bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsinə yönəlmişdi. Bu dəyişikliklər nəticəsində idarəetmə strukturlarının funksional imkanları genişləndi, insan hüquq və azadlıqlarının təminat mexanizmləri daha da gücləndirildi. Beləliklə, Əsas Qanun müasir çağırışlara cavab verən və davamlı inkişafı təmin edən hüquqi çərçivəyə çevrildi.

Suverenliyimizin ən böyük təminatlarından olan 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfər təkcə hərbi-siyasi qələbə kimi deyil, həm də suverenlik və konstitusiya prinsiplərinin tam bərpası kimi qiymətləndirilməlidir. Azərbaycan xalqı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş torpaqlarda dövlət suverenliyinin bərqərar olunmasına, Əsas Qanunun hüquqi qüvvəsinin bütün ölkə ərazisində təmin edilməsinə nail oldu. Bu, həm hüquqi, həm də ideoloji baxımdan suveren dövlət anlayışının möhkəmlənməsi demək idi. Bu barədə Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamında qeyd edilir: "Cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmişdir. Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilmişdir. Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır".

Hər xalqın tarixi yaddaşında dövlətçilik ənənələri onun siyasi kimliyinin və milli özünüdərkinin əsas sütunlarından birini təşkil edir. Öz taleyini yazmaq, müstəqil dövlət qurmaq və onu inkişaf etdirmək milli varlığın ən yüksək təzahür formasıdır. Azərbaycan xalqı üçün bu prinsip yalnız siyasi müstəvidə deyil, həm də tarixi-fəlsəfi anlamda strateji dəyər kəsb edir.

Tarixin müxtəlif mərhələlərində ölkəmiz işğallara, yadelli təsirlərə, siyasi təzyiqlərə və iqtisadi məhrumiyyətlərə məruz qalsa da, heç bir qüvvə xalqımızın müstəqillik iradəsini və dövlətçilik ənənələrinə sadiqliyini məhv edə bilməmişdir. Bu məqam, əslində, siyasi elmdə "xalq iradəsinin davamlılığı" (continuity of popular sovereignty) kimi dəyərləndirilir.

Dövlətçilik tariximiz göstərir ki, xalqın azadlıq iradəsi hərbi-siyasi gücələ tamamlanmadıqca davamlılıq qazana bilməz. Bu baxımdan, Azərbaycanın müasir dövründə əldə etdiyi ərazi bütövlüyü, suverenliyin tam bərpası yalnız diplomatik uğur deyil, həm də milli mübarizənin hərbi-siyasi zirvəsidir.

Müstəqil Azərbaycan dövləti bu gün regionun geosiyasi arxitekturasında mühüm aktordur. Ərazi bütövlüyünü bərpa etmiş, beynəlxalq müstəvidə artan nüfuz qazanan Azərbaycan xalqı öz milli sərvətini dövlət müstəqilliyini strateji şəkildə qorumağa və inkişaf etdirməyə davam edir. Bu proses milli kimliyin möhkəmləndirilməsi, dövlətçilik fəlsəfəsinin dərinləşməsi kimi qiymətləndirilməlidir.

***Maarif HÜSEYNOV,***
***Tovuz rayon prokuroru,***
***baş ədliyyə müşaviri***

# AMEA-da beynəlxalq konfrans

**Dünən AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunda "Azərbaycan Respublikasında müasir konstitusionalizm və suverenliyə yeni baxış" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.**



AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli açılış nitqində "Konstitusiya və Suverenlik İli" çərçivəsində təşkil olunmuş tədbirin ölkəmizin müstəqil inkişaf yoluna, möhtəşəm Zəfərimizin tarixi və ictimai-siyasi əsaslarına, eləcə də yeni mərhələdə suveren Azərbaycanın qarşısında duran əsas hədəflərə nəzər salınması baxımından mühüm əhəmiyyət kəsb etdiyini bildirib. Natiq qeyd edib ki, bu gün müstəqil Azərbaycan dövləti özünün ən şanlı, zəngin dövrünü yaşayır. Ulu öndər Heydər Əliyevin Azərbaycan dövləti qarşısında tarixi xidmətləri misilsizdir. Görkəmli dövlət xadimi hələ sovet hakimiyyəti illərində xalqımızı Azərbaycanın gələcək müstəqilliyinə hazırlayıb. Ulu öndərin ideyalarının işığında Azərbaycan iki onillikdə əsrə bərabər yol keçib. Hazırda Heydər Əliyevin müəyyən etdiyi siyasi kurs Prezident İlham Əliyev tərəfindən inamla, müdrikliklə, mütərəqqi addımlarla davam etdirilir.

AMEA rəhbəri vurğulayıb ki, 44 günlük Vətən müharibəsi ilə tarix yazan ölkəmiz Ali Baş Komandan İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə ərazi bütövlüyünü və suverenliyini bərpa edərək dünyaya nümunə olub. Bu gün Azərbaycan dünyada öz sözünü deyən, etibarlı və dəyərli tərəfdaş kimi tanınır və dünyaya barış, ədalət, təhlükəsizlik, əməkdaşlıq, dostluq, həmrəylik təqdim edir.

AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru, professor İlham Məmmədzadə çıxışında müasir dövrdə Azərbaycan konstitusionalizminin inkişaf mərhələlərini və suverenlik anlayışına yanaşmadakı dəyişiklikləri təhlil edib. O qeyd edib ki, konstitusionalizm və suverenlik bir-biri ilə sıx bağlı anlayışlardır. Azərbaycanın müasir dövrdə qarşısında dayanan əsas vəzifə hüquqi dövlətin qurulması və real suverenliyin davamlı şəkildə qorunmasıdır.

Sonra onlayn formatda Belarus Milli Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun direktoru, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Anatoli Lazaroviç, Qazaxıstan MEA-nın fəxri akademiki, Qazaxıstanın Əməkdar elm xadimi, hüquq elmləri doktoru Esberqen Alauxanov, "Ukrayna Azərbaycanlıları Alimlər Şurası" İctimai Təşkilatının sədri, professor Arif Quliyev, Kiyev Əqli Mülkiyyət və Hüquq Milli Universitetinin professoru Halunko Valentin, Avropa Tədqiqatlar İnstitutunun elmi işçisi, hüquq elmləri doktoru Rayko Petroviç və başqaları təmsil etdikləri ölkələrin təcrübəsini bölüşüb, suverenliyimizin bərpasını dövlət quruculuğu prossesi və vətəndaş cəmiyyətinin formalaşmasının yeni mərhələsi kimi qiymətləndiriblər.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Tacikistan heyəti Ədliyyə Nazirliyində




**Tacikistan Respublikasının Ədliyyə Nazirliyinin və digər dövlət qurumlarının nümayəndə heyəti Ədliyyə Nazirliyinin penitensiar müəssisələrinin fəaliyyəti və probasiya sahəsində Azərbaycanın təcrübəsinin öyrənilməsi məqsədilə ölkəmizdə səfərdə olublar.**

Bu barədə XQ-yə Ədliyyə Nazirliyindən məlumat verilib. Bildirilib ki, Tacikistan Ədliyyə Nazirliyinin Cinayət cəzalarının icrası baş idarəsinin rəis müavini Voris Gozizodanın başçılıq etdiyi nümayəndə heyəti Fəxri xiyabanı, Şəhidlər xiyabanını və Zəfər parkını ziyarət edib.

Daha sonra nümayəndə heyəti ədliyyə nazirinin müavini – Penitensiar xidmətin rəisi Mirsaleh Seyidovla görüş keçiriblər. Görüşdə qurumlar arasında əməkdaşlıq, penitensiar sahədə qanunvericilik, məhkum və həbs edilmiş şəxslərin hüquq və azadlıqların təmin olunması müzakirə olunub, infrastrukturun yenilənməsi, müasir standartlara cavab verən penitensiar müəssisələrin inşası və digər maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində qonaqlar Bakı İstintaq təcridxanasının, 4 saylı cəzaçəkmə müəssisəsinin, Yetkinlik yaşına çatmayanlar üçün penitensiar müəssisənin və Umbakı penitensiar müəssisəsinin fəaliyyəti ilə tanış olublar. Qonaqlara elektron nəzarət vasitələrinin tətbiqi və innovativ idarəetmə platformalarına dair təqdimatlar nümayiş etdirilib.

Tədbir zamanı Azərbaycan və Tacikistanın ədliyyə orqanları arasında əməkdaşlığın genişləndirilməsi, qarşılıqlı təcrübə mübadiləsi və gələcək birgə layihələrin həyata keçirilməsi perspektivləri müzakirə olunub.

Tacikistan nümayəndə heyəti ölkəmizdə penitensiar və probasiya sistemlərinin müasir yanaşmalar əsasında qurulmasını, məhkumların sosial reabilitasiyası istiqamətində həyata keçirilən tədbirləri, eləcə də rəqəmsal texnologiyaların tətbiqini yüksək qiymətləndirib, bu sahələrdə əldə olunan təcrübənin ikitərəfli əməkdaşlıq çərçivəsində öyrənilməsinin vacibliyini qeyd ediblər.

***Nurəngiz ADİLQIZI***
***XQ***

# ANAMA-nın "Şuşaya səfər" aksiyası



**Azərbaycan Respublikasında elan edilmiş "Konstitusiya və Suverenlik İli" çərçivəsində Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) təşkilatçılığı və Yeni Azərbaycan Partiyası (YAP) Binəqədi Rayon Təşkilatının təşəbbüsü ilə nümayəndə heyəti işğaldan azad edilmiş ərazilərə səfər edib.**

Səfərin məqsədi işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı humanitar minatəmizləmə fəaliyyəti, eləcə də bərpa-quruculuq işləri ilə yaxından tanış olmaq olub.

İşğaldan azad edilmiş ərazilərə səfər çərçivəsində nümayəndə heyəti Ağdam rayonunun Sarıcalı kəndi ərazisində ANAMA tərəfindən icra edilən humanitar minatəmizləmə əməliyyatları ilə tanış olub. Ərazilərin təmizlənməsi metodologiyaları, minaaxtaranın istifadə etdiyi alət və avadanlıqlar, mina və partlamamış hərbi sursatların nümunələri nümayiş olunub, mina probleminin miqyası, insanların sağlamlığına, yaşam mühitinə yaratdığı təhlükə, eləcə də mina təhlükəsinin aradan qaldırılması istiqamətində həyata keçirilən fəaliyyət barədə ətraflı məlumat verilib. Bildirilib ki, minatəmizləmə prosesi Böyük Qayıdış proqramının əsas tərkib hissələrindən biridir və ərazilərin təhlükəsizliyinin təmin olunması istiqamətində mühüm əhəmiyyət daşıyır.

Sonda nümayəndə heyəti aşkar olunan mina və partlamamış hərbi sursatların partlayış yolu ilə zərərsizləşdirilməsi prosesini müşahidə ediblər.

Səfər çərçivəsində nümayəndə heyəti Şuşada Cıdır Düzü, İsa bulağı, Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi, Yuxarı Gövhər Ağa məscidi, eləcə də Xankəndi şəhərini ziyarət edib.

***Müşfiq MİRZƏ***
***XQ***

# Bələdiyyələr və insan hüquqları

**Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Baş İdarəsi Hüquq və İnsan Haqları İnstitutu ilə birgə sentyabrın 19-dan oktyabrın 13-dək "Bələdiyyələrin fəaliyyətində insan hüquqları aspekti" mövzusunda silsilə maarifləndirici təlim keçirib.**

Bakı, Gəncə, Sumqayıt, Şirvan şəhərlərində və Xaçmaz rayonunda təşkil edilən təlimlərdə bələdiyyələrin fəaliyyətini tənzimləyən hüquqi baza, hesabatlılıq və şəffaflıq mexanizmləri, ictimai iştirakçılığın təşviqi və vətəndaşlara ələqələrin hüquqi əsasları barədə iştirakçılara ətraflı məlumat verilib.

Təlimlərdə Bakı şəhərindən 44 bələdiyə təmsilçisi olmaqla, ölkə üzrə 177 nümayəndə iştirak edib. İnteraktiv formatda keçirilən izahat və müzakirələrdə torpaq sahələrinin qiymətləndirilməsi, çıxarışların verilməsi kimi aktual məsələlərin hüquqi həllinə xüsusi diqqət yetirilib. Sonda iştirakçılara sertifikatlar təqdim edilib.

***Y.QABİL***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 296** **Bakı şəhəri, 9 oktyabr 2025-ci il**

**"Elektroenergetika haqqında" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 858-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 may tarixli 2143 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 858-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 may tarixli 2143 nömrəli Fərmanının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 2 fevral tarixli 18 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 2, maddə 121 (Cild I); 2024, № 1, maddə 116, № 4, maddə 471, № 10, maddə 1180, № 11, maddə 1253, № 12 (II kitab), maddə 1461) ilə təsdiq edilmiş "Elektrik enerjisindən istifadə Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.6-cı bənddə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 3 noyabr tarixli 399 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması Qaydası"na" sözləri "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 25 iyun tarixli 315 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik şəbəkəsinə dair Qaydalar"a" sözləri ilə əvəz edilsin;

1.2. 6.3-cü bənddə "Elektrik qurğularının quraşdırılması Qaydası"na, "Elektrik və istilik qurğularının texniki istismar Qaydası"na və "Elektrik və istilik qurğularının istismarında təhlükəsizlik texnikası Qaydası"na" sözləri "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun 20.3-cü və 36.3-cü maddələrinə uyğun olaraq, elektrik qurğularının quraşdırılması, elektrik qurğularının texniki istismar və elektrik qurğularının istismarında təhlükəsizlik texnikası qaydalarına" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 6 fevral tarixli 36 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 299 (Cild I) ilə təsdiq edilmiş "Qaz qurğularının tikintisinə, qurulmasına, istismarına və işçi vəziyyətdə saxlanmasına dair Tələblər"in 3.2.8-ci yarımbəndinin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və 3.2.9-cu yarımbəndi ləğv edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 6 fevral tarixli 38 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 301 (Cild I) ilə təsdiq edilmiş "Tüstü bacalarının istismarında təhlükəsizlik texnikası Qaydası"nın 2.1.8-ci yarımbəndində "istilik enerji" sözləri "elektrik" sözü ilə, "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 30 dekabr tarixli 520 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik və istilik qurğularının texniki istismar Qaydası"nın 3.10.3.10-cu yarımbəndi" sözləri "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun 36.3-cü maddəsinə uyğun olaraq, elektrik qurğularının texniki istismar qaydaları" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 28 sentyabr tarixli 346 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 9, maddə 1367 (Cild I); 2024, № 3, maddə 312, № 9, maddə 1064) ilə təsdiq edilmiş "Aktiv istehlakçının dəstəklənməsi mexanizminin tətbiqi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3.1-ci bənddə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 11 fevral tarixli 40 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik qurğularının quraşdırılması Qaydası"nın" sözləri "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun 20.3-cü maddəsinə uyğun olaraq, elektrik qurğularının quraşdırılması qaydalarının" sözləri ilə əvəz edilsin;

4.2. 3.2-ci bənddə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 3 noyabr tarixli 399 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması Qaydası" sözləri "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 25 iyun tarixli 315 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik şəbəkəsinə dair Qaydalar" sözləri ilə əvəz edilsin;

4.3. 4.1-ci bənddə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 11 fevral tarixli 40 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik qurğularının quraşdırılması Qaydası" sözləri "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun 20.3-cü maddəsinə uyğun olaraq, elektrik qurğularının quraşdırılması qaydaları" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 3 noyabr tarixli 400 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 11, maddə 1563 (Cild I); 2024, № 3, maddə 333) ilə təsdiq edilmiş "Tikinti obyektlərinə tələb olunan gücün hesablanması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 1.2-ci bənddə "2020-ci il 11 fevral tarixli 40 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik qurğularının quraşdırılması Qaydası"nın" sözləri "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun 20.3-cü maddəsinə uyğun olaraq, elektrik qurğularının quraşdırılması qaydalarının" sözləri ilə əvəz edilsin;

5.2. 1.8-ci bənddə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 11 fevral tarixli 40 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik qurğularının quraşdırılması Qaydası"nın 6.3.3.15-ci yarımbəndinin tələblərinə uyğun olaraq, gücdən istifadə əmsalı (Kist) 1,0-a bərabər qəbul edilir" sözləri "gücdən istifadə əmsalı "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun 20.3-cü maddəsinə uyğun olaraq, elektrik qurğularının quraşdırılması qaydalarına əsasən Azərbaycan Respublikasının Energetika Nazirliyi tərəfindən müəyyən edilir" sözləri ilə əvəz edilsin;

5.3. 2.1-ci bənddə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 11 fevral tarixli 40 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik qurğularının quraşdırılması Qaydası"nın 6.3.3.15-ci yarımbəndinə uyğun olaraq, gücdən istifadə əmsalını 1,0-a bərabər qəbul etməklə" sözləri "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun 20.3-cü maddəsinə uyğun olaraq, elektrik qurğularının quraşdırılması qaydalarına əsasən Azərbaycan Respublikasının Energetika Nazirliyi tərəfindən müəyyən edilən gücdən istifadə əmsalına uyğun" sözləri ilə əvəz edilsin;

5.4. 3.18-ci bəndin üçüncü abzası aşağıdakı redaksiyada verilsin:

"Ümumi təyinatlı elektrik şəbəkələrinə qoşulan elektrotexniki qurğuların güc əmsalı və xarici işıqlandırma qurğularının güc əmsalı "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun 20.3-cü maddəsinə uyğun olaraq, elektrik qurğularının quraşdırılması qaydalarına əsasən Azərbaycan Respublikasının Energetika Nazirliyi tərəfindən müəyyən edilən güc əmsallarından aşağı olmamalıdır.";

5.5. 4.6-cı bənddə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 11 fevral tarixli 40 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik qurğularının quraşdırılması Qaydası"nın 1.3.2-ci yarımbəndinə" sözləri "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun 20.3-cü maddəsinə uyğun olaraq, elektrik qurğularının quraşdırılması qaydalarına" sözləri ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 16 may tarixli 261 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 5 (II kitab), maddə 599) ilə təsdiq edilmiş "Elektrik şəbəkələrinin mühafizə zonalarının ölçüləri və həmin ərazilərdə təsərrüfat işlərinin aparılmasına dair Tələblər"də aşağıdakı dəyişikliklər edilsin:

6.1. 2.6-cı bənddə "2020-ci il 11 fevral tarixli 40 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik qurğularının quraşdırılması Qaydası" sözləri "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun 20.3-cü maddəsinə uyğun olaraq, elektrik qurğularının quraşdırılması qaydaları" sözləri ilə əvəz edilsin;

6.2. 3.6-cı bənddə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 11 fevral tarixli 41 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik və istilik qurğularının istismarında təhlükəsizlik texnikası Qaydası"nın" sözləri "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun 36.3-cü maddəsinə uyğun olaraq, elektrik qurğularının istismarında təhlükəsizlik texnikası qaydalarının" sözləri ilə əvəz edilsin.

**7.** Bu Qərar 8-ci hissəsi nəzərə alınmaqla, 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

**8.** Bu Qərarın 1.1-ci və 4.2-ci bəndləri 2025-ci il iyulun 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 297** **Bakı şəhəri, 9 oktyabr 2025-ci il**

**"Naftalan neftinin çıxarılması, emalı, saxlanılması və sanatoriya-kurort müəssisələrinə paylanılması Qaydaları"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Sağlamlıq turizminin inkişafında Naftalan neftinin rolunun artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 sentyabr tarixli 308 nömrəli Sərəncamının 1.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Naftalan neftinin çıxarılması, emalı, saxlanılması və sanatoriya-kurort müəssisələrinə paylanılması Qaydaları" təsdiq edilsin *(əlavə olunur).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 300** **Bakı şəhəri, 13 oktyabr 2025-ci il**

**Taksi minik avtomobilləri ilə sərnişin daşımaları üçün icazələrin əlavələrinin sayına məhdudiyyətlər tətbiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, avtomobil nəqliyyatı xidmətlərinin səmərəliliyinin və keyfiyyətinin artırılması, habelə ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə daşımalarda nəqliyyat növləri üzrə sərnişin axınlarının paylanmasının optimallaşdırılması məqsədilə "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 4 iyul tarixli 792 nömrəli Fərmanının 2.1-2-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Bakı şəhərinin inzibati ərazi vahidi üzrə taksi minik avtomobilləri ilə sərnişin daşımaları üçün verilən icazələrin əlavələrinin say həddi 25.000 (iyirmi beş min) müəyyən edilsin.

**2.** Taksi minik avtomobilləri ilə sərnişin daşımaları fəaliyyəti üçün icazələrin əlavələri Azərbaycan Respublikasının Rəqabət Məcəlləsinə, "Lisenziyalar və icazələr haqqında" və "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq və müraciət zamanı növbəlilik nəzərə alınmaqla verilsin.

**3.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Bakı şəhərinin inzibati ərazi vahidi üzrə taksi minik avtomobilləri ilə sərnişin daşımaları üçün icazələrin əlavələrinin say həddinə dair təkliflərini hər təqvim ili avqustun 1-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

**4.** Bu Qərar 2025-ci il noyabrın 1-dən qüvvəyə minir və bu Qərarın 1-ci hissəsində qeyd olunan icazələrin əlavələrinin yeni say həddinin müəyyən olunduğu tarixədək qüvvədədir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 298** **Bakı şəhəri, 13 oktyabr 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün ödənilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2019-cu il 9 iyul tarixli 294 nömrəli, "Dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi və "Ailə tipli kiçik qrup evinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 13 avqust tarixli 207 nömrəli Qərarının ləğv edilməsi barədə" 2020-ci il 30 iyul tarixli 274 nömrəli və "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nın təsdiq edilməsi barədə" 2022-ci il 28 aprel tarixli 175 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Sosial sığorta haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Uşaq hüquqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında", "Dövlət rüsumu haqqında", "İcra haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Sosial müavinətlər haqqında", "Əmək pensiyaları haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyaya qoşulmaq barəsində", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 172-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün ödənilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 9 iyul tarixli 294 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1317 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında, preambulada və 1-ci hissədə "və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri "əlilliyi müəyyən edilmiş şəxslərə və ya əlilliyi olan uşaqlara" sözləri ilə əvəz edilsin;

1.2. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.";

1.3. həmin Qərarla təsdiq edilmiş "Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün ödənilməsi Qaydası" üzrə:

1.3.1. adında "və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri "əlilliyi müəyyən edilmiş şəxslərə və ya əlilliyi olan uşaqlara" sözləri ilə əvəz edilsin;

1.3.2. 1-ci hissə üzrə:

1.3.2.1. 1.1-ci (hər iki halda) və 1.2-ci bəndlərdə "və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri "əlilliyi müəyyən edilmiş şəxslərə və ya əlilliyi olan uşaqlara" sözləri ilə əvəz edilsin;

1.3.2.2. 1.6-cı bənddə "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin" sözləri "əlilliyi olan uşaqların" sözləri ilə əvəz edilsin;

1.3.3. 2-ci hissə üzrə:

1.3.3.1. 2.1-ci bəndin birinci cümləsində "və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri "əlilliyi müəyyən edilmiş şəxslərə və ya əlilliyi olan uşaqlara" sözləri ilə əvəz edilsin;

1.3.3.2. 2.2.4-cü yarımbənd üzrə:

1.3.3.2.1. birinci cümlədə "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri "Əlilliyi olan uşaqlara" sözləri ilə əvəz edilsin;

1.3.3.2.2. ikinci cümlədə "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri "əlilliyi olan uşaqlara" sözləri ilə əvəz edilsin;

1.3.3.3. 2.4-cü bənddə "və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin" sözləri "əlilliyi müəyyən edilmiş şəxslərin və ya əlilliyi olan uşaqların" sözləri ilə əvəz edilsin;

1.3.4. 3-cü hissə üzrə:

1.3.4.1. 3.1-ci bənddə "və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxs" sözləri "əlilliyi müəyyən edilmiş şəxs və ya əlilliyi olan uşaq" sözləri ilə, "və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin" sözləri "əlilliyi müəyyən edilmiş şəxslərin və ya əlilliyi olan uşaqların" sözləri ilə əvəz edilsin;

1.3.4.2. 3.2-ci bənddə "və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsə" sözləri "əlilliyi müəyyən edilmiş şəxsə və ya əlilliyi olan uşağa" sözləri ilə əvəz edilsin;

1.3.4.3. 3.3-cü bəndin ikinci cümləsində "və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri "əlilliyi müəyyən edilmiş şəxslərə və ya əlilliyi olan uşaqlara" sözləri ilə əvəz edilsin;

1.3.4.4. 3.5.1-ci yarımbənddə "və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxs" sözləri "əlilliyi müəyyən edilmiş şəxs və ya əlilliyi olan uşaq" sözləri ilə əvəz edilsin;

1.3.4.5. 3.5.3-cü yarımbənddə "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsin" sözləri "əlilliyi olan uşağın" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 iyul tarixli 274 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 1004 (Cild I); 2024, № 2, maddə 230, № 10, maddə 1161; 2025, № 7, maddə 730) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evinin Nümunəvi Nizamnaməsi"nin 1.3-cü bəndində "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər də" sözləri "əlilliyi olan uşaqlar da" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 421 (Cild I); 2024, № 1, maddə 98, № 3, maddə 301, № 7, maddə 892, № 10, maddə 1160, № 11, maddə 1247; 2025, № 2, maddə 200, № 6, maddə 605) ilə təsdiq edilmiş "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nın 4.1-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4.1.6-cı yarımbəndin 2-ci abzasında "və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri "əlilliyi müəyyən edilmiş şəxslərə və ya əlilliyi olan uşaqlara" sözləri ilə əvəz edilsin;

3.2. 4.1.7-ci yarımbənd üzrə:

3.2.1. "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsə" sözləri "əlilliyi olan uşağa" sözləri ilə əvəz edilsin;

3.2.2. 1-ci abzasda "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsin" sözləri "əlilliyi olan uşağın" sözləri ilə əvəz edilsin;

3.2.3. 2-ci abzasda "və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri "əlilliyi müəyyən edilmiş şəxslərə və ya əlilliyi olan uşaqlara" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Xuntaçıların məhkəməsi*

# Zərərçəkmişlər təqsirləndirilənləri ittiham edirlər

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi oktyabrın 14-də davam etdirilib.**



Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) zərərçəkmiş Xəyal Canbaxışovun atası Xeyrulla Canbaxışov bildirib ki, övladı Ağdərədə həlak olub. Elşad Şeydayev isə Kəlbəcərdə düşmənin təxribatı nəticəsində qolundan və ayağından xəsarət aldığını deyib.

Kamiz İbayev Kəlbəcərdə dumana düşərək əsir götürüldüyünü, ona müxtəlif işgəncələr verildiyini, pis rəftara məruz qaldığını və döyüldüyünü deyib. Qismətpaşa Abbaszadə Ağdamda, Rövşən Hacıbalayev və Taleh Rzayev Ağdərədə, Zaur Ələkbərov və Telman Adıgözəlov Xocavənddə yaralandıqlarını bildirib. Elvin Məmmədov deyib ki, Ağdamda ağır xəsarətlər alıb, 23 gün komada qalıb, ikinci qrup əlildir.

Teymur Cəfərov Laçında yaralandığını bildirib. Hadisə zamanı bir nəfər həlak olub, bir neçə nəfər isə yaralanıb. Sərxan Rəhimov, Aqil Quliyev, Xəqani Quliyev, Dəyanət Mərdanlı, Məhərrəm Kərimli isə Ağdamda yaralanıblar. Anar Seyidov, Türkan Cəfərov və Pərviz Adıgözəlov müxtəlif istiqamətlərdə xəsarətlər aldıqlarını söyləyiblər.

Sonra zərərçəkmiş şəxslər barəsində məhkəmə-tibbi ekspertizasının rəyləri elan edilib.

Məhkəmənin növbəti iclası oktyabrın 21-nə təyin olunub.

***XQ***



# Yerli ayaqqabı istehsalı niyə iflas etmişdi?

## *Xammalımız da var, sənətkarımız da – özgələrə möhtac olmayaq*

**Azərbaycanın sənaye tarixində yüngül sənaye, xüsusilə də ayaqqabı istehsalı sahəsi uzun illər ərzində həm iqtisadi, həm də sosial baxımdan mühüm önəm daşıyıb. Bu sektor əhalinin gündəlik tələbatını ödəməklə bərabər, minlərlə insanın məşğulluğunu gerçəkləşdirməyə müsbət təsir göstərib. Lakin bu mühüm sənaye sahəsinin tarixi inkişaf mərhələləri və indiki vəziyyəti keçmişin təcrübəsini yenidən canlandırmaqla ciddi strateji yanaşmaya ehtiyacı zəruri edib.**

Keçmiş SSRİ dönəmində Azərbaycanın yüngül sənayesi Ümumittifaq iqtisadi sisteminin mühüm həlqələrindən biri idi. Respublikada pambıqçılıq, ipəkçilik, toxuculuq və dəri emalı ilə yanaşı, ayaqqabı istehsalı da yüksək səviyyədə təşkil olunmuşdu. Sovet dövründə Gəncə, Bakı, Naxçıvan, Mingəçevir, Şəki, Lənkəran kimi şəhərlərdə fəaliyyət göstərən ayaqqabı fabrikləri həm daxili bazarın, həm də keçmiş İttifaqın digər respublikalarının sifarişlərini yerinə yetirirdi. Məsələn, Gəncə ayaqqabı fabriki və Bakı Ayaqqabı İstehsalat Birliyi ölkə əhalisinin tələbatını ödəməklə bərabər, eyni zamanda Ukrayna, Belarus, Orta Asiya respublikalarına da məhsul göndərirdi. Bu müəssisələrdə istehsal olunan ayaqqabılar keyfiyyətinə, davamlığına və materialının təbii olmasına görə bazarlarda digərlərindən seçilirdi.

SSRİ dövrünün əsas xüsusiyyətlərindən biri mərkəzləşdirilmiş planlaşdırma idi. Xammal təchizatı, istehsal həcmi, satış istiqamətləri və qiymətlər dövlət planı ilə tənzimlənirdi. Bu sistemin üstünlüyü ondan ibarət idi ki, fabriklər sabit sifariş və satış bazarına malik idi, işçi qüvvəsi üçün sosial təminat yaradılmışdı, texniki yenilənmələr isə Dövlət proqramları çərçivəsində həyata keçirilirdi.

Lakin sistemin mənfi tərəfi o idi ki, bazar prinsiplərinin zəifliyi rəqabət mühitini məhdudlaşdırır, məhsul çeşidlərinin yenilənməsini və keyfiyyətin artırılmasını ləngidirdi. Buna baxmayaraq, ötən əsrin 80-ci illərinin sonuna qədər ayaqqabı istehsalı sahəsi ölkə iqtisadiyyatında sabit və mühüm yer tuturdu.

Yeri gəlmişkən, keçmiş SSRİ dönəmində respublikamızda 1973-cü ildə yaradılan Bakı Ayaqqabı İstehsalat Birliyi fəaliyyət göstərirdi. Burada lak və xromdan modelli qadın və kişi ayaqqabısı, üzlüyü toxuma parçadan və xromdan olan yüngül ev ayaqqabısı istehsal edilirdi. Birlik 4 və 5 nömrəli ayaqqabı fabriklərini birləşdirirdi. Baş müəssisə olan 5 nömrəli ayaqqabı fabriki 1960-cı ildə fəaliyyətə başlamış, 1971-ci ildə 3 nömrəli ayaqqabı fabriki ilə birləşdirilmişdi. Fabrikdə dövr üçün yeni texnika və mütərəqqi texnologiya tətbiq edilmiş, istehsal prosesləri mexanikləşdirilmiş və avtomatlaşdırılmışdı. Azərbaycanda poliuretan altlıqlı ayaqqabı və isti vulkanizasiya üsulu ilə ayaqqabı istehsalı da ilk dəfə burada tətbiq edilmişdi. 1975-ci ildə 3 milyon 480 min cüt ayaqqabı (o cümlədən 1 milyon 42 min cüt modelli ayaqqabı, 2 milyon 269 min cüt ev ayaqqabısı) istehsal olunmuşdu. 1976-cı ilin iyuluna aid olan statistik məlumata görə, o dövrdə Bakı Ayaqqabı İstehsalat Birliyində 5 növ kişi və qadın ayaqqabısı dövlət keyfiyyət nişanı ilə buraxılırdı. Məhsulu SSRİ-nin bir çox şəhərlərinə də göndərilirdi.

### Bazara keçidin fəsadları

1990-cı illərin əvvəllərində SSRİ-nin dağılması ilə planlı iqtisadi sistem də çökməyə başladı. Azərbaycan müstəqilliyə qədəm qoyarkən sənaye sektorunun, o cümlədən yüngül sənayenin əsas dayaqları ciddi zərbə aldı. Ayaqqabı istehsalı bu prosesdə ən çox zərər görən sahələrdən biri oldu. Bunun əsas səbəblərindən biri iqtisadi keçid dövrünün xaosu idi. Belə ki, yeni bazar iqtisadiyyatı modelinə keçid dövründə dövlət sifarişləri və mərkəzləşdirilmiş maliyyə sistemi ləğv olundu. Nəticədə ayaqqabı fabrikləri xammal, enerji və maliyyə çatışmazlığı ilə üzləşdi. Dövlətin dəstəyi olmadığı üçün bir çox müəssisə isə fəaliyyətini dayandırdı.

Bu dövrdə təbii ki, avadanlıqların köhnəlməsi və texnoloji gerilik də sözügedən sahədə mövcud şəraiti daha da ağırlaşdırdı. Qeyd edək ki, sovet dövründən qalan istehsal xətləri artıq 1980-ci illərin sonlarında köhnəlmişdi. Yeni avadanlıqların alınması isə həm bahalı, həm də xaricdən asılı bir proses idi. Texnoloji yenilənmə olmadığından istehsalın səmərəliliyi və məhsulun keyfiyyəti də getdikcə aşağı düşürdü.

Sözügedən sahədə vəziyyəti çətinləşdirən amillər təkcə yuxarıda vurğulananlarla kifayətlənmirdi. Belə ki, bu dövrdə idxalın sürətli artımı ciddi narahatlıq doğururdu. 1990-cı illərin ortalarından etibarən Türkiyə, Çin və digər Asiya ölkələrindən gətirilən ucuz ayaqqabılar yerli bazarı, necə deyərlər, ələ keçirdi. Bu məhsulların qiyməti yerli istehsalın maya dəyərindən daha aşağı idi. Nəticədə yerli fabriklər bazar rəqabətinə tab gətirə bilmirdi.

O dövrdə ayaqqabı bazarında rəsmi idxalla yanaşı, qeyri-leqal ticarət də geniş yayıldı. Gömrük nəzarətinin zəifliyi ucuz, lakin keyfiyyətsiz məhsulların ölkəyə axınını artırdı. Bu isə yerli istehsalın tamamilə sıradan çıxmasına gətirib çıxardı. Peşəkar kadr çatışmazlığı da ciddi narahatlıq doğurmağa başladı. Belə ki, müstəqillik dövrünün ilk illərində sənaye texnikumları və ixtisas məktəbləri fəaliyyətini ya dayandırdı, ya da istiqamətini dəyişdi. Ayaqqabı istehsalında çalışan peşəkar ustalar və texnoloqlar tədricən başqa sahələrə yönəldi. Beləliklə, 2000-ci illərin əvvəllərində Azərbaycanda sənaye miqyasında ayaqqabı istehsalı, demək olar ki, dayanmışdı. Daxili bazarın 95 faizindən çoxu idxal məhsullarının payına düşürdü.





### *Ekspert rəyi*

**Samir HEYDƏROV,**
**iqtisadçı-ekspert**



Azərbaycan sənayesinin inkişaf strategiyasında qeyri-neft sektorunun genişləndirilməsi və rəqabətqabiliyyətli yerli istehsalın formalaşdırılması prioritet istiqamətlərdən biridir. Ayaqqabı sənayesi bu məqsədlər üçün əlverişli bir sahədir, çünki həm yerli xammal bazasına, həm də peşəkar ənənəyə malikdir. Lakin mövcud vəziyyət göstərir ki, sözügedən potensialın tam reallaşması üçün sistemli və mərhələli siyasət həyata keçirilməlidir.

Fikrimcə, aşağıda diqqətə çatdırdığım təkliflər isə bu sahənin bərpası və inkişafı istiqamətində strateji baxış kimi qəbul edilə bilər. Belə ki, bu məsələdə, ilk növbədə, istehsal bazasının yenilənməsi və texnoloji modernləşmə önə çəkilməlidir. Unudulmamalıdır ki, ayaqqabı istehsalı yüksək texnologiyaya əsaslanan sahədir. Müasir avtomatlaşdırılmış kəsim, tikiş və yığma avadanlıqları həm məhsulun keyfiyyətini artırır, həm də maya dəyərini azaldır. Bax, elə bu məqsədlə də mövcud müəssisələr üçün texnoloji yeniləmə proqramı hazırlanmalı, dövlət və özəl sektor əməkdaşlığı çərçivəsində sənaye avadanlıqlarının güzəştli kreditlərlə alınması gerçəkləşdirilməli, xarici texnologiya təchizatçıları ilə birgə istehsal layihələri həyata keçirilməlidir.

Dəri və xammal sənayesinin inkişafı da diqqətdə saxlanılmalıdır. Çünki ayaqqabı istehsalının əsas dayağı, necə deyərlər, dəri emalı sənayesidir. Əgər dəri, rezin və digər komponentlər xaricdən alınırsa, məhsulun maya dəyəri yüksəlir və rəqabət gücü azalır. Buna görə də dəri emalı müəssisələrinin modernləşdirilməsi və “təmiz” texnologiya prinsipləri ilə işləməsi təmin olunmalıdır. Eyni zamanda kənd təsərrüfatı sektorunda maldarlıq və xammal istehsalı ilə sənaye arasında əlaqə gücləndirilməlidir. “Yaşıl dəri sənayesi” konsepsiyası çərçivəsində tullantısız istehsal modelləri də tətbiq edilməlidir.

Kiçik və orta müəssisələrin dəstəklənməsi prinsipinə də xüsusi əhəmiyyət verilməlidir. Belə ki, ayaqqabı sənayesində iri fabriklərlə yanaşı, kiçik ustaxanalar və fərdi istehsalçılar da mühüm rol oynayırlar. Onlar həm kreativ dizayn, həm də fərdi sifarişlər üzrə bazarda rəqabət yarada bilərlər. Elə buna görə də Kiçik və Orta Biznesin İnkişaf Agentliyi və Sahibkarlığın İnkişafı Fondu vasitəsilə mikrokredit və qrant mexanizmləri genişləndirilməlidir.

Yuxarıda sadalananlarla bərabər, “Start-up ayaqqabı brendləri” üçün vergi güzəştləri və ixrac təşviqləri tətbiq olunmalıdır. “Sənətkarlıq mərkəzləri” yaradılaraq təcrübəli ustalarla gənc ixtisaslıların əməkdaşlığı təşviq edilməlidir. Təbii ki, peşə təhsili və kadr hazırlığı da gücləndirilməli, texniki peşə məktəblərində “Ayaqqabı texnologiyası” və “Dəri emalı” ixtisasları yenidən açılmalı, İtaliya, Türkiyə və Polşa kimi ölkələrlə tərəfdaş təhsil proqramları qurulmalıdır. Yeri gəlmişkən, bu prosesdə yaradılan təcrübə bazaları sənaye müəssisələri ilə inteqrasiya edilməlidir.

Ayaqqabı istehsalında ixracyönümlü siyasət və regional brendin formalaşdırılması da əsas məsələlərdən biridir. Qeyd edim ki, Azərbaycan üçün əsas bazarlar Qafqaz, Mərkəzi Asiya və MDB məkanları ola bilər. Yerli istehsalın genişlənməsi üçün ixracatçılar üçün güzəştli logistika və gömrük rejimi də təmin edilməli, “Azərbaycan ayaqqabısı” adlı regional brend formalaşdırılmalı və “Aliexpress”, “Amazon” və “Etsy” kimi onlayn platformalarda rəqəmsal satış kanalları açılmalıdır.

Sonda xatırlatmaq yerinə düşər ki, Azərbaycanın ayaqqabı sənayesi keçmişdə möhkəm təməl üzərində formalaşmış, lakin müstəqilliyin ilk illərindəki iqtisadi çətinliklər nəticəsində dağılmış bir sektordur. Bu gün həmin sahənin bərpası təkcə iqtisadi deyil, həm də milli sənaye mədəniyyətinin dirçəlişi baxımından strateji əhəmiyyət kəsb edir. Əgər dövlətin dəstəyi, sahibkar təşəbbüskarlığı və dizayn-inovasiya potensialı düzgün bir istiqamətdə birləşərsə, “Azərbaycan ayaqqabısı” təkcə daxili bazarda deyil, beynəlxalq arenada da öz layiqli yerini tutar. Eyni zamanda, ölkəmiz keçmişin təcrübəsi ilə bu günün imkanlarını birləşdirərək, yaxın illərdə regionun ən perspektivli yüngül sənaye mərkəzlərindən biri kimi tanınar.

### Yeni təşəbbüslər və yerli brend

Son illərdə dövlətin qeyri-neft sektoruna dəstək siyasəti çərçivəsində yüngül sənaye sahəsində müəyyən canlanma müşahidə olunur. Xüsusilə “Made in Azerbaijan” brendi çərçivəsində ayaqqabı istehsalının bərpasına yönələn layihələrin həyata keçirilməsinə başlanıb. Hazırda İqtisadi İnkişaf Nazirliyinin idarəçiliyindəki bir neçə sənaye parkında, eləcə də Gəncə, Sumqayıt və Abşeron zonasında yerləşən kiçik və orta müəssislərdə yerli dəri və süni



materiallardan ayaqqabı istehsal edilir. Bu müəssisələrin bir qismi ixrac potensialına malikdir, lakin ümumi həcmlə müqayisədə bu, hələ də çox kiçik paydır. Bu gün rəqabətqabiliyyətli yerli istehsalın bərpası üçün aşağıdakı istiqamətlərdə iş aparılır:

***– texnoloji modernləşmə həyata keçirilir. Yeni avadanlıqların alınması və avtomatlaşdırılmış istehsal xətləri qurulur;***

***– dizayn və brendinq amili diqqətdə saxlanılır. Gənc dizaynerlər prosesə cəlb edilir, milli üslubu müasir trendlərlə birləşdirən modellərin hazırlanmasına xüsusi önəm verilir;***

***– ixracın təşviqinə xüsusi əhəmiyyətli amil kimi yanaşılır. Kiçik müəssisələrin Türkiyə, Gürcüstan və Orta Asiya bazarlarına çıxış imkanları yaradılır;***

***– idxal asılılığının azaldılması istiqamətində müəyyən layihələr, məsələn, dəri emalı və xammal təchizatı sahəsində yerli istehsalın inkişafı gerçəkləşdirilir;***

***– bu istiqamətdə dövlət tərəfindən sənaye zonalarının yaradılması, güzəştli kreditlər və vergi stimulları mühüm rol oynayır. Lakin real sıçrayış üçün həm dövlət, həm də özəl sektorun ortaq strategiyası formalaşmalıdır.***

### Statistik göstəricilər nədən xəbər verir?

Bu sahədə həyata keçirilən layihələr artıq öz müsbət nəticəsini verməyə başlayıb. Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin ilk yarısında Azərbaycanda 377,4 min cüt ayaqqabı (ötən ilin eyni dövrü ilə müqayisədə 29,7 faiz çox) istehsal edilib. Bu il iyulun 1-nə ölkədə 91,1 min cüt hazır məhsul ehtiyatı olub. Xatırladaq ki, 2024-cü ildə respublikada 1 milyon 41 min cüt (2023-cü illə müqayisədə 39 faiz çox) ayaqqabı istehsalı qeydə alınıb. Bu ilin yanvar-avqust aylarında isə 574 min cüt (ötən ilin eyni dövrü ilə müqayisədə 6,9 faiz çox) ayaqqabı istehsal edilib. Sentyabrın 1-nə isə ölkədə 125,5 min cüt hazır məhsul ehtiyatı olub.

Ayaqqabı istehsalında qeydə alınan statistik göstəricilər son illər bu sahənin inkişafının diqqət mərkəzində saxlanılmasından, sahənin genişlənməsinə həssaslıqla yanaşılmasından xəbər verir. İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan sənaye parklarında yaradılan ayaqqabı istehsalı müəssisələrinin sayının getdikcə artması bunun bariz ifadəsidir. Həmin fabriklərin qısa müddətdəki səmərəli işi də diqqət çəkir.

İqtisadiyyat Nazirliyindən öyrəndik ki, dövlət başçısı İlham Əliyevin iştirakı ilə ötən il sentyabrın 19-da Ağdam Sənaye Parkında “BAFCO İnvest” MMC-nin müxtəlif təyinatlı ayaqqabıların istehsalı müəssisəsi fəaliyyətə başlayıb. Həmin vaxtdan sənaye parkının 2,5 hektar ərazisində Almaniyanın qabaqcıl texnologiyalarının tətbiqi ilə müxtəlif təyinatlı çəkmələrin, eləcə də tikintidə istifadə üçün nəzərdə tutulan dəmir ucluqlu və altlıqlı təhlükəsizlik ayaqqabılarının istehsalına başlanılıb. İstehsal prosesi və keyfiyyətə nəzarət bu sahədə böyük təcrübəyə malik yüksəkixtisaslı yerli və xarici mütəxəssislər tərəfindən həyata keçirilib. İnvestisiya dəyəri 10 milyon manatdan çox olan müəssisənin kollektivi isə əsasən Ağdam və ətraf rayonlardan cəlb edilib.

Beynəlxalq standartlara cavab verən xammallar tanınmış xarici şirkətlərdən sifariş edilir. Ayaqqabı altlıqlarında istifadə olunan poliuretan Almaniyadan gətirilir. İldə 510 min cüt ayaqqabı istehsalı gücünə malik olan fabrikdə 350 min cüt təhlükəsizlik ayaqqabılarının, 160 min cüt isə poliuretan çəkmələrin istehsalı nəzərdə tutulur. Məhsulların 65 faizinin yerli, 35 faizinin isə xarici bazarlarda satışı planlaşdırılır.

İqtisadiyyat Nazirliyinin məlumatına görə, “BAFCO İnvest”in ayaqqabı müəssisəsi 2024-cü ilin noyabr ayında “EN İSO” uyğunluq sertifikatına layiq görülüb. Bu sənədin alınması ilə fabrikin məhsullarının Avropa, MDB və dünyanın digər bazarlarına ixracına əlverişli şərait reallaşıb. Bu istiqamətdə İspaniya, İtaliya, Çexiya və Almaniya ilə danışıqların aparılmasına başlanılıb. MDB məkanında isə artıq Qazaxıstana xüsusi qoruyucu və poliuretan çəkmələrin ixracı həyata keçirilib. İndiyədək Ağdam Sənaye Parkının rezidentindən – “BAFCO İnvest” MMC-dən bu ölkəyə 5 min cütdən çox xüsusi qoruyucu və poliuretan çəkmə göndərilib.

Prezident İlham Əliyevin iştirakı ilə bu il mayın 27-də daha bir müəssisə – “PIRSHAGHI” ayaqqabı fabrikinin Laçın filialı rayondakı Zerti Aqrar-Sənaye Parkında istifadəyə verilib. Müəssisədə birinci mərhələdə aylıq 700-750, ikinci mərhələdə 1250-1375, növbəti mərhələdə isə 2500-3000 cüt ayaqqabı istehsalı planlaşdırılıb. Fabrik Asiya, Avropa və Türkiyə istehsalı olan ən müasir avadanlıqlarla təchiz edilib. Sözügedən müəssisə üçün xammalın əsasən Türkiyədən gətiriləcəyi qərara alınıb. Bundan başqa, xidmət sektorunda peşəkarlığı artırmaq məqsədilə müəssisəyə qardaş ölkədən və Bakıdakı “PİRSHAGHİ” brendindən təlimçilərin cəlb olunması nəzərdə tutulub.

Ümumi dəyəri 367,9 min manat olan və əsasən Laçın sakinlərinin çalışdıqları müəssisə kişi, qadın və uşaqlar üçün ayda 1500 cüt ayaqqabı istehsal etmək gücündədir. Müasir avadanlıqlarla təchiz olunmuş fabrikdə idman və klassik üslubda ayaqqabılar istehsal olunur. Müəssisə daxili bazarda satış həyata keçirməklə yanaşı, istehsal etdiyi məhsulları Avropa ölkələrinə ixrac etməyi də planlaşdırır. Yeni brendin özəlliyi isə kişi, qadın və uşaq ayaqqabılarının istehsalında istifadə olunan materialların müxtəlif çeşiddə və növdə olması ilə bağlıdır.

Bu məqamda bir məsələyə də diqqət yetirmək istərdik. Prezident İlham Əliyevin “Dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi və idarə edilməsinin səmərəliliyinin artırılması ilə bağlı bəzi tədbirlər haqqında” Fərmanına və bu istiqamətdə tapşırıqlarına uyğun olaraq, hazırda özəlləşdirilən müəssisələr yenidən qurulur, müasir texnologiya və avadanlıqlarla təchiz olunur, yeni iş yerləri yaradılır. Belə müəssisələrdən biri də 2022-ci ildə İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin keçirdiyi investisiya müsabiqəsi vasitəsilə özəlləşdirilən “Bakı ayaqqabı fabriki” Açıq Səhmdar Cəmiyyətidir (ASC).

Bu səhmdar cəmiyyətinin özəlləşdirilməsi üzrə elan edilən investisiya müsabiqəsinin qalibi “Pepi-Əli Kəndli Təsərrüfatı” Məhdud Məsuliyyətli Cəmiyyəti (MMC) üzərinə götürdüyü öhdəlikləri icra edib, dövlət büdcəsinə 3,5 milyon manat məbləğində vəsait köçürüb, müəssisəyə 5,7 milyon manat məbləğində investisiya yatırıb.

İnvestisiya proqramına əsasən müəssisədəki istehsal avadanlıqları əsaslı təmir olunub və yeniləri quraşdırılıb, həmçinin ayaqqabı istehsalında istifadə edilən xammal alınıb. Türkiyənin ayaqqabı istehsalı sahəsində ixtisaslaşmış “ESSE” şirkəti ilə əməkdaşlıq əlaqələri qurulub, xarici mütəxəssislər cəlb olunub. Yenidən qurulması, istehsal olunan məhsulun həcminin və keyfiyyətinin yüksəldilməsi ilə ixrac imkanlarının genişlənməsinə imkan verəcək “Bakı ayaqqabı fabriki” ASC-də 100-dən artıq iş yeri yaradılıb.

### Xarici təcrübə – uğur formulu

Dünyanın bir sıra ölkələri ayaqqabı sənayesində mühüm uğurlar əldə edib. Bu uğurların əsas səbəbi texnologiya, dizayn və brend strategiyasının düzgün kombinasiyasındadır. İtaliya bu sahədə dünya lideridir. “Gucci”, “Prada”, “Salvatore Ferragamo” kimi brendlər təkcə keyfiyyətlə deyil, dizayn, ənənə və imiclə bazarda üstünlük qazanıb. İtaliya modeli göstərir ki, yerli istehsalın davamlı inkişafı üçün həm texnoloji müasirlik, həm də brend dəyəri zəruridir.

Türkiyə isə regional bazarlarda güclü mövqeyə malikdir. İstanbul, İzmir, Qaziantep kimi şəhərlərdə ayaqqabı istehsalı sənaye, eləcə də sənətkarlıq səviyyəsində inkişaf edib. Dövlət bu sahəyə ixrac təşviqi, sərgilər və təlim proqramları vasitəsilə dəstək verir. Nəticədə Türkiyə hazırda dünyanın ilk 10 ayaqqabı ixracatçısından biridir.

Çin isə kütləvi istehsal yolu ilə fərqlənir. Burada əsas məqsəd ucuz əmək qüvvəsi və geniş istehsal bazası hesabına yüksək həcmlə bazarları təmin etməkdir. Bu üsul keyfiyyətdən çox qiymət üstünlüyünə əsaslanır.

Ekspertlər sadalanan bu nümunələrə əsaslanaraq bildirirlər ki, ayaqqabı sənayesində uğurun əsas açarı 3 istiqamətdə cəmlənir:

***– texnologiya və innovasiya;***

***– dizayn və brend imici;***

***– dövlət dəstəyi və ixracyönümlü strategiya.***

### Su gələn arxa bir də gəlir

Mütəxəssislər deyirlər ki, Azərbaycan ayaqqabı istehsalı sahəsində bir vaxtlar mühüm təcrübə və maddi-texniki baza formalaşdırmışdı. Bu potensialın yenidən dirçəldilməsi mümkündür, lakin bunun üçün sektorda sistemli yanaşma zəruridir. Bu sahədə uğur qazanmaq üçün ilk növbədə, köhnə fabriklərin modernləşdirilməsi və yeni texnologiyaların tətbiqi diqqətdə saxlanılmalı, yerli dizayner və brendlərin təşviqinə üstünlük verilməlidir. Bütün bunlarla bərabər, dəri emalı sənayesi də inkişaf etdirilməli, dövlət dəstəyi mexanizmlərinin daha çevik və məqsədyönlü tətbiqinə başlanılmalıdır. Gənclər arasında sənətkarlıq ənənələri bərpa olunmalıdır.

Beləliklə, ayaqqabı istehsalı sahəsinin köhnə ənənələr unudulmamaq şərtilə müasir texnologiyalar əsasında qurulması təkcə iqtisadi məqsəd daşımır. Bu, eyni zamanda sənaye irsinin qorunması, milli brendlərin formalaşdırılması və məşğulluğun artırılması baxımından strateji əhəmiyyət kəsb edir. Bir sözlə, keçmişin təcrübəsini və bu günün imkanlarını birləşdirməklə Azərbaycan yenidən regionun tanınan ayaqqabı istehsalçılarından birinə çevrilə bilər.

***Vaqif BAYRAMOV***
***XQ***

# Türkiyə teleməkanının Zəfər yürüşümüzə informasiya dəstəyi

## *Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasında Azərbaycan liderinin siyasi uzaqgörənliyi və diplomatik məharəti*



**2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi artıq döyüşlərin ikinci həftəsindən etibarən ən həlledici mərhələyə daxil oldu. Bununla da ordumuzun möhtəşəm uğurları beynəlxalq medianın əsas müzakirə mövzularından birinə çevrildi. Prezident İlham Əliyev bu dövrdə dünyanın aparıcı televiziya kanallarına bir-birinin ardınca müsahibələr verərək, həm döyüş meydanında, həm də informasiya cəbhəsində qətiyyətli çıxışları ilə Azərbaycan həqiqətlərini dünyaya çatdırırdı.**

Dövlətimizin başçısının oktyabrın 15-də Türkiyənin NTV kanalına verdiyi müsahibə isə bu prosesdə xüsusi yer tutur. Çünki həmin çıxış təkcə hərbi əməliyyatların gedişini deyil, həm də Azərbaycan – Türkiyə qardaşlığının mahiyyətini, beynəlxalq münasibətlər sistemində ölkəmizin ədalətli mövqeyini və bölgədə yaranmaqda olan yeni reallıqları dərin təhlil səviyyəsində əks etdirirdi.

Prezident İlham Əliyevin NTV-yə müsahibəsində əsas diqqət Qarabağ münaqişəsinin mahiyyətinə, onun tarixi köklərinə və beynəlxalq hüquqa əsaslanan ədalətli həll modelinə yönəlmişdi. Ölkə rəhbəri açıq şəkildə Ermənistanın qəsbkarlıq siyasəti nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin uzun illər ərzində işğal altında qaldığını, bir milyondan artıq soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü vurğuladı.

Bu həqiqətlərin Türkiyə auditoriyası vasitəsilə beynəlxalq ictimaiyyətə çatdırılması strateji baxımdan mühüm önəm daşıyırdı. Çünki həmin dövrdə Qərb mediasında və bəzi beynəlxalq siyasi dairələrdə münaqişənin mahiyyəti təhrif edilməklə təqdim olunurdu. Prezident İlham Əliyevin isə diplomatik məharət və hüquqi əsaslandırma ilə ifadə olunan çıxışı daha çox diqqət çəkirdi.

Müsahibənin ən mühüm istiqamətlərindən biri Azərbaycan ilə Türkiyə arasındakı qardaşlıq münasibətlərinə dair verilən mesajlar idi. Dövlətimizin başçısı Türkiyənin Vətən müharibəsinin ilk günündən Azərbaycanın yanında dayandığını, siyasi və mənəvi dəstək göstərdiyini açıq şəkildə bildirdi. Azərbaycan lideri müsahibədə Türkiyə Prezidentinə və xalqına minnətdarlığını vurğulayaraq, bu qardaşlığın həm tarixə, həm mənəviyyata, həm də regionda sülh və ədalətə sadiqliyin təzahürü olduğunu dedi.

Azərbaycan lideri müsahibədə xüsusilə Türkiyənin qətiyyətli mövqeyinin bölgədə geosiyasi sabitliyin və güc balansının əsas təminatçısına çevrildiyini diqqətə çatdırdı. O, bu amilin bir tərəfdən Ermənistanı və onu himayə edən dairələri məsuliyyətli davranmağa vadar etdiyini, digər tərəfdən isə Azərbaycan xalqına mənəvi ruh verdiyini xatırlatdı. Ölkə rəhbəri, eyni zamanda Türkiyə–Azərbaycan münasibətlərinin “bir millət, iki dövlət” prinsipindən çıxaraq artıq “strateji müttəfiqlik” səviyyəsinə yüksəldiyini də xatırlatdı.

Prezident İlham Əliyev müsahibə zamanı Qarabağ məsələsində Azərbaycanın mövqeyinin tam şəkildə beynəlxalq hüquqa əsaslandığını bir daha vurğuladı. Dövlət başçısı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində (822, 853, 874, 884) Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasının tələb olunduğunu da diqqətə çatdırdı.

Yeri gəlmişkən, bu qətnamələrin illərlə icra olunmaması beynəlxalq hüququn ədalətli tətbiqinə ciddi zərbə vururdu. Prezident İlham Əliyevin arqumentləri isə Azərbaycanın öz ərazi bütövlüyünü gerçəkləşdirmək hüququnu beynəlxalq hüquq normalarına uyğun olaraq Vətən müharibəsindəki qələbələrimizlə həyata keçirdiyini göstərirdi. Bu arqumentlərin Türkiyə auditoriyasına təqdim olunması həm diplomatik, həm də psixoloji baxımdan əhəmiyyətli idi. Çünki Türkiyə Cənubi Qafqazda sabitlik və ədalətin təmin olunması baxımından Azərbaycanın ən güclü dəstəkçisi idi.

Prezident İlham Əliyev müsahibə zamanı Ermənistanın uzun illər boyu bölgədəki sülh prosesini pozduğunu, danışıqlardan yayınmaqla status-kvonu saxlamağa çalışdığını faktlarla sübut etdi. Ölkə rəhbəri, eyni zamanda Ermənistanın 2020-ci ilin iyulunda Tovuz istiqamətində törətdiyi təxribat, daha sonra sentyabr ayında atəşkəsi pozması ilə Azərbaycanın səbir kasasını daşırdığını bildirdi.

Bununla yanaşı, ölkə rəhbəri müsahibədə Ermənistan rəhbərliyinin öz daxili siyasi məqsədləri naminə avantürist addımlar ataraq bölgəni müharibəyə sürüklədiyini beynəlxalq aləmə bəyan etdi, eyni zamanda o, dövlət başçısı kimi həm diplomatik məsuliyyət hissini, həm də siyasi uzaqgörənliyini diqqətə çatdıraraq Azərbaycanın müharibə istəmədiyini, lakin ədaləti gerçəkləşdirmək üçün buna məcbur olduğunu bildirdi.

NTV-yə müsahibə həm də informasiya müharibəsində Azərbaycanın üstün mövqeyini nümayiş etdirdi. Prezident İlham Əliyevin arqumentləri, təmkinli və əsaslandırılmış cavabları beynəlxalq mediada formalaşmış stereotiplərin dağılmasına mühüm təsir göstərdi. O, bu müsahibədə hadisələrin təhlilini emosionallıqla deyil, riyazi dəqiqliklə apardı, bu zaman konkret faktlara əsaslandı. Bu yanaşma həm jurnalistlər, həm də tamaşaçılar arasında Azərbaycan liderinin şəxsiyyətinə və ölkəmizin mövqeyinə hörməti daha da artırdı.

Azərbaycan lideri müsahibədə müharibədən sonrakı mümkün geosiyasi nizam barədə də fikirlərini bölüşdü. Bildirdi ki, regionda sülhün bərpası yalnız işğala son qoyulması və ədalətin təmin olunması ilə mümkündür. O, respublikamızın gələcəkdə həm Ermənistanla, həm də digər qonşularla normal münasibətlər qurmaqda maraqlı olduğunu, lakin bunun yalnız qarşı tərəfin ədalət və beynəlxalq hüquqa hörmət göstərdiyi təqdirdə reallaşa biləcəyini vurğuladı. Bu mesaj əslində 2020-ci ilin payızında regionun gələcək diplomatik xəritəsini müəyyənləşdirən bir konseptual baxış idi.

Prezident İlham Əliyevin NTV-yə müsahibəsi bir daha göstərdi ki, Azərbaycan rəhbərliyi həm siyasi, həm diplomatik, həm də mənəvi müstəvidə öz xalqına arxalanır. O, xalqa ünvanladığı mesajlarda daim birliyə, inama və ədalətə çağırış edirdi. Dövlətimizin başçısının dərin məzmunlu çıxışları xalqda əminlik yaradırdı ki, Azərbaycan bu mübarizəni sonadək aparacaq və qələbə mütləq olacaq.

Beləliklə, ölkə rəhbərinin 2020-ci il oktyabrın 15-də Türkiyənin NTV kanalına verdiyi müsahibə Azərbaycan diplomatiyasının, siyasi liderliyinin və milli qətiyyətinin parlaq nümunəsi idi. Bu müsahibə təkcə bir informasiya çıxışı deyildi, həm də Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq hüququn müdafiəsi və qardaş Türkiyə ilə strateji birliyin təbliği baxımından mühüm tarixi hadisə idi. Bu çıxış, əslində, döyüş meydanında, diplomatik tribunada, informasiya sahəsində qazanılan qələbələrin bir hissəsi idi. İlham Əliyev bu müsahibə ilə bir daha göstərdi ki, Azərbaycanın səsi artıq dünyada daha aydın, daha inamlı və daha ədalətli şəkildə eşidilir.

Bu məqamda onu da deyək ki, Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsi dövründə xarici kütləvi informasiya vasitələrinə verdiyi çoxsaylı müsahibələrdə Ermənistanın yürütdüyü işğalçılıq siyasətinin, xüsusilə müharibə cinayətlərinin mahiyyətini açdı, ölkəmizin haqlı mövqeyini konkret faktlarla dünya ictimaiyyətinə çatdırdı. Həmçinin bu müsahibələr informasiya məkanında da düşmənin yalan üzərində qurulmuş təbliğat maşınına ağır zərbə vurdu və Ermənistanın təcavüzkar siyasətinin, eləcə də onun himayədarlarının ifşa olunması ilə nəticələndi.

Qeyd etmək lazımdır ki, Azərbaycanın milli maraqlarını daim uca tutan Prezident İlham Əliyevin prinsipial mövqeyi hərb, diplomatiya meydanında olduğu kimi, informasiya savaşında da uğurlarımızı şərtləndirdi və tarixi Qələbəmizin əsasını qoydu. Dövlətimizin başçısının vurğuladığı kimi, biz döyüş meydanında da, informasiya məkanında da, siyasi müstəvidə də Qələbə qazandıq.

Ölkə rəhbəri bildirdi ki, Azərbaycanın apardığı hərbi əməliyyatlar beynəlxalq hüququn prinsiplərinə tam uyğundur, çünki BMT Təhlükəsizlik Şurasının qətnamələri Azərbaycanın ərazi bütövlüyünün bərpasını tələb edir. Prezident həmçinin vurğuladı ki, Azərbaycan mülki əhaliyə deyil, yalnız legitim hərbi hədəflərə zərbə endirir. Bu, Ermənistanın məqsədyönlü şəkildə mülki obyektləri atəşə tutduğu bir vaxtda çox mühüm mesaj idi və dünya ictimaiyyətinə açıq həqiqət kimi çatdırılırdı.

Belə bir məqamı da xatırladaq ki, Vətən müharibəsi günlərində Azərbaycan Ordusunun işğalçının hərbi təxribatlarına cavab olaraq Qarabağda əks-hücuma keçməsi və döyüşlərin başlaması ilə bağlı qlobal informasiya məkanında virtual müharibə daha da genişləndi. Terrorçu dövlət bütün sosial şəbəkələrdə, forumlarda, media orqanlarında dezinformasiya və əks-təbliğat kampaniyasını daha da gücləndirdi. Yaydıqları məlumatların demək olar ki, hamısı saxta, yalan və qərəzli idi. Erməni tərəfi müxtəlif yalan məlumatlar vasitəsilə çaşqınlıq yaratmağa çalışırdı.

Ermənilər döyüşlərin ilk günlərindən iddia edirdilər ki, guya Azərbaycan Qarabağ cəbhəsinə İraqdan və Suriyadan cihadçı dəstələr gətirib. Ermənistan xaricdəki havadarları ilə birgə bu cür həmlələrlə münbit informasiya mühiti yaradıb dünya ictimaiyyətini çaşdırmağa cəhd edirdi. Prezident İlham Əliyev xarici TV-lərə müsahibəsində isə bu ittihama qısa, lakonik cavab verirdi: Azərbaycan əhalisinin 10 milyon nəfər, Ermənistan əhalisinin isə 2 milyon nəfərdən bir az artıq olduğunu nəzərə alsaq, o zaman bizim yox, düşmənin kənardan silahlı dəstələr cəlb etməyə ehtiyac duyduğu aydın olar.

***V.BİNYATOĞLU***
***XQ***



**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Vətən müharibəsi 30 illik işğala son qoyan şanlı Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.**

## Vətən müharibəsinin xronikası

### 15 oktyabr

• Prezident İlham Əliyev özünün rəsmi “Twitter” səhifəsində rəşadətli Azərbaycan Ordusunun Füzulinin Arış, Cəbrayılın Doşulu, Xocavəndin Edişə, Düdükçü, Edilli, Çiraquz kəndlərini işğaldan azad etməsi ilə bağlı paylaşım edib.

• Dövlətimizin başçısı Türkiyənin NTV televiziya kanalına müsahibə verib.



• Prezident İlham Əliyev Rusiyanın Ria Novosti agentliyi üçün “Rossiya Seqodnya Beynəlxalq İnformasiya Agentliyi” media qrupunun baş direktoru Dmitri Kiselyova müsahibə verib.

• Baş Prokurorluğun mətbuat xidmətindən bildirilib ki, Ermənistanın silahlı qüvvələri oktyabrın 10-da saat 12:00-dan etibarən elan olunmuş humanitar atəşkəs rejiminin tələblərini, o cümlədən 1949-cu il tarixli Cenevrə Konvensiyalarının əsas norma və prinsiplərini kobud şəkildə pozmaqla dinc mülki əhalimizə qarşı cinayət əməllərini törətməkdə davam edir.

Qeyd edilib ki, işğalçı tərəfindən Tərtər şəhər qəbiristanlığının dəfn mərasimi zamanı qəsdən ağır artilleriyadan intensiv atəşə tutulması nəticəsində 3 nəfər həlak olub, 5 nəfər xəsarət alıb. Beləliklə, düşmənin mülki əhalini atəşə tutması nəticəsində həlak olanların sayı 46-ya, xəsarət alanların sayı 223-ə çatıb.



• Birinci vitse-prezident Mehriban xanım Əliyeva rəsmi “Instagram” hesabında Ermənistan ordusunun Tərtər qəbiristanlığını dəfn mərasimi zamanı qəsdən atəşə tutması ilə bağlı paylaşım edib. Mehriban Əliyeva dünya ictimaiyyətini Ermənistanın müharibə cinayətlərini qınamağa çağırıb, həlak olanların ailələrinə və doğmalarına başsağlığı verib.

• Müdafiə Nazirliyindən bildirilib ki, oktyabrın 14-dən 15-nə keçən gecə cəbhənin Ağdərə–Ağdam və Füzuli–Hadrut–Cəbrayıl istiqamətlərində əvvəlki günlərdə olduğu kimi, vəziyyət gərgin olaraq qalıb.



Ermənistan silahlı qüvvələrinin bölmələri gecə ərzində cəbhənin bəzi istiqamətlərində Azərbaycan Ordusunun mövqelərinə basqın etməyə cəhd göstərib. Qoşunlarımız tərəfindən həyata keçirilən uğurlu tədbirlər nəticəsində qarşı tərəf ciddi itki verib və cəbhənin müxtəlif istiqamətlərində geri çəkilməyə məcbur edilib.

Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 1 ədəd “Tor-M2KM” zenit raket kompleksi, 4 ədəd BM-21 “Qrad” YARS, 1 ədəd D-20, 1 ədəd D-30 və 2 ədəd “D-1” haubitsa topu, bir neçə PUA-sı və avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Əldə olunan məlumata əsasən, Ermənistan silahlı qüvvələrinin müvəqqəti işğal etdiyi ərazilərdəki qüvvə və ehtiyatlarına ağır zərbə vurulub. Canlı qüvvə, döyüş texnikası, silah-sursat, yanacaq tükənmək üzrədir. Humanitar atəşkəs rejiminə əməl edən qoşunlarımız bütün cəbhəboyu əməliyyat üstünlüyünü saxlayır.

***Mustafa KAMAL***
***XQ***

*Vətən Müharibəsi qəhrəmanları*

# Gözəgörünməz xüsusi təyinatlı

**Xüsusi təyinatlı zabit Anar Əliyev hələ 2018-ci ildə Şərur rayonunun Günnüt kəndi uğrunda əks-hücum əməliyyatında iştirak edərək həmin məntəqənin düşməndən alınmasında fərqlənmiş, "Şücaətə görə" medalına layiq görülmüşdü. İkinci Qarabağ savaşında isə o, Zəngilan, Cəbrayıl, Füzuli və Xocavəndin azadlığı uğrunda döyüşlərdə mətinlik nümunəsi göstərdi və oktyabrın 21-də Tuğ kəndi istiqamətində gedən döyüşlərdə canını Vətənə qurban verdi.**



Kəlbəcərin Boyaqlı kəndində anadan olmuş Anar oraların ilk sakinlərindən sayılan Kalvavəllər nəslinin davamçılarından idi. Valideynlərinin işi ilə əlaqədar onların ailəsi Ağdərənin Göyarx kəndinə köçmüşdü. Amma erməni hücumları səbəbindən oradan Tərtərin Bəyimsarov kəndinə, oradan isə Şəmkirə üz tutmalı oldular.

Erməni nankorluğu, köçkünlük zülmü Anarın da qəlbində silinməz izlər buraxdığı üçün o, 9-cu sinfi bitirən kimi hərbçi olmaq arzusu ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil oldu. Daha sonra Bakı Ali Birləşmiş Komandirlər Məktəbində oxudu, 2001-ci ildə ali hərbi məktəbi "Qoşun kəşfiyyatı" ixtisası üzrə bitirdi.

Məqamı yetişincə isə Silahlı Qüvvələrin Hərbi Akademiyasında təhsilini davam etdirdi.

Hərbi xidmətinin Naxçıvan dövründə vaxtından əvvəl polkovnik–leytenant rütbəsi alan Anar Əliyev həmişə gənclərə deyirdi ki, zabitlik əsl kişi işidir. Burada "gün keçirmək" deyilən şey yoxdur. Əgər çölçülüyə, bitmək bilməyən çətin sınaqlara gücünüz, təpəriniz, dözümünüz çatacaqsa, bu sahəyə gəlin. Özünün şəxsi nümunəsi ilə hər kəsdə hərbi işə sevgi və inam yaradırdı. Uğurla vəzifə pillələri üzrə yüksəlirdi. Türkiyə, Macarıstan, Çexiya, Rumıniya, Sloveniya, İordaniya və Pakistanda kurslarda, təlimlərdə, təcrübə mübadilələrində bacarığını göstərmişdi.

Yüksək peşəkarlığına görə Anar Əliyevə hərbi hissənin qərargah rəisi, komandiri vəzifələri etibar olunmuş, USTA dərəcəsi ilə dəyərləndirilmişdi...

Vətən müharibəsi başlanandan 13 gün sonra nəhayət, Naxçıvan Əlahiddə Ümumqoşun Ordu Komandanından Qarabağa göndərilmək barədə təkidli müraciətinə müsbət cavab alan polkovnik-leytenant Anar Əliyev ona hər qarışı canından da əziz olan torpaqlarımız uğrunda ölüm-dirim savaşına qatılıb. İlk qələbə sevincini 10 günlük döyüşlərin nəticəsində Hadrut alınanda yaşayıb. Sonra çoxsaylı kəndlərin azad olunmasında əlindən gələni edib. Oktyabrın 17-də Füzuli alınanda cəsur komandirin fərəhdən uçmağa qanadı olmayıb. Ardınca Zəngilan şəhərinin alınması barədə şəxsən Ali Baş Komandana məruzə edənlərdən olub.

Oktyabrın 21-i Anar Əliyevin son döyüş günü oldu. Onun komandirlik etdiyi heyət həmin gün Füzulinin Gecəgözü, Aşağı Seyidəhmədli, Zərgər kəndlərini azad etdi. Ardınca tapşırıq gəldi ki, Azərbaycan Ordusunun Şuşaya daxil olmasında böyük rol oynayacaq strateji yüksəkliklər, xüsusilə, "772 metr" yüksəkliyi, Xocavəndin Tuğ kəndi nəyin bahasına olursa-olsun, azad edilməlidir. O, dərhal önə çıxaraq, döyüşçülərinə "İrəli!" əmri verdi. Silahdaşlarının dediyinə görə, qəfildən öncə qolundan, sonra gözündən vuruldu. Ona ilk yardım edən tibb xidməti leytenantı Adil Əfəndiyevlə birlikdə yenidən erməni hədəfinə tuş gəldi və yaxınlıqlarında əl qumbarasının partlayışı ilə hər ikisi şəhadətə yüksəldi.

Polkovnik-leytenant Anar Əliyevin nəşi bir zamanlar məcburi köçkün kimi yaşadığı Tərtərin Bəyimsərov kəndində son vida mərasimindən sonra Bakıya gətirilərək, böyük ehtiramla İkinci Fəxri xiyabanda torpağa tapşırılıb. Beləcə, ömrünü 40 yaşında şərəflə başa vuran Anar Vaqif oğlu Əliyev ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb. Gəncənin Gülüstan qəsəbəsində müvəqqəti fəaliyyət göstərən Kəlbəcər rayonu 2 nömrəli tam orta məktəbinə onun adı verilib.

Həyat yoldaşı Vüsalə Əliyevanın hərbçimiz barədə dedikləri:

- Fəxr edirəm ki, ən çətin yüksəkliklərin azad olunmasına Anar özü öndə gedərək rəhbərlik edib. Son nəfəsində belə döyüşçülərinə tapşırıq verib ki, yüksəkliyi düşmənə verməyin. Qəlbində Vətənə böyük sevgisi olan zabit idi. Mən, onun ailəsi qohumları, xidmət yoldaşları, dostları onunla qürur duyuruq. Bu gün kimlərsə övladları üçün bahalı maşın, pullar, ev qoyub gedir. Amma Anar öz övladlarına, hətta gələcək nəslinə milyonlarla pulun ala bilməyəcəyi, bitməyən sərvət – qəhrəmanlıq adı qoyub gedib. Odur ki, hər zaman başımız ucadır.

***Əli NƏCƏFXANLI***
***XQ***



# İgid kəşfiyyatçının son arzusu

**Onun adını eşidəndə İkinci Dünya müharibəsinin qəhrəmanı, leytenant rütbəli şahin Hüseynbala Əliyevi xatırladım. Hüseynbala Leninqrad göylərində yaralı halda cövlan edib, düşmənin 2 "Yunkers"ini vuraraq öz təyyarəsini salamat yerə endirib və yalnız bundan sonra ölümə can verib. Haqqında söhbət açmaq istədiyim sərhədçi baş gizir Şahin Hüseynbala oğlu Allahyarov isə İkinci Qarabağ müharibəsində Şuşa yürüşü zamanı mərdlik göstərərək, ruhunu göylərə ərməğan edib.**



Əsgərlikdən sonra Sərhəd Qoşunlarının tərkibində müddətdən artıq hərbi xidmət qulluqçuluğuna qəbul edilən Şahin əvvəlcə Zaqatala Sərhəd Dəstəsində müxtəlif vəzifələrdə, 2019-cu ildən isə Qazax Əlahiddə Sərhəd Diviziyasında kəşfiyyatçı kimi Vətənin xidmətində dayanıb. İkinci Qarabağ savaşı başlananda baş gizir olan igid hərbçi işğal altında olan ərazilərin azad edilməsi uğrunda mübarizəyə atılıb. Füzuli, Cəbrayıl, Xocavənd və Şuşa istiqamətində döyüşlərdə qəhrəmanlıq göstərib.

Şahin Allahyarov döyüşlərdə düşmənin xeyli sayda canlı qüvvəsini məhv edib, Hadrut qəsəbəsinin azad olunmasında xüsusilə fərqlənib. Oktyabr ayının 20-də baş gizir kəşfiyyatçı yoldaşları ilə birlikdə düşmən arxasına sızıb, Zoğalbulaq, Azıx, Böyük Tağlar, Tuğ, Ağdam, Düdükcü kəndlərinin alınmasında, azad olunmuş yaşayış məntəqələrinin və ətraf ərazilərin düşməndən təmizlənməsində rəşadət göstərib. Noyabrın 1-də şəhidlik məqamına ucalıb və ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb.

Son döyüşünə getməzdən əvvəl çəkdirib evə göndərdiyi videokadrlarda dediyi sözlər həm qüssə, həm də qürur doğurur. Şahin həmin videoda deyir ki, 30 ildir gözləyirik. Qələbə mütləq qazanılmalıdır. Mənə nəsə olsa, heç vaxt ağlamayın. Bax, heç bir vaxt! İmkan verin, rahat yatım. Oldumu? Bir də son xahişim: mənə nəsə olsa, oğluma mənim adımı qoyarsınız. Bir də uşaqlara deyərsiz ki, atanız sizi çox istəyirdi. Canından keçəcək qədər çox... İnşallah, bəlkə heç nə olmayacaq, alnıaçıq, üzüağ qayıdacağam. Yox, qayıtmasam, elə uşaqların, gələcək nəsillərin rahat yaşaması naminə getdiyimi bilin. Anam, atam, başınızı dik saxlayın. Hər zaman mənimlə fəxr etmənizi istəmişəm".
– Gərək daşürəkli olasan ki, bu sözləri sakitcə dinləyə biləsən...

Şəhidin anası Nərgiz xanımın dedikləri: "O gecə sonbeşiyim Şahin qırmızı tünd kostyumda yuxuma girmişdi. Tez-tez gah mənə, gah da ayağına baxır, amma nə irəli gəlir, nə də geri gedirdi. Özü də heç nə demirdi. Ayılanda gördüm camaat yığışıb bizim məhəlləyə, qardaşım da gəlib. Soruşdum, nə olub? Dedi, bəs Şahin şəhid olub... Balam demişdi ki, şəhid olacam, sən də fəxr edəcəksən. Arzusuna çatdı Şahinim... Onun 2 balası yadigar qalıb. Şəhadətə qovuşanda qızı Oksana 2 yaşında idi. Oğlunun isə üzünü görməyib, çünki onun ölümündən sonra, dekabrda anadan olub. Özünün son videosunda vəsiyyətinə görə, oğlunun adını Şahin qoymuşuq".

Onun ailəsinə son müraciəti də, qan rəngli kostyumda anasının yuxusuna girməsi də "əlvida" işarəsi imiş. 28 il namusla, qeyrətlə yaşadığını, ölümdən zərrəcə qorxmadığını deyib sağollaşması da xarakter cizgilərinin ifadəsi idi. Bu, həm də Şahinin güclü idmançı olması ilə izah oluna bilər. Çünki o, İkinci Qarabağ savaşında şəhid olan 55 idmançıdan biridir. "Kyokuşin karate" ilə məşğul olmuşdu. Bu idman növünün adının mənası "mütləq həqiqət"dir, tam təmaslı aqressiv döyüşə əsaslanır. Kyokuşinçilər eyni vaxtda bir neçə rəqibə qarşı durmağı bacaranlardır. Daha güclü, daha inamlı olanlar qalib gəlirlər. Şahin də belələrindən idi. Yarışlarda da dəfələrlə qalib gəlmişdi, müharibədə də bu idman növünü bilməsi ən çətin məqamlarda dadına çatırdı.

Quba rayonu İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq–Gənclər İdman–Şahmat Məktəbinə və eyni zamanda küçələrin birinə Vətən Müharibəsi Qəhrəmanı Şahin Allahyarovun adı verilib. Kəndlərində bulaq-abidə kompleksi tikilib, Şamaxıda yerləşən məktəblərdə adına sinif otaqları var.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında fərqlənmiş qəhrəman kəşfiyyatçı Şahin Allahyarov "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

***Ə.DOSTƏLİ***
***XQ***

# "Rəşadət" ordenli şəhid mayor



**Vətən var olduqca şəhidlər nəsillərin ürəyində, qürurunda, qalib ölkənin adında əbədi yaşayacaqlar. Onların tanıdılması günümüzün böyük əhəmiyyət kəsb edən məsələlərindən biridir. Belə igidlərdən biri də şəhid mayor Rüfət Mürvət oğlu Əsgərovdur.**

Rüfət 1981-ci il dekabrın 1-də Qubadlı rayonunun Aşağı Mollu kəndində doğulub. 1993-cü ildə bədxah və nankor düşmənin Qubadlını işğal etməsi nəticəsində el-oba doğma yurdlarından didərgin düşəndə yeniyetmə Rüfətin necə deyərlər, dişi bağırsağını kəsirdi. Tam əminik ki, elə bu səbəbdən də o, 1996–1999-cu illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil aldı. Daha sonra hərbi biliklərini möhkəmləndirmək, həyat yolunu peşəkar hərbçi kimi davam etdirmək, vaxtı çatanda düşməndən qisas almaq üçün Heydər Əliyev adına Ali Hərbi Məktəbdə oxudu.

Ali təhsilini uğurla başa vuran Rüfət leytenant hərbi rütbəsi ilə Beyləqandakı hərbi hissədə qulluğa başlayıb. Sonra Ağcabədidə, Gəncədə və Tovuzda şərəfli işini davam etdirib. 2014-cü ildə Rüfət Əsgərova nümunəvi xidmətinə görə mayor rütbəsi verilib. Həmin ildən Heydər Əliyev adına Hərbi Məktəbdə Kəşfiyyat kafedrasının baş müəllimi kimi gənc hərbçilərə hərbin sirlərini öyrətməyə başlayıb.

Rüfətin döyüş yolu Xüsusi Təyinatlı Qüvvələrdən keçib. 2020-ci il sentyabrın 27-də torpaqlarımızın azad edilməsi uğrunda başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azad edilməsi uğrunda, həmçinin Ağdərə istiqamətində gedən döyüşlərdə Ermənistan Silahlı Qüvvələrinin 24-dən çox hərbçisini məhv edib, bir gün ərzində döyüş dostları ilə birgə 3 strateji postun Azərbaycan Ordusunun nəzarəti altına alınmasında xüsusi igidlik göstərib. Kəşfiyyatçı Rüfət Əsgərov düşmənin kabusuna çevrilən qəhrəmanlardan olub. Bu şeiri sanki onun üçün yazmışdım:

***Hər qələbə düşmənə dərs,***
***Hər qələbə salacaq səs.***
***Qoyma, düşmən alsın nəfəs,***
***Yor, qoluna qurban olum!***
***Vur əsgərim!***
***Vur, qoluna qurban olum!***

Yeri gəlmişkən, şair Rəfiqə İsaqqızının müəllifi olduğu "Zülmətdən doğan Günəş" kitabı şəhid mayor Rüfət Əsgərovun əziz xatirəsinə həsr olunub.

Zəngin və şərəfli döyüş yolu keçmiş Rüfət Əsgərov 2020-ci il oktyabrın 14-də torpaqlarımızın azad edilməsi uğrunda döyüşlərdə Ağdərə şəhəri istiqamətində, Tərtər rayonunun Ballıca kəndi ərazisində, qəhrəmanlıqla vuruşaraq, xüsusi tapşırığı yerinə yetirərkən düşmən gülləsinə tuş gəlib, şəhidlik kimi ali məqama yüksəlib. Bakıda, İkinci Fəxri xiyabanda dəfn olunub. Layiq görüldüyü "Rəşadət" ordeni, "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Suqovuşanın azad olunmasına görə" medalları onun igidliyinin parlaq nişanəsidir.

Atası Mürvət müəllimin dediklərindən: "Silahdaşlarından eşitmişəm ki, o, həmişə əsgərlərdən qabaqda gedirdi. Liderlik xüsusiyyəti vardı. Son dəfə düşmənin arxasına keçərək, 3 postu alıb, bu barədə 3-cü postdan məruzə edəndə vurulub. Meyiti 3 gün orada qalıb. Dostları tapşırıqla yox, öz təşəbbüsləri ilə onun nəşini döyüş meydanından götürüblər. Elə bunun özü Rüfətin necə hörmət və nüfuz qazanmış olduğunu göstərir".

Şəhidin oğlu Xansuvar deyir ki, o, bu həyatda təkcə atasını yox, həm də ən yaxın dostunu, sirdaşını itirib: "Atamla həmişə fəxr etmişəm. Cəbhədə başqa, ailədə tam başqa idi, bizimlə nəfəs alırdı. Hərbçi övladı olmaq böyük məsuliyyət, üstəlik şəhid övladı olmaq böyük qürurdur. Axırıncı görüşümüzdə məndən halallıq istədi, ailəni sənə əmanət edirəm, – dedi. Atamın ruhunu hər zaman şad etməyə çalışıram".

***Güllü Eldar TOMARLI,***
***Mirvarid Dilbazi Poeziya Məclisi İctimai Birliyinin sədri, şair-publisist***

# Anasının ölüm tarixində şəhid olan oğul

**Doğru deyiblər ki, Vətən torpağı şəhid vermədən azad olunmaz. Şəhidlər bir ailənin, kəndin və qəsəbənin deyil, bütün Azərbaycanın övladlarıdır. Onların məzarları hər birimizin and yeridir.**




Şəhid Natiq Əhmədov kimi qorxmaz, vətənsevər oğullar mərdliklə döyüşdülər, meydanda hünər göstərib erməni işğalçılarını torpaqlarımızdan qovdular. Onlar Vətən torpaqlarının bütövlüyü, xalqımızın xoşbəxt, firavan gələcəyi naminə canlarından keçdilər. Qəhrəman oğulların adları, xatirələri yüz illər keçsə də, xalqımızın yaddaşında yaşayacaq.

Vətən müharibəsində qəhrəmancasına şəhid olan Natiq 1997-ci il mart ayının 9-da Bakı şəhəri Xəzər rayonunun Binə qəsəbəsində dünyaya göz açıb. Üç bacının tək qardaşı kimi böyümək məsuliyyətini artırmaqla yanaşı, onu daha da gücləndirmişdi. Bacılarının hər cür qayğısına qalmağı uşaqlıqdan qardaş borcu bilən Natiq dar günündə Vətənə oğulluq borcuna da sadiq qaldı.

2020-ci il sentyabrın 29-da könüllü olaraq Vətən müharibəsinə qoşulur. Gedərkən yalnız bacılarına xəbər verir, atasına isə bu barədə heç nə bildirmir. Lakin Natiqin atası Namiq həkim "Təcili yardım"da işlədiyindən, əsgər gedənlərin tibbi müayinəsi ona da həvalə olunubmuş. Namiq həkim əsgərlərin arasında oğlunu təsadüfən görür. Bundan heç də təəccüblənmir. Çünki uşaq vaxtlarından onu vətənpərvər böyütmüşdü. Namiq həkim o anları belə xatırlayır: "Həmin gün xəstəxanada növbətçi idim. Gecə saat 1-də Natiqi yoldaşları ilə birgə döyüşə özüm yola saldım. Sonra cəbhədən tez-tez zəng edirdi. "Ata, salamatlıqdır, irəliləyirik. Hər şey yaxşı olacaq, erməniləri torpaqlarımızdan qovacağıq", – deyirdi. Oktyabrın 11-i sübh tezdən mənə zəng etdi ki, Hadrut istiqamətində hücuma keçirik. Orada ola bilər ki, əlaqə saxlaya bilməyim. Ağır döyüşlər gedir, haqqını halal elə. Amma narahat olma, sən mənimlə həmişə fəxr edəcəksən".

Natiq Əhmədov elə oktyabrın 11-də Hadrut döyüşləri zamanı şəhid olur. Uşaq yaşlarında anasını itirən Natiqin şəhadəti anasının vəfatı gününə təsadüf edir. O, oktyabrın 13-də dəfn edilir. Məzarı Binə Şəhidlər xiyabanındadır.

Hüseyn Qurbanov Natiqin döyüş yoldaşı olub. Müharibə zamanı birgə addımlayıblar. Çalışdıqları qədər bir-birini düşmən gülləsindən qoruyublar. Müharibənin qələbə ilə başa çatmasını səbirsizliklə gözləyiblər. Hər ikisinin həyatda böyük arzuları olub.

Hüseynin yaddaşına Natiqin şəhid olma anı ömürlük həkk olub. O günü belə xatırlayır: "Hadrut istiqamətinə dağa qalxıb hücuma keçəndə, ermənilər bizi artilleriya zərbəsinə tutdu. Axırıncı top mərmisi Natiqin yanına düşdü. Mən gəlib Natiqə çatanda çoxlu qan itirmişdi, heç cür kömək edə bilmədim. Başını qollarımın arasına aldım, dil-dodağını islatdım, astaca silkələdim ki, danış mənimlə! Beş-altı saniyə üzümə baxdı, bircə kəlmə dedi: "Anamın yanına gedirəm". Mən bölüyə çatanda komandirin ilk sualı bu oldu ki, "Natiq haradadır?". Dedim, Natiq artıq yoxdur, dizlərimi yerə qoyub hönkürərək ağladım...".

Döyüş yoldaşı onun qolundakı qanlı saatını və şəhid olduğu yerin torpağını yadigar olaraq götürür, qisasını alacağına söz verir və yaralandığı günə qədər Natiqin silahı ilə döyüşür.

Natiq komandiri olan Eldar Bəhramlı üçün çox əziz əsgər olub. Eldar kövrək xatirələrini belə dilə gətirir: "Qısa müddətdə onun necə qorxmaz bir igid olduğunu gördüm. İnana bilməzdim ki, onu itirəcəyəm. Bölüklə Hadruta girəndə şəxsi heyətə baxdım, uşaqların çoxu yox idi. Mənim gözüm Natiqi axtarırdı... İki-üç gün görmədiyim əsgəri sonra yenidən görəndə, elə bil dünyanı sənə verirdilər. Öz-özümə fikirləşdim ki, Natiq haradadırsa, gəlib çıxacaq. Onun ölümü mənə çox təsir etdi".

Prezident İlham Əliyevin sərəncamları ilə çavuş Natiq Namiq oğlu Əhmədov ölümündən sonra "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub. Vətən üçün canından, qanından keçən Natiqin yaxınları üçün ən böyük təsəlli odur ki, şəhidlərimizin qanı yerdə qalmayıb.

***Müşfiq MİRZƏ***
***XQ***

*Tanıyaq və tanıdaq*

**İnsan həyatı onun taleyinin aynasıdır. Bu aynada hər bir şəxsin kimliyi, mənəvi dünyası və həyata münasibəti dolğun şəkildə əks olunur. Ömrün dəyəri isə cəmiyyətin inkişafına verdiyi töhfələrlə ölçülür. Bu cür düşüncə ilə yaşayan özünü həyatda təsdiq etmək, nüfuz qazanmaq üçün rəhbər vəzifə tutmağa can atmır, sevdiyi peşəyə ürəkdən bağlanır, əməyi ilə cəmiyyətə fayda vermək istəyini hər şeydən üstün tutur, işinə məsuliyyətlə yanaşır.**

# Yeni binalara həyat verən peşəkar inşaatçı-layihəçi



Belə halda izi daim görünür, diqqət çəkir. "Azərdövlətsənayelayihə" Dövlət Layihə İnstitutunun layihə üzrə baş mühəndisi Güloğlan Feyzullayev də belə insanlardandır – zəhməti, bilik və təcrübəsi ilə adını mühəndislik tariximizə yazdıran bir peşəkardır. Məhz bu mənada ömrünü xalqa xidmətə həsr etmiş, yaratdıqları ilə həyatda dərin iz qoymuş layihəçi-mühəndis Güloğlan Feyzullayevin 70 illik həyat yolu örnək bir ömür salnaməsidir. Onun ömrü zəhmətin, peşəkarlığın və Vətənə sədaqətin parlaq nümunəsidir. Bu gün Güloğlan müəllimin adı gerçəkləşdirdiyi çoxsaylı layihələrdə, tikilən bina – əsərlərdə, yetişdirdiyi nəsildə yaşayır.

1955-ci il dekabrın 11-də Bakı şəhərində anadan olan G.Feyzullayev gənc yaşlarından tikinti və memarlığa böyük maraq göstərib. 1975-ci ildə Azərbaycan Politexnik İnstitutunun mülki və sənaye tikintisi fakültəsinə daxil olub, 1980-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu tikinti mühəndisi ixtisası üzrə bitirib.

Əmək fəaliyyətinə texniki yoxlama mühəndisi kimi başlayan Güloğlan müəllim 1980-1982-ci illərdə hərbi xidmətdə olub. Daha sonra "Azərdənizneftinşaat" trestində istehsalat şöbəsinin mühəndisi, eləcə də əsaslı tikinti idarəsində böyük mühəndis kimi çalışaraq peşəkar təcrübəsini daha da zənginləşdirib.

Onun həyat yolu 1989-cu ildən bu günə qədər "Azərdövlətsənayelayihə" Dövlət Layihə İnstitutu ilə sıx bağlıdır. Güloğlan müəllim bu institutda fəaliyyətə 2 nömrəli memarlıq-inşaat şöbəsində böyük mühəndis kimi başlayıb, qısa zamanda yüksək peşəkarlığı və məsuliyyət hissi ilə fərqlənərək smeta və tikintinin təşkili şöbəsinə dəvət olunub. 1992-ci ildən etibarən isə institutun layihə üzrə baş mühəndisi vəzifəsini daşıyır.

Güloğlan Feyzullayevin ötən illər ərzində rəhbərlik etdiyi layihələr təkcə paytaxtı deyil, Azərbaycanın bütün bölgələrini əhatə edib. Onun rəhbərliyi ilə həyata keçirilən sənaye, mülki, hərbi, səhiyyə və təhsil infrastrukturu layihələri bu gün də ölkənin inkişafına xidmət edir. Xüsusilə, respublika aviasiya infrastrukturunun yenidən qurulması istiqamətindəki önəmli rolu danılmazdır. Naxçıvan, Gəncə, Lənkəran və Qəbələ beynəlxalq hava limanlarının, eləcə də Zaqatala aeroportunun tikilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması onun rəhbərliyi ilə gerçəkləşib. Bakı Beynəlxalq Hava Limanında yeni aerovağzal kompleksinin köməkçi infrastrukturlarının yenidən qurulması, "BOEING-767" tipli təyyarələr və müasir helikopterlər üçün anqar kompleksləri, karqo terminalı, inzibati binalar və Zabrat hava limanının yenidən tikintisi də Güloğlan müəllimin rəhbərlik etdiyi layihələr sırasında yer alır.

Kənd təsərrüfatı və aqrar-sənaye sektorunun modernləşdirilməsində də Güloğlan müəllimin əməyi az deyil. Respublikanın 25 rayonunda "Aqrolizinq" komplekslərinin layihələndirilməsi və müəllif nəzarəti altında inşası onun peşəkar mühəndislik dəst-xəttini daşıyır.

İnşaatçı – layihəçinin Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu və Azərbaycan Respublikası Ərazilərinin Bərpası Agentliyinin sifarişi ilə Füzuli, Ağcabədi və Goranboy rayonlarında qaçqın və məcburi köçkün ailələri üçün salınan yaşayış qəsəbələrinin bütün infrastruktur layihələrinin həyata keçirilməsində də birbaşa iştirak edib. Yeri gəlmişkən, Fövqəladə Hallar Nazirliyinin sifarişləri əsasında Sumqayıt, Qəbələ, Salyan, Lənkəran və Ağdamda regional mərkəzlər, eləcə də respublikanın müxtəlif bölgələrində yanğınsöndürmə depo kompleksləri, hərbi hissələr və Hövsan qəsəbəsində 1500 müdavimlik akademiyanın layihələndirilməsi işlərinə də rəhbərlik etməklə tikinti prosesinin fəal iştirakçısı kimi fərqlənib.

Güloğlan müəllim Müdafiə Nazirliyinin "Qara Heybət" hərbi hissəsinin kompleks yenidən qurulması, Dövlət Sərhəd Xidmətinin Göytəpə, Lənkəran, Şəmkir və Xudat sərhəd dəstələri məntəqələrinin müasir tələblərə uyğun layihə-smeta sənədlərinin hazırlanmasına da rəhbərlik edib.

O, yuxarıda sadalananlardan əlavə, Oğuz rayonunda Olimpiya İdman Kompleksi, İdman və Sağlamlıq Mərkəzi, 4 mərtəbəli hotel binası, Yevlax şəhərində "AFRA TEKSTİL" kompleksi, Milli Bankın filialı, eləcə də paytaxtımızda bir sıra hündürmərtəbəli yaşayış binaları, Nobel prospektində "Xəzər TV" kompleksi, Xətai rayonunda "Ortopedik Bərpa Mərkəzi" xəstəxanası və digər iri və kiçik miqyaslı obyektlər üzrə layihələrdə, eləcə də onların əsasında həyata keçirilən tikinti prosesində layihənin baş mühəndisi kimi gərgin əmək sərf edib.

Təkcə iri layihələrdə deyil, təbii fəlakətlər zamanı da G.Feyzullayev ön sıralarda olub. Zəlzələ, yanğın, sel və güclü küləklər nəticəsində zərər çəkən ərazilərdə aparılan bərpa işlərində onun bilik və təcrübəsi dəfələrlə yüksək qiymətləndirilib.

Yuxarıda vurğuladığımız kimi, Güloğlan müəllim çoxsaylı bina və tikililərin layihə-smeta sənədlərinin hazırlanması ilə yanaşı, onların inşa edilməsində də bilavasitə iştirak edib, tikinti-quruculuq prosesinə nəzarəti yüksək peşəkarlıqla həyata keçirib. Yaradıcı inşaatçı-layihəçi kimi tanınan G.Feyzullayev sadəliyi, zəhmətsevərliyi ilə də hər zaman başqalarına nümunə olub. Hər işdə peşəkarlığı və məsuliyyəti əsas tutan bu insan çalışqanlığı və səmimiliyi ilə ətrafdakıların rəğbətini qazanıb, üzərinə düşən vəzifənin öhdəsindən bacarıqla gəlib. Mürəkkəb vəziyyətlərdə soyuqqanlı qərarlar qəbul etmək bacarığı, peşəsinə sədaqəti və məsuliyyət hissi ona həm rəhbərlik, həm də həmkarlar arasında böyük etimad qazandırıb.

Bu gün Güloğlan Feyzullayevin adı sadəcə bir mühəndisin deyil, həm də peşəsinə sədaqətin, vətəninə xidmətin rəmzinə çevrilib. O, rəhbər kürsüsündə oturmasa da, gördüyü işlərlə Azərbaycanın inşaat tarixində özünə layiqli yer qazanıb.

***Vaqif BAYRAMOV***
***XQ***

*Təhlükəsiz həyat*

# "Gözəgörünməz qatillər"in pəncəsinə keçməyək



**İlboyu sosial şəbəkələrdə müxtəlif acı xəbərlərə rast gəlirik: "Dənizdə iki nəfər boğuldu. Dəm qazı yenə can aldı. "Gözəgörünməz qatil" bu gecə bir ailəyə faciə yaşatdı".**

Sözsüz ki, həyatını itirənlərə təəssüf hissi keçiririk. Narahatlıq doğuran haldır ki, hər il dəm qazından zəhərlənmələrin və bunun nəticəsində ölüm hadisələrinin sayı artmaqdadır. Bu bəla artıq adi hala çevrilib. Statistikaya görə, ötən il Azərbaycanda 424 dəm qazı hadisəsi qeydə alınıb, bu zaman 483 nəfər zəhərlənib və 44 nəfər həyatını itirib. 2025-ci ilin ilk üç ayı ərzində isə 33 nəfər dəm qazından zəhərlənib. Bu il oktyabr ayının 9-da dəm qazından ilk ölüm qeydə alınıb. Belə ki, Xaçmaz rayonu Qıraqlı kənd tam orta ümumtəhsil məktəbinin İnformatika müəllimi Mehriban Qafarlı gənc yaşlarında dünyasını dəyişməsinə səbəb dəm qazından zəhərlənməsi olub.

İstiliyə tələbatın artdığı bu mövsümdə qaz cihazlarından istifadə zamanı təhlükəsizlik qaydalarına əməl edilməməsi sonda acı nəticələrə səbəb ola bilər. Payız-qış mövsümündə təbii qazın istifadəsinə tələbat xeyli artır. Havaların soyuması dəm qazı "tor"una düşənlərin də çoxalmasına səbəb olur. Təəssüf ki, hər il eyni xəbərdarlıqlar edilməsinə və tövsiyələr verilməsinə baxmayaraq, faciəvi hallar təkrarlanır.

Qazdan zəhərlənmə və boğulma hallarını yaradan səbəblərdən biri də bu prosesdə əhalinin özbaşına müdaxiləsidir. Belə ki, əhali kustar üsulla hazırlanan, standartlara cavab verməyən sobalardan istifadə edir. Bu da sonda xoşagəlməz hadisələr və faciələrlə nəticələnir.

Bakı küləklər şəhəri olduğundan sobaların mənzildən xaric olan borusu küləyə qarşı olarsa və bu boru qorunmazsa, o zaman həmin boru küləyin təsirindən tüstünü və dəm qazını içəri vurur. Bu da sonda həmin xoşagəlməz hadisələrlə nəticələnir.

Mütəxəssislərin fikrincə, dəm qazından zəhərlənmədən qorunmaq üçün payız-qış mövsümü başlanmazdan əvvəl müvafiq sahənin əməkdaşları tərəfindən sobalara baxış keçirilməli, tüstü bacalarının sazlığı və işə yararlı olması yoxlanılmalı, yalnız bundan sonra cihaz istismara buraxılmalıdır. Qazın tərkibindəki zərərli maddələr havada 3-4 dəqiqə asılı qaldıqda belə orqanizmimiz ondan təsirlənir. Bu hallarda zəhərlənmə həmin mühitdə nə qədər müddət qalmağımızdan asılı olaraq ağır və ya yüngül olur. Zəhərlənən şəxsə düzgün ilkin yardım göstərilərsə onu həyata qaytarmaq da mümkün olur. Zəhərlənən şəxsi ən birinci olduğu mühitdən uzaqlaşdırmaq, təmiz hava ilə təmas etdirmək mütləqdir. Ağız boşluğunu, nəfəs yollarını selikdən təmizləmək lazımdır və dərhal təcili tibbi yardıma müraciət etmək vacibdir. Quraşdırılan hər bir məişət qaz qızdırıcısı standarta uyğun, onların təhlükəsizlik qurğuları daim saz vəziyyətdə olmalı və istifadəsi zamanı müəyyən olunmuş təhlükəsizlik qaydalarına tam riayət edilməlidir. Mütəxəssislərin digər məsləhəti budur ki, havaçəkən sistem işləməli, nəfəslik açıq olmalıdır. Hamam otağında ventilyasiya borusu, qapının aşağısında dəliklər olmalıdır. Tüstü bacaları isə ildə iki dəfə təmizlənməlidir. Tüstü boruları binaların dam örtüyünün xarici səthindən 70 sm yüksəklikdə olmalıdır. Sobaların korpusunda və tüstü borularında çatlar olmamalı, tüstü borularının təmizlənməsi qış mövsümü başlanmazdan əvvəl həyata keçirilməlidir. Bu qaydalara əməl olunarsa, faciələrə də yol açılmaz.

Dəm qazından qorunma hər bir insanın diqqətində olmalıdır. Qaydalara əməl etməklə həyatımızın təhlükəsizliyinə diqqət yetirməliyik. Qazla ehtiyatlı davranaq ki, həyatımızdan məhrum olmayaq!

***Müşfiq MİRZƏ***
***XQ***

***Ekspert rəyi***
**Orxan MUSAYEV**



Dəm qazı, yəni karbon monoksid, bir çox insanın həyatını təhlükəyə atan, amma görünməz və qoxusuz bir qazdır. Bu qazın əsas təhlükəsi onun hiss olunmamasıdır. İnsan orqanizmi bu qazı hiss etmədiyi üçün tədricən zəhərlənir. Dəm qazının təsirinə uğrayan şəxslər başgicəllənməsi, başağrısı, halsızlıq və yuxululuq kimi şikayətlərdən əziyyət çəkə bilər. Ancaq bu əlamətlər çox vaxt adi yorğunluq və ya başqa xəstəliklərlə, ciddi zərərlərə yol aça bilər. Bu mənada, dəm qazının qarşısını almaq və təhlükəsizliyi təmin etmək üçün bir neçə vacib addım atılmalıdır. İlk növbədə, qaz qurğularının düzgün işləməsi təmin edilməlidir.

Qaz cihazları, xüsusilə qaz sobaları və suqızdırıcıları mütəmadi olaraq yoxlanılmalı, hər il peşəkar mütəxəssislər tərəfindən texniki baxımdan nəzərdən keçirilməlidir. Qışa yaxın dövrdə havalandırma sistemləri də daha çox işləyir, buna görə də qaz cihazlarının və sistemlərinin düzgün işləməsi həyati əhəmiyyət kəsb edir. Düzgün işləməyən qurğular qaz sızmasına və alovlanma problemlərinə yol açaraq ciddi təhlükələrə səbəb ola bilər. Digər bir vacib məsələ isə tüstü bacalarının təmizlənməsidir. Tüstü bacası qazların və tüstünün evdən xaric edilməsini təmin edir. Ancaq tüstü bacalarında toplanan qaz qalıqları və digər maddələr tıxanmalara səbəb ola bilər. Bacaların tıxanması, qazların və tüstünün geri qayıtmasına, nəticədə isə zəhərlənmə və yanğın riskinin artmasına yol açır. Buna görə də tüstü bacalarının hər il, xüsusilə qış mövsümünə girməzdən əvvəl təmizlənməsi lazımdır. Bacaların təmizlənməsi həmçinin enerji sərfiyyatını optimallaşdırır və cihazların daha səmərəli işləməsinə kömək edir. Bəzən də qaz sobalarının dəm qazı çıxan yerində quş yuva qurur, bundan da ev sahibləri xəbərsiz olur. Bu ilin aprelində Tərtər rayonunda evlərin birində qaz sobasının çıxışında quşun yuva qurması nəticədə bir ailənin dörd üzvü dəm qazından boğularaq dünyasını dəyişdi.

Ən önəmlisi isə evlərdə və iş yerlərində qaz detektorlarının istifadə edilməsidir. Qaz detektorları karbon monoksidin və ya tüstünün toplanmasını erkən aşkar edərək, istifadəçini xəbərdar edir. Bu sadə, amma çox təsirli vasitələr, həyatımızı qorumağa kömək edir. Detektorların quraşdırılması bu gün artıq hər kəsin təmin etməli olduğu bir təhlükəsizlik tədbiridir. Cəmiyyət olaraq, hər bir vətəndaşın bu təhlükəsizlik tədbirlərinə riayət etməsi, ailəmizi qorumaq üçün atılmalı olan ilk addımdır. Tüstü bacalarının müntəzəm təmizlənməsi, qaz qurğularının yoxlanması və detektorların istifadəsi sadə amma həyati vacib tədbirlərdir. Bu tədbirlər həyatımızı qorumağa kömək və cəmiyyətin təhlükəsizliyini təmin edəcəkdir.

Bu kimi təhlükəsizlik məsələlərinə daha çox diqqət yetirməli və bu sahədə məlumatlılıq artırılmalıdır. Bu məsələdə həm dövlətin, həm də hər bir vətəndaşın məsuliyyəti var. Cəmiyyətin hər bir üzvü bu cür təhlükələrə qarşı özünü və ailəsini qorumaq üçün lazımi tədbirlər görməlidir.

# Moped və motosiklet sürücülərinə "qayda" çağırışı

**Son dövrlərdə ölkəmizdə moped və motosikletlərlə bağlı yol-nəqliyyat hadisələrinin sayında artım müşahidə olunur. Bəzi sürücülər yollarda təhlükəsizlik qaydalarına əməl etmədən, təhlükəli manevrlər edərək özlərinin və digər hərəkət iştirakçılarının həyatını riskə atırlar.**



Baş Dövlət Yol Polisi İdarəsindən verilən məlumatda bildirilir ki, cari ilin 9 ayı ərzində bu tip nəqliyyat vasitələrinin iştirakı ilə 32 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 10 nəfər həyatını itirmiş, 26 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri almışdır. Bu göstəricilər iki təkərli nəqliyyat vasitələrinin idarə olunmasında sürücü intizamının qənaətbəxş olmadığını göstərir. Belə məsuliyyətsiz davranışlar həm də digər hərəkət iştirakçılarında motosiklet və moped sürücüləri haqqında mənfi rəy formalaşdırır.

Məhz bu kontekstdə oktyabrın 14-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclasında moped və motosiklet sürücülərinin sürücülük vəsiqəsi alması ilə bağlı məsələ müzakirəyə çıxarılıb. Komitə üzvləri bu nəqliyyat vasitələrinin son illər ölkədə geniş yayılması və onların iştirakı ilə baş verən yol-nəqliyyat hadisələrinin artması fonunda bu sahədə hüquqi tənzimləməyə ehtiyac olduğunu bildiriblər.

Deputatlar qeyd ediblər ki, bu nəqliyyat vasitələrinin idarə olunması üçün minimum bilik və bacarıqların yoxlanılması vacibdir. Qanunvericiliyə edilə biləcək mümkün dəyişikliklər sayəsində, bu kateqoriyaya aid olan sürücülərin müvafiq imtahanlardan keçməsi və vəsiqə alması tələb oluna bilər.

Hazırda qüvvədə olan qaydalara əsasən, mühərrik həcmi 50 kubsantimetrədək olan mopedi idarə etmək üçün sürücülük vəsiqəsi tələb olunmur. Lakin real vəziyyət göstərir ki, bu cür az güclü nəqliyyat vasitələri belə, düzgün idarə olunmadıqda ciddi təhlükələrə səbəb ola bilir. Statistik göstəricilər də sübut edir ki, yol qəzalarının bir hissəsi məhz moped və motosiklet sürücülərinin iştirakı ilə baş verir.

Təklif olunan dəyişikliklərin əsas məqsədi yol hərəkəti təhlükəsizliyinin artırılması, qəza hallarının və ölüm faktlarının azaldılması, eyni zamanda sürücülər arasında məsuliyyət hissinin formalaşdırılmasıdır. Müzakirə zamanı deputatlar bu boşluğun aradan qaldırılması və moped/motosiklet idarə edən şəxslərə minimal bilik və bacarıqlarını yoxlayan sürücülük imtahanlarının tətbiq olunması təklifini dəstəkləyiblər. Qeyd edilib ki, bu təşəbbüs yalnız cərimə və məhdudiyyətlər məqsədi daşımır, məqsəd ilk növbədə vətəndaşların təhlükəsizliyini təmin etməkdir. Eyni zamanda, bildirilib ki, bu sahədə maarifləndirmə işləri də genişləndirilməli, gənclər arasında yol hərəkəti mədəniyyəti təbliğ olunmalıdır.

Əgər qanunvericilikdə nəzərdə tutulan dəyişikliklər təsdiqlənərsə, gələcəkdə mopedi və ya motosikleti idarə etmək istəyən şəxslər əvvəlcə yol hərəkəti qaydalarını öyrənəcək, nəzəri və praktik imtahanlardan keçərək sürücülük hüququ əldə edəcəklər. Bu isə həm onların, həm də digər yol hərəkəti iştirakçılarının təhlükəsizliyini təmin edəcək.

Mövzu ilə bağlı **nəqliyyat üzrə ekspert Ərşad Hüseynovun** da fikirlərini öyrəndik. Ekspert layihə ilə tanış olmadığı üçün o barədə nəsə söyləməyə çətinlik çəkdiyini bildirdi: Yollarımızda bununla bağlı problemlər var. Moped idarə edən bəzi şəxslərin yol hərəkəti qaydalarına biganə yanaşdığının, öz həyat və sağlamlığını təhlükə altına ataraq real qəza şəraiti yaratdıqlarının çox vaxt şahidi oluruq. Bu istiqamətdə işlər görülməlidir və onlara hansısa bir üsulla daha səmərəli nəzarət olmalıdır. Qeyd edim ki, dünyada belə oxşar təcrübələr var. Misal üçün bəzi ölkələrdə velosiped sürücülərinə də nəzarət edirlər. Onları çox sadələşdirilmiş qaydada sorğu-sual edirlər, yol hərəkəti qaydaları ilə bağlı biliklərini lazımi səviyyədə saydıqdan sonra yollara buraxırlar.

Qeyd etdiyiniz məsələ isə çox incə bir məsələdir. Maraqlı olan odur ki, nəzarət səmərəli olmalıdır. Amma mexaniki nəqliyyat vasitələrini idarə etmək üçün nəzərdə tutulan sürücülük vəsiqəsi vermək düzgün olmaz. Çünki başqa bir prosedur olsa, daha yaxşı olar. Bunların avtomobil kimi qeydiyyata alınması da mümkün deyil. Çünki onların VİN kodu olmur. Onlar bəzən soyuducu, ütü kimi texnikalar sayılır və eyniləşmə nömrəsi də olmur. Hər halda yeniliklərin nədən ibarət olacağını



gözləmək lazımdır. Düşünürəm ki, o yeniliklərdə nəzərdə tutulanlar sadə olmalı və heç bir əlavə problem yaratmamalıdır. Amma səmərəli və işin ümumi faydasına istiqamətlənmiş olmalıdır.

Bəli, cəmiyyətin təhlükəsizlik çağırışlarına cavab olaraq moped və motosikletlərdən istifadə edən şəxslərin həm özlərinin, həm də digər hərəkət iştirakçılarının həyatını riskə atmaması üçün bu sahədə ciddi və sistemli yanaşma zəruridir. Əgər bu dəyişikliklər qanuniləşdirilərsə, moped və motosiklet idarə edən hər bir şəxs sürücülük vəsiqəsi almalı olacaq. Bu isə ölkədə yol hərəkəti təhlükəsizliyinin artırılmasına, qəza və ölüm hallarının azalmasına real töhfə verə bilər.

***Nurəngiz ADİLQIZI***
***XQ***

*Mətbəx sərgisi*

# Cənnət Qarabağın ləzzət dünyası

**Qarabağ hər daşında, hər qarış torpağında əcdadlarımızın izlərini yaşadan müqəddəs məkandır. Burada keçmişlə gələcək arasında qurulan körpü nəsillərə əbədi mirasdır. 14–16 oktyabr tarixlərində Bakı Ekspo Mərkəzində Xəzər İnşaat Həftəsi çərçivəsində 5-ci Yubiley sərgisində ilk dəfə olaraq “Qarabağ kuboku” – Milli Mətbəx İrsi Çempionatı keçirilir.**

Sərgi regionun mədəni irsini qorumaq və tanıtmaq baxımından əvəzsiz platforma rolunu oynayır. “Qarabağ kuboku” – Milli Mətbəx İrsi Çempionatı isə Qarabağın zəngin kulinariya irsini həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə nümayiş etdirməyə imkan yaradır. Çempionat Azərbaycan Milli Kulinariya Mərkəzinin təşkilati dəstəyi, eyni zamanda Dünya Kulinariya İcmaları Assosiasiyası və Azərbaycan Kulinariya Mütəxəssisləri Assosiasiyasının təşəbbüsü ilə keçirilir. Bu, Qarabağ mətbəxinin dəyərini və əhəmiyyətini daha geniş auditoriyaya çatdırmaq baxımından mühüm addımdır.

İştirakçıların çoxluğu xalqımızın Qarabağ sevgisinin tükənməzliyinin daha bir göstəricisidir. Müxtəlif yaşlı insanlar təamların hazırlanma prosesinə maraqla tamaşa edirdilər.

**Böyük həvəslə yemək hazırlayan gənc aşpaz Şəhriyar Məmmədlinin cəmi 18 yaşı olsa da, mətbəxdə ustalığı ilə hər kəsi heyran qoymuşdu:**

– Uşaqlıqdan yemək bişirməyə marağım olub. Yemək hazırlayanda ərzaqların necə bir-birinə qarışdığını görmək ayrı aləmdir. Hazırda Turizm və Sosial Xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində təhsil alıram. Təcrübə dövründə məni bir restorana göndərmişdilər. İlk günlər çətin idi, çünki mətbəxdə diqqət və dəqiqlik tələb olunur. Amma işi sevdiyim üçün tez alışdım. İndi həm oxuyur, həm də özümü bu sahədə inkişaf etdirirəm.







Bu gün bişirdiyim yemək “Şuşa qalyası”dır. Adı bəzilərinə tanış gəlməsə də, Qarabağ mətbəxinin ən seçilən nümunələrindəndir. Qalya, ümumiyyətlə, qədim türk mətbəxinə aiddir, ət, tərəvəz və ədviyyatlar uzun müddət birlikdə bişirilir. “Şuşa qalyası”nın dadı, qoxusu və tərkibi sanki o torpağın ətrini özündə daşıyır. Adi qalya əsasən ət, tərəvəz və ədviyyatın qarışığıdır. “Şuşa qalyası”nda isə quzu əti, heyva, albuxara, şabalıd, noxud, zəfəran və nar suyu kimi müxtəlif tərkiblər bir-birini tamamlayır. Sərt, şirin, ətirli və təbii dadlar birləşir. Bu yeməyin sirri onu səbirlə bişirməkdir. Tez bişirmək istəyənlər isə istədikləri dadı ala bilmirlər, çünki “Şuşa qalyası” hər inqrediyentin özünü tam açması üçün zaman tələb edir. Quzu əti öz yumşaqlığını və yüksək dadını yalnız asta odda bişəndə göstərir. Heyva və albuxara şirinliklərini, ədviyyatlar isə ləziz dadını tam hazır olanda verir. Yeməyi hazırlayarkən diqqət və qayğı ilə xırdalığı nəzərə almalısan.



**Bir-biri ilə yarışan aşpazların stendlərini gəzib onlara qiymət verən, kulinariyanın sirlərini öyrədən Əməkdar mədəniyyət işçisi, usta aşpaz Oruc Əliyev bildirdi ki, bu çempionat rəqabət deyil, Qarabağ mətbəxinin ənənələrini gənc nəsillərə ötürmək üçün fürsətdir:**

– Mən irəvanlıyam və “İrəvan Xanlığının Bölgə Mətbəxi” kitabının müəlliflərindən biriyəm. Hər bölgənin yeməyi torpağın məhsuldarlığından, bitkilərin çeşidindən və heyvandarlıqdan asılı olaraq fərqlənir. Hətta eyni yeməyin bir neçə adı olur. Məsələn, Cənubi Azərbaycan əhalisi arasında qalya müsənbə və ya pəncəm adlanır. Odur ki, eyni resept başqa bölgədə tamamilə fərqli dad verə bilər.

Yurdumun hər qarışını çox sevdiyim üçün Qarabağ mətbəxinə yaxşı bələdəm. Deyə bilərəm ki, Bakıda bişən ətlə Qarabağda bişən ət arasında fərq var. Bakı əti yumşaq, Qarabağ əti isə daha yağlı və şirindir. Eyni fərqi tərəvəz və meyvələrdə də görmək mümkündür. Torpağın xüsusiyyəti, suyun keyfiyyəti və iqlim fərqləri hər inqrediyentin dadını müəyyənləşdirir. Ona görə də bölgə mətbəxləri dad, görünüş və bişirmə üsulu baxımından bir-birindən fərqlənir.

Tarixi baxımdan da Qarabağ mətbəxi zəngindir. Qədim ticarət karvanları Azərbaycan ərazisindən keçdiyi üçün mətbəximiz müxtəlif mədəni təsirlərə açıq olub. Səyyahlar, diplomatlar və tacirlər Qarabağda ət, xəmir, göyərti və balıqdan hazırlanan ləziz təamları dadaraq heyran qalıb və bunu öz gündəliklərinə qeyd ediblər. Bu, Qarabağ mətbəxinin həm yerli, həm də regional təsirlərlə zənginləşdiyini göstərir.

Xörəklərimiz ocaq, təndir, çala, sac, manqal, buxarı və kürədə fərqli üsullarla hazırlanır. Boyanalı plov, döşəmə plov, qatıq aşı və sac üzərində bişirilən göy kətəsi bölgənin kulinariya nümunələrindəndir. Yeməklərdə istifadə olunan yerli bitkilərdən pencər, zəfəran, darçın, mixək, zirinc, zirə, sumaq, reyhan, keşniş, nanə, şüyüd, cəfəri, tərxun xörəklərə əlavə dad verir.

Qarabağ xanlığının qurucusu Pənahəli xanın dövründə hazırlanmış qiyməli, qırxbuğumlu, boyanalı, şüyüdlü, çığırtma, turşuqovurma və “şeşdrengili” plovları həm gündəlik həyat tərzində yeyilər, həm də ziyafətlər zamanı süfrələrin bəzəyi olardı. Maraqlıdır ki, bu yeməklər yalnız tərkibi ilə deyil, həm də mövsümlə fərqlənirdi. Məsələn, boyanalı plov yalnız yayın əvvəlində, boyana bitkisi yığıldığı zaman bişirilərdi.

Qarabağ quzusunun ətindən hazırlanan tikə, lülə, təndir və Şuşanın sac kababları da məşhurdur. Üzüm və meyvə bağları olan həyətlərdə bu yeməklərin yanında narşərab və doşab təqdim olunur. Şuşada bişirilən çörək növləri və xəmir məmulatları – külləmə, bozlamac, təndir çörəyi, közləmə, lavaş, xamralı, yuxa və fətir bayram süfrələrinin ayrılmaz hissəsidir. “Xırt-xırt” adlı yuxaya südlə bal və ya şəkər qatmağın isə ayrı ləzzəti var. Ona görə də hər inqrediyent torpağın, iqlimin və mədəniyyətin səsidir.

**Yarışmanın ən qızğın vaxtında aşpazların işlərinə nəzarət edən kulinar Firdovsi İsmayılov Qarabağ mətbəxi ilə bağlı fikirlərini bölüşdü:**

– Xalqımız 30 ilboyu Qarabağa həsrət qalıb. Bu müddət ərzində bölgə mətbəxini, onun unudulmaz ləzzətlərini Azərbaycanın şəhər və rayonlarında məskunlaşan qarabağlılar yaşadırdılar. Amma indi torpaqlarımıza qayıtdıq, ənənəvi xörəkləri gənc nəsil aşpazlarımız süfrələrə təqdim edirlər.

Qarabağın un məmulatları da dadlı, ləzzətlidir. Südlü çörək, fəsəli, yağlı kökə, əyirdək, köppəcə, səkkizlik – hər biri özünün xüsusi dadı və təqdimatı ilə seçilir. Məsələn, kətə hazırlananda yuxanın yarısına göyərti və müxtəlif içliklər qoyulur, digər yarısı ilə örtülərək qıraqları barmaqla yapışdırılır və sac üzərində bişirilir. Süfrəyə təqdim ediləndə içinə bir tikə yağ qoyulur, qatıqla yeyilir. Qutab isə onun kiçik, “qardaşı” sayılır; içliyi göyərti, ət və boranı ilə doldurulur. Maraqlısı budur ki, bu un məmulatları yalnız Qarabağa xas deyil, zamanla bütün türk xalqlarının mətbəxinə daxil edilib.

Qarabağ mətbəxinin süzmə və qurut ənənəsi xüsusilə diqqətəlayiqdir. Təmiz qatıq və ya ayranı pambıq parçadan süzdükdə alınan süzmə həm ayrıca yemək kimi, həm də xörəklərin tərkibində istifadə olunur. Süzməyə duz qatıb yoğurub qurudanda isə qurut alınır, kürəciklər və ya konus şəklində saxlanır, xörəklərə əlavə ləzzət verir. Yay aylarında isə qara qoyunun südünü dağlarda qalmış qarla qarışdıraraq “qar körəməzi” hazırlayırlar. Bu yalnız qara qoyunun südündən olur və şirinləşdirilmədən təqdim edilir. Dondurma ilə müqayisədə əsas fərqi bu olsa da, dadı elə zəngindir ki, yay səhərində dağ havası ilə qarışan bu yemək uşaqlıq xatirələrini, kənd həyatını və torpağın təbii ətrini bir anda göz önündə canlandırır.

Bu zəngin bölgədə şorbaların hazırlanması rayonlara görə fərqlənir. Ağdamda ətli şorbanın tərkibinə kartof, düyü, əriştə, alça, gavalı, zoğal qurusu və göyərti əlavə olunur, Cəbrayılda isə lobya üstünlük təşkil edir. Ağcabədi, Xocalı və Xocavənddə dovğanın hazırlanmasında nanə, Ağdam və Kəlbəcərdə yarpız, ispanaq kərəvizdən istifadə olunur. Laçında isə dovğa ayrandan hazırlanır və yalnız yarpızla yeyilir. Bu müxtəliflik Qarabağ mətbəxinin zənginliyini göstərir.

**Azərbaycan Kulinariya Mütəxəssisləri Assosiasiyasının icraçı direktoru və layihə rəhbəri Fərhad Aşurbəyli layihənin önəmini qeyd etdi:**

– Gənc kadrlar regional və milli mətbəxi öyrənməlidirlər. Bu məqsədlə ustad dərsləri, müsabiqələr keçirilir ki, onlar öyrəndiklərini gələcək həyatlarında tətbiq etsinlər. Bu gün 120-dən artıq gənc müsabiqədə iştirak edir, əsas yaş qrupu 19-25 yaş arasındadır. Münsiflər heyətimiz isə tanınmış aşpazlardan, restoran rəhbərlərindən və 30-40 illik təcrübəyə malik mütəxəssislərdən ibarətdir.

Qarabağ kuboku, “Qızıl Şah” beynəlxalq kulinariya çempionatına daxildir. “Qızıl Şah” artıq 5 dəfə keçirilib və beynəlxalq səviyyədə tanınaraq Dünya Kulinariya Cəmiyyətləri Assosiasiyası tərəfindən lisenziyalaşdırılıb. Qarabağ Kuboku isə yalnız milli mətbəx üzərində qurulmuş çempionat kimi keçirilir, məqsəd Azərbaycan kulinariya irsini özünəməxsusluğu ilə təqdim etməkdir.

Gələcəkdə çempionata Rusiya, Gürcüstan, İran və Türkiyədən də ustaların qatılması nəzərdə tutulur. Bu möhtəşəm tədbir Azərbaycan Milli Kulinariya Mərkəzi və Dövlət Turizm Agentliyinin təşkilati dəstəyi ilə həyata keçirildi, qədim ənənələri müasir formatda yaşadaraq Qarabağ mətbəxinin zənginliyini çatdırmaq imkanı yarandı.

***Fidan ƏLİYEVA***
***XQ***

*Birinci Türkoloji Qurultay – 100*

**1926-cı ilin 26 fevral – 6 mart tarixlərində Bakı şəhərində keçirilən Birinci Türkoloji Qurultay XX əsrdə türk xalqlarının elmi, mədəni və ictimai həyatında dönüş nöqtəsi kimi tarixə düşmüş mühüm hadisədir. Qurultay Sovet İttifaqında və dünyada yaşayan müxtəlif türk xalqlarının — azərbaycanlıların, tatarların, başqırdların, qazaxların, türkmənlərin, özbəklərin, qaqauzların, Krım türklərinin və başqalarının təmsilçilərini ilk dəfə bir araya gətirmişdi.**

# Türk xalqlarının elmi-mədəni birliyinin təməl məclisi



Məqsəd dil, əlifba, ədəbiyyat, etnoqrafiya və mədəniyyət sahəsindəki ümumi istiqamətləri müəyyənləşdirmək, ortaq elmi-metodik prinsiplər formalaşdırmaq idi. Qurultayda iştirak edən 131 nümayəndə arasında dövrün tanınmış alimləri, dilçiləri, tarixçiləri, yazıçı və publisistləri yer almışdı. İclaslara Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin sədri Səmədağa Ağamalıoğlu sədrlik etmişdi. Rəyasət Heyətinə həm yerli, həm də xarici elm və siyasət nümayəndələri – Vasili Bartold, Bəkir Çobanzadə, Aleksandr Samoyloviç, Əhməd Baytursunov, Qəlimcan İbrahimov, Osman Nuri Akçökraklı, Mehmed Fuad Köprülü, Ruhulla Axundov və başqaları daxil idi. Qurultayın fəxri rəyasət heyətinə isə Əli bəy Hüseynzadə, Nikolay Marr, Anatoli Lunaçarski və Vilhelm Tomsen kimi görkəmli alimlər seçilmişdilər.

Ən mühüm müzakirələrdən biri latın qrafikalı yeni türk əlifbasına keçid məsələsinə həsr edilmişdi. Qurultay bu sahədə elmi-metodik prinsipləri işləyib hazırladı. Qəbul edilən qərar əsasında 1929-cu ildən ərəb əlifbası SSRİ-dəki türk xalqları üçün latın əsaslı yeni yazı sistemi ilə əvəz olundu. Bu qərar türk xalqları arasında mədəni inteqrasiyanın və savadlanmanın artmasına səbəb oldu. Lakin 1939-cu ildə Sovet rəhbərliyi türk xalqları arasında milli yaxınlaşma siyasətindən imtina edərək latın əlifbasını kiril qrafikası ilə əvəz etdi. Bu isə türk xalqları arasında dil və mədəni əlaqələrin zəifləməsinə gətirib çıxardı. Sonda qəbul edilən qərara əsasən, 1927-ci ildə Səmərqənddə II Türkoloji Qurultayın keçirilməsi planlaşdırılsa da, siyasi şəraitin dəyişməsi və mərkəzi sovet ideologiyasının sərtləşməsi nəticəsində bu niyyət baş tutmadı. Qurultayın çoxsaylı iştirakçılarının sonrakı taleyi isə faciəvi oldu. 1930-cu illərin repressiyaları zamanı onların əksəriyyəti “pantürkizm” və “millətçilik” ittihamı ilə həbs edildi, bir çoxu güllələndi, bəziləri isə Sibir sürgünlərində həyatını itirdi. Bəkir Çobanzadə, Qəlimcan İbrahimov, Osman Nuri Akçökraklı, Ruhulla Axundov kimi tanınmış şəxsiyyətlər bu repressiya dalğasının qurbanı oldular.

Birinci Türkoloji Qurultay yalnız elmi məclis deyil, həm də türk xalqlarının ortaq kimliyini və mənəvi birliyini təsdiqləyən hadisə idi. O, türk dünyasının ortaq mədəni istiqamətini müəyyənləşdirdi. Milli oyanış və modernləşmə proseslərinə güclü təkan verdi. Gələn il qurultayın 100 illiyi qeyd olunacaq. Bu yubiley təkcə elmi hadisənin deyil, həm də xalq yaddaşında iz qoymuş, milli birlik ideyasına xidmət etmiş bir mənəvi hərəkatın xatırlanması baxımından mühüm əhəmiyyət daşıyır.

Qurultayın 100-dən artıq iştirakçısının həyatı, elmi fəaliyyəti və faciəli taleyi türk xalqlarının mübarizə və elm tarixinin unudulmaz səhifələrindəndir. Qurultayın 100 illiyi ərəfəsində zəkalı və fədakar nəsli anmaq yalnız tarixi borc deyil, həm də milli yaddaşın bərpasıdır. Türkçülük tarixini düşünərkən unutmamalıyıq ki, o ideyalar qələmlə yazıldı, amma can bahasına qorundu. Onların hər biri yalnız bir xalqın deyil, bütün türk dünyasının ortaq taleyinin daşıyıcıları idilər. Onların hər birinin həyatı, fəaliyyəti və faciəli sonu türk mədəniyyətinin, elminin və düşüncəsinin güllələnmiş və qurban verilmiş səhifələridir.

Qəzetimizdə qarşıdakı dövrdə təqdim edəcəyimiz silsilə yazılarla yalnız tarix danışmayacaq, həm də səsi susdurulmuş alimlərin, qələmi sındırılmış ideya adamlarının ruhunu sevindirəcəyik. Bu gün türkçülüyün səssiz qəhrəmanlarını xatırlamaq, adlarını yad etmək, həm də türk dünyasının elmi və mənəvi varisliyinə sahib çıxmaq, ortaq yaddaşımızı yaşatmaq deməkdir.

***Namiq QƏDİMOĞLU,***
***filologiya üzrə fəlsəfə doktoru,***
***Əməkdar jurnalist***

# Özbəkistan–Azərbaycan ədəbi əlaqələri Daşkənd konfransında

**Azərbaycanın Özbəkistandakı səfirliyinin nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi Daşkənd Dövlət Şərqşünaslıq Universiteti ilə birgə “Özbəkistan—Azərbaycan: ədəbi əlaqələri və əməkdaşlığın perspektivləri” mövzusunda beynəlxalq konfrans keçirib. Məclisdə hər iki ölkənin elm, mədəniyyət, incəsənət xadimləri, alimlər, universitetin professor-müəllim heyəti, tələbələr və media nümayəndələri iştirak ediblər.**



Daşkənd Dövlət Şərqşünaslıq Universitetinin rektoru, professor Gülçehrə Rixsiyeva son illərdə bütün sahələrdə olduğu kimi, mədəni-humanitar istiqamətdə də əlaqələrin durmadan inkişaf etdiyini diqqətə çatdırıb. Özbəkistan Yazıçılar İttifaqı sədrinin müavini Minhojiddin Mirzə isə Azərbaycan və Özbəkistanın yazıçılar birlikləri arasında əməkdaşlıqdan, şair və yazıçıların dostluğundan, ədəbi əlaqələrin tarixindən danışıb.

Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Akif Marifli Azərbaycan ilə Özbəkistan arasında dostluq və əməkdaşlıq münasibətlərinin dərin tarixi köklərə əsaslandığını bildirib. Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) beynəlxalq əlaqələr üzrə prorektoru, professor Mahirə Hüseynova “Özbəkistan və Azərbaycan xalqlarının mədəni və linqvistik ortaq kökləri: tarixi və müasir aspektlər” mövzusunda elmi məruzəsində Azərbaycan–Özbəkistan münasibətlərinin tarixi, siyasi və mədəni inkişaf dinamikasını geniş təhlil edib.

Sonra bir qrup özbək alimi, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, professor Bədirxan Əhmədli, ADPU-nun müəllimi, filologiya elmləri doktoru, professor Könül Səmədova, Bakı Dövlət Universitetinin müəllimi, dosent Sevinc Ruintən, filologiya elmləri doktoru, professor Sevinc Əliyeva və başqaları ölkələrimiz arasında ədəbi əlaqələr, elm, mədəniyyət, ədəbiyyat sahələrində inteqrasiya proseslərindən danışıblar.

Konfransda ölkəmizlə onlayn bağlantı yaradılıb.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 221 (30915) 15 oktyabr 2025-ci il, çərşənbə

## İDMAN

### Avropa çempionatında gümüş medal




**Kişi şahmatçılardan ibarət Azərbaycan millisi Gürcüstanın Batumi şəhərində keçirilən Avropa çempionatında gümüş medal qazanıb.**

Şəhriyar Məmmədyarov, Rauf Məmmədov, Aydın Süleymanlı, Məhəmməd Muradlı və Eltac Səfərlidən ibarət kollektiv IX turda Serbiya şahmatçılarına uduzub – 1:3. Son turda Şəhriyar Məmmədyarov, Rauf Məmmədov və Aydın Süleymanlı keçirdikləri görüşdə məğlub olub. Yalnız Eltac Səfərli görüşü qələbə ilə başa vurub. Beləliklə, komandamız yarışı 13 xalla ikinci sırada bitirib.

Ukrayna millisi birinci, Serbiya isə üçüncü nəticə göstərib.

Qadınlardan ibarət seçmə komandamız isə sonuncu görüşdə Polşaya məğlub olub – 1.5:2.5

### Lima Qran-prisində 7 medal




**Azərbaycan cüdoçuları Perunun paytaxtı Limada keçirilmiş Qran-pridə 7 medal qazanıblar.**

Sonuncu yarış günündə 90 kiloqram çəki dərəcəsində çıxış edən Murad Fətiyev beş aylıq fasilədən sonra qayıdışını gümüş medalla qeyd edib. Ən ağır çəkidə mübarizədə isə Kənan Nəsibov (+100 kiloqram) bürünc medala sahib çıxıb. Bu, 21 yaşlı cüdoçumuzun Dünya Turu Seriyasında qazandığı ilk medal kimi əlamətdar olub.

Qeyd edək ki, daha əvvəl Əhməd Yusifov (60 kq) gümüş, Könül Əliyeva (48 kq), Ruslan Paşayev, Rəşad Yelkiyev (hər ikisi 66 kq) və Ömər Rəcəbli bürünc mükafata sahib çıxıblar.

### Qadın voleybolçuların çempionatı başladı



**Qadın voleybolçular arasında Azərbaycan çempionatında yeni mövsümə start verilib. Yüksək Liqanın Gəncə İdman Sarayında təşkil olunan açılış oyunu "Gəncə" və "Azərreyl" komandaları arasında baş tutub. Qalib tay-brekdə müəyyənləşib. Matç son çempion "Azərreyl"in 3:2 hesablı qələbəsi ilə bitib.**

Turun növbəti oyunu sabah UNEC və "Milli Aviasiya Akademiyası" komandaları arasında keçiriləcək. I turun "DH Volley" – "Abşeron" və "Gənclər" – "Murov Az Terminal" qarşılaşmaları Azərbaycan Voleybol Federasiyasına ünvanlanmış müvafiq müraciətlərə əsasən təxirə salınıb. Bu oyunların keçiriləcəyi tarix barədə əlavə məlumat veriləcək.

*Q.YUSİFOĞLU*
*XQ*

**Əvvəllər istehlakçı mağazalara gedib məhsulu yerində gördükdən sonra alıb-almamağa qərar verirdi. Bu gün isə bir çox insan məhsulu bir kliklə seçib, evə çatdırılmasını üstün tutur. Hətta mağazada gördüyümüz bəzi məhsulları onlayn daha ucuz qiymətə sifariş etmək mümkündür. Son illərdə texnologiyanın inkişafı, mobil ödəmə sistemlərinin sadələşməsi, çatdırılma xidmətlərinin sürətlənməsi və e-ticarət platformalarının çoxalması bu sahəni sürətlə genişləndirdi.**

# Alış-veriş evlərə gəlir

## Rəqəmsal sövdələşmə necə baş verir?



"Amazon", "Alibaba", "Trendyol", "Etsy", "Wolt", "Bolt Market" kimi platformalar artıq gündəlik həyatımızın bir parçasına çevrilib. Azərbaycanda da e-ticarət sistemi getdikcə genişlənir. Buna baxmayaraq, ənənəvi ticarət də öz yerini qoruyur. Çünki bəzi müştərilər üçün məhsulu canlı şəkildə görmək, keyfiyyətini yoxlamaq və satıcı ilə birbaşa ünsiyyətdə olmaq daha güvənlidir.

Elektron ticarətin əsası logistikadır, çünki sifarişin qəbulu, məhsulun anbardan çıxarılması, qablaşdırılması, daşınması və müştəriyə çatdırılması planlı şəkildə idarə olunmalıdır.

Əgər bu zəncirdə kiçik bir səhv olarsa, məsələn, gecikmiş çatdırılma və ya yanlış məhsul göndərilməsi kimi hallarda müştəri narazı qalır.

Kiçik şirkətlər çox vaxt bu prosesi özləri idarə edirlər. Onların resursları nisbətən məhduddur və xarici logistik şirkətlərlə əməkdaşlıq etmək bəzən baha başa gəlir. Bununla belə, bu müəssisələr fərdi yanaşmaları ilə fərqlənirlər. Böyük onlayn platformalar isə çox vaxt logistik sistemlərini avtomatlaşdırır, tələb və çatdırılma xəritələrini analiz edir. Bu, həm xərcləri azaldır, həm də çatdırılmanı daha sürətli və dəqiq edir.

Ənənəvi ticarət daha çox vitrin görünüşü, məhsulun təqdimatı və müştəri ilə birbaşa ünsiyyət üzərində qurulur. Burada kuryer xidməti və ya onlayn ödəniş mexanizmi həlledici rol oynamır. Alıcı üçün əsas satıcının səmimiyyəti, məhsulun keyfiyyəti və bazarlığın emosional tərəfidir. Bəlkə də buna görə, insanlar bəzən eyni məhsulu onlayn daha ucuz qiymətə ala bilsələr belə, bazara, ticarət mərkəzinə və ya kiçik mağazalara getmək istəyirlər.

Bu gün bir çox şirkətlər artıq "phygital" (physical + digital) adlanan modelə keçid edir. Yəni fiziki mağaza və onlayn satış kanalları bir-birini tamamlayır. Məsələn, müştəri məhsulu mağazada görür, amma sonradan onu onlayn sifariş edir və ya əksinə, onlayn baxır, amma mağazadan götürür.

COVID-19 pandemiyası insanların həyat ritmini dəyişdi. Evdə qalma qaydaları, sosial məsafə və karantin məhdudiyyətləri bir çox sahələrdə olduğu kimi, ticarət sisteminə də yeniliklər gətirdi. Onlayn ticarətin ən praktik tətbiq sahələrindən biri ərzaq məhsullarının satışıdır. Pandemiyadan sonra insanlar bazarlığın tıxac, növbə və vaxt itkisi olduğunu anladılar. Bir toxunuşla meyvə-tərəvəz, süd məhsulları və çörək sifariş etmək mümkün oldu. Bu, xüsusilə iş qrafiki sıx, evdə uşaq və ya yaşlı olan insanlar üçün böyük rahatlıq yaratdı.

Statistik məlumatlara görə isə e-ticarət bazarı 2023-cü ildə 17 milyard dollar olub, 2032-ci ilə qədər isə bu rəqəm 943 milyard dolları keçəcək.

**İqtisadçı ekspert Xalid Kərimli qeyd edir ki, son illər onlayn ticarət sürətlə genişlənsə də bu proses ənənəvi ticarətin tamamilə aradan qalxacağı anlamına gəlmir.**



– Müasir dövrdə "ROPO" - "Research Online, Purchase Offline" (onlayn araşdır, oflayn al) adlanan maraqlı konsepsiya mövcuddur. Bu model göstərir ki, insanlar məhsulu əvvəlcə internet üzərindən araşdırır, lakin sonda onu mağazadan alırlar. Onlayn kanalların artmasına baxmayaraq, oflayn ticarət hələ də aktuallığını qoruyur. İstehlakçılar məhsulu görmək, toxunmaq, ölçüsünü, keyfiyyətini yoxlamaq istəyirlər. Kompüter və telefon vasitəsilə minlərlə məhsul görmək mümkündür, lakin qərar çox vaxt fiziki təmasdan sonra verilir. Bu, bazarın sosial-psixoloji təbiətindən irəli gəlir.

Azərbaycanda isə onlayn və oflayn ticarət arasında müəyyən balans pozuntusu müşahidə olunur. Dövlətin 300 dollara qədər şəxsi idxalata vergi tətbiq etməməsi, onlayn alış-verişi daha əlverişli vəziyyətə gətirib. Yəni vətəndaş 300 dollara qədər məhsulu xaricdən sifariş etdikdə vergi ödəmir, amma eyni məhsulu ölkə daxilində mağazadan aldıqda sahibkar vergi ödəməli olur. Nəticədə bu xərclər qiymətin üstünə əlavə olunduğundan alıcı üçün oflayn alış baha başa gəlir.

Burada məqsəd onlayn ödənişləri və rəqəmsal dövriyyəni genişləndirmək olsa da bu, bazarda süni üstünlük yaradır. Hazırda onlayn ticarət 30–36 faizədək vergi fərqinə görə sahibkar üçün daha sərfəlidir. Bu, müəyyən mənada yerli istehsala və kiçik bizneslərə mənfi təsir göstərir, çünki onlar eyni şərtlərlə rəqabət apara bilmirlər.

Ənənəvi ticarətin isə özünəməxsus üstünlükləri var: müştəri mağazada satıcı ilə birbaşa ünsiyyət qurur, məhsulun keyfiyyətini qiymətləndirə bilir. Lakin bu formatın da mənfi cəhətləri az deyil: icarə, əməkhaqqı, kommunal xərclər kimi əlavə məsrəflər məhsulun son qiymətinə təsir göstərir.

Onlayn ticarət isə vaxt və məkan sərhədlərini aradan qaldırır, qiymətləri müqayisə etməyə imkan verir, lakin bəzən sifarişin qaytarılması, məhsulun keyfiyyəti və ya gecikməsi kimi problemlər yaradır. Yaxın vaxtlarda ticarətin tamamilə onlayn formata keçəcəyini düşünmək hələ tezdir. İnsanın məhsula toxunmaq və yerində qərar vermək vərdişi hələ uzun müddət bazarın oflayn hissəsini qoruyacaq. Onlayn ticarət sürətlə inkişaf etsə də, ənənəvi ticarətin sosial və emosional çəkisi onu hələ uzun illər iqtisadi sistemin vacib elementi kimi saxlayacaq.

**Sosioloq Üzeyir Şəfiyev deyir ki, biz artıq rəqəmsal cəmiyyətin, süni intellekt və elektron kommunikasiya texnologiyalarının (EKT) formalaşdırdığı dövrdə yaşayırıq:**



– Gələcəkdə texnologiyanın daha da təkmilləşməsi ilə bu sahədə müəyyən kompensasiya mexanizmlərinin formalaşacağı istisna deyil. Lakin hər bir yeniliklə yanaşı, mənfi təsir risklərini də nəzərə almaq vacibdir. Məhz buna görə "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası" təsdiqləndi. Sənəddə süni intellektdən istifadənin etik çərçivələri, hüquqi məsuliyyət prinsipləri və təhlükəsizlik risklərinin idarə olunması xüsusi vurğulanır. Bu, dövlətin həm texnoloji inkişafı, həm də insan mərkəzli dəyərləri qorumaq niyyətindən xəbər verir.

Əmək bazarında süni intellekt artıq rəqib kimi görünür. Yeni avtomatlaşdırılmış alətlər və robotik sistemlər bəzi peşələri əvəz etməyə başlayıb. Lakin tarix göstərir ki, hər texnoloji inqilab insana qarşı deyil, onunla birlikdə inkişaf edib. İnsanın yaradıcı olması, etik düşüncəsi və emosional zənginliyi bu rəqabətdə qalib tərəf olaraq qalmasını təmin edir.

**Ərzaq və geyim mağazasının sahibi Valeh İbrahimli bildirir ki, müştəriyə seçim azadlığı vermək artıq ən vacib məsələdir:**

– Biz əvvəllər yalnız ənənəvi satışla məşğul idik, müştəri məhsulu görür və bəyənirdisə alırdı. İnsanların vaxtı azaldıqca rahatlıq istəyi artdı və hər kəs buna uyğunlaşmağa məcbur oldu – onlayn sifariş sistemləri yaradıldı. İlk vaxtlar bir az çətin oldu, həm texniki tərəfi, həm də çatdırılma prosesi müəyyən təşkilatçılıq tələb edirdi. İndi bu, bizim üçün böyük bir üstünlüyə çevrildi. Bəzi müştərilər hələ də mağazaya gəlməyi sevir, məhsulu əllə yoxlayır, tərəvəzə baxır, qiymət müqayisəsi aparır.

Amma çoxları, artıq, sadəcə bir düyməyə basıb sifariş etməyə üstünlük verir. Əsas məsələ budur ki, müştəri məmnun qalsın. Ənənəvi mağazanın üstünlüyü onun etibarındadır, insanlar satıcını, mağazanı tanıyır, amma onlayn sistemdə də güvən qazananda, müştərilər artıq fiziki əlaqəyə ehtiyac duymur. Müştəriyə göstərmək lazımdır ki, məhsul haradan gəlir, necə qablaşdırılır, çatdırılır. Əgər bu inamı yarada biliriksə, müştəri satıcıya sadiq qalır – istər mağazada, istər telefonda.

**Alıcı Aytac Baxşıyeva da əvvəllər mağazaya gedib alış-veriş etməyi sevdiyini deyir:**

– Ərzağı, meyvəni, geyimi öz gözlərimlə görmək mənə daha rahat gəlirdi. Amma indi həm ənənəvi, həm də onlayn satıcılardan alış-veriş edirəm, hansı vəziyyətdə daha sərfəli məhsul alacağımı artıq öz təcrübəmlə bilirəm.

Məsələn, gündəlik süd, çörək, yumurta, tərəvəz kimi məhsulları tez-tez onlayn sifariş edirəm. İşdən gec gələndə və ya hava pis olanda evdən çıxmağa ehtiyac qalmır, hər şey ünvana gətirilir. Amma paltar və bəzi ev əşyalarını mağazadan alıram. Çünki onlayn aldıqda bəzən rəng və ölçü fərqləri olur, geyimi üzərimdə görmək, parçasını hiss etmək istəyirəm.

*Ləman TƏHMƏZ*
*XQ*

## HAVA

# Bəzi rayonlarda yağış yağacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin axşam bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Cənub-şərq küləyi axşam şimal-şərq küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturu gecə 14-17, gündüz 20-23 dərəcə isti olacaq.



Atmosfer təzyiqi normadan yüksək 764 millimetr civə sütunu, nisbi rütubət isə gecə 80-85, gündüz 60-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi şərq rayonlarında qısamüddətli yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 9-13, gündüz 19-24, dağlarda gecə 0-4, gündüz 5-9 dərəcə isti olacağı bildirilir.

*Q.ƏLİYEV*
*XQ*

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3514
SİFARİŞ 1951
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00